HARUN YƏHYA
(ADNAN OKTAR)

# ŞEYTANIN SİLAHI: ROMANTİZM



HARUN YƏHYA

# Şeytanın silahı: ROMANTİZM

*Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq. (Muminun surəsi, 106)*

# MÜNDƏRİCAT

1 Ön söz 8
2 Giriş 9
3 Həqiqi və saxta sevgi 11
4 Romantik milliyyətçilik 15
5 Romantizmin digər ideologiyaları 44
6 Dini pərdə altında tətbiq olunan romantizm 59
7 İmanla bağlı olan əsl ağıl 68
8 Romantizmin növləri 92
9 Romantik sevgi anlayışı 121
10 Romantizmin fiziki təxribatları 137
11 Nəticə: romantizm xəstəliyindən xilas olmaq 144

# Müəllif və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada doğulub. İbtidai, orta və lisey təhsilini Ankarada bitirib. Sonra İstanbul Memar Sinan Universiteti Gözəl Sənətlər Fakültəsində və İstanbul Universiteti Fəlsəfə Bölməsində təhsil alıb. 1980-ci ildən başlayaraq imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlayıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və Darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya çıxaran çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəkildən ibarət olan 45.000 səhifəlik bir külliyyatdır və bu külliyyat 41 dilə tərcümə edilmişdir.

Müəllifin təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin; Harun və Yəhyanın adlarını yad etmək, xatirələrinə hörmət məqsədilə götürülmüşdür. Müəllif tərəfindən kitabların üz səhifəsində Rəsulallahın möhüründən istifadə edilməsinin simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-Kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v.) də xatəmül ənbiya olmasının rəmzidir. Müəllif nəşr etdirdiyi bütün əsərlərində Quranı və Rəsulallahın sünnəsini özünə rəhbər etmişdir. Bununla da, inkarçı düşüncə sistemlərinin əsas iddialarını və dinə qarşı yönəldilən etirazları susdurmaq üçün "son söz"ü deməyi hədəfləmişdir. Çox böyük bir hikmət və kamal sahibi olan Rəsulallahın möhüründən bu niyyətin bir duası olaraq istifadə edilmişdir.

Müəllifin bütün əsərlərindəki əsas hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi əsas

imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğınca tətbiq olunmalarını göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malaziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox ölkəsində bəyənilərək oxunur. İngiliscə, fransızca, almanca, italyanca, ispanca, portuqalca, urduca, ərəbcə, albanca, rusca, boşnakca, uyğurca, indoneziyaca, malayca, benqalicə, serbcə, bolqarca, çincə, kişvahilcə (Tanzaniyada istifadə edilir), hausaca (Afrikada geniş şəkildə istifadə edilir), dhivelhicə (Mauritusda istifadə edilir), danimarkaca və isveççə kimi bir çox dillərə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən qəbul edilmişdir.

Dünyanın hər yerində maraqla qarşılanan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olmuşdur. Kitabları oxuyan, araşdıran hər adam bu əsərlərdəki hikmətli, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varır. Bu əsərlər sürətli təsir etmə və qəti nəticə vermə xüsusiyyətlərinə malikdir. Əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın dünyagörüşlərin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr belə, ancaq romantik bir inadla müdafiə edə bilərlər. Hal-hazırda bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikrən məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və izahatlarının möhtəşəmliyindən qaynaqlanmışdır. Müəllif bu əsərləri ilə yalnız Allahın hidayətinə vəsilə olmağı niyyət etmişdir. Bundan başqa, bu əsərlərin nəşr olunmasında heç bir maddi mənfəət nəzərdə tutulmamışdır.

Bu həqiqətlər düşünüldüyü zaman insanların görmədiklərini onlara göstərən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli bir xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmaq yerinə, insanların zehinlərini qarışdıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüd yaradan, imani məsələdə güclü və kəskin təsiri olmayan, ümumi təcrübəyə əsaslanan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olacaq. Bu mövzuda şübhəli olanlar Harun Yəhyanın əsərlərinin məqsədinin dinsizliyi aradan qaldırmaq və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıqca göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilinməlidir ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikrən məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox artan zülm, fəsad və qarışıqlıq mühitində bu xidmət daha sürətli və təsirli bir şəkildə edilməlidir. Əks halda çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə əsas rolu öz üzərinə götürmüş Harun Yəhya külliyyatı Allahın izni ilə XXI əsrdə dünyadakı bütün insanları Quranda təsvir edilən rahatlığa və sülhə, düzgünlüyə və ədalətə, gözəlliyə və xoşbəxtliyə aparan bir vəsilə olacaq.

# Oxucuya

• Bu kitabda və başqa işlərimizdə təkamül nəzəriyyəsinin aradan qaldırılmasına xüsusi yer ayrılmasının səbəbi, bu nəzəriyyənin din əleyhinə olan hər cür fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən Darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Bu səbəbdən bu nəzəriyyənin bir aldatma olduğunu göstərmək çox əhəmiyyətli imani vəzifədir. Bu vacib xidmətin bütün insanlara çatdırılması isə zəruridir. Bəzi oxucularımız bəlkə bir kitabımızı oxumaq imkanı əldə edə bilər. Bu səbəbdən, hər kitabımızda bu mövzuya xülasə şəklində olsa da, bir hissə ayırmağa qərar vermişik.

• Bu kitabların məzmunu ilə əlaqədar vacib olan bir başqa xüsusiyyət də vardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri ilə izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və Quran əxlaqına tabe olmağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanmışdır.

• Bu izahat əsnasında istifadə edilən səmimi və sadə üslub isə kitabların hər kəs tərəfindən rahatlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izahat sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ifadəsinə tamamilə uyğundur. Dini inkar etmək mövzusunda israr edənlər belə, bu kitablarda izah edilən həqiqətlərin doğruluğuna etiraz edə bilmirlər.

• Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları, mövzu ilə əlaqədar fikir və təcrübələrini də bir-birləri ilə bölüşmələri baxımından faydalı olacaqdır.

• Bununla yanaşı, yalnız Allahın razılığı üçün yazılmış bu kitabların tanınmasında və oxunmasında iştirak etmək belə böyük bir xidmət olacaq. Çünki yazıçının bütün kitablarında isbat etmək və razı salmaq istiqaməti son dərəcə güclüdür. Bu səbəblə dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

• Kitabların sonunda yazıçının başqa əsərlərinin təqdimatının əlavə olunmasının isə əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı əlinə alan adam yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib olan daha bir çox əsər görəcək. İmani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynaq təcrübəsinin olduğuna şahid olacaq.

• Bu əsərlərdə, bəzi başqa əsərlərdə rast gəlindiyi kimi, yazıçının şəxsi qənaətlərinə, şübhəli qaynaqlara əsaslanan izahlara, yanlış və ədəbsiz üslublara, şübhə və ümidsizliyə sürükləyən izahatlara rast gələ bilməzsiniz.

# Ön söz

> *(Bu) mübarək Kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik.*
>
> **(Sad surəsi, 29)**

Din əxlaqından uzaq olan cəmiyyətlərdə çox vaxt doğrular yanlış, yanlışlar isə doğru olaraq tanıdılır. Allahın məmnun olmayacağı, səhv hərəkətlər yaxşı kimi göstərilib və təşviq olunarkən, gözəl hərəkətlərlər son dərəcə adi qarşılana bilər, hətta tənqid belə edilə bilər. Yanlış və doğruların bir-birinə qarışması, dindən uzaq yaşayan cəmiyyətlərdə tez-tez rast gəlinən, hətta ümumi quruluşu meydana gətirən bir vəziyyətdir.

Romantizm də "doğru" zənn edilən səhvlərdən biridir. Romantizm cahiliyyə cəmiyyətlərində şəfqətli, yaxşı insanlara xas, gözəl bir xüsusiyyət kimi göstərilir. Halbuki bir insanın qarşılaşdığı hadisələrə romantik yanaşması, kitab boyunca ətraflı şəkildə araşdıracağımız kimi, hər istiqamətdən son dərəcə təhlükəlidir. Çünki romantizm insanlar üçün əhəmiyyətli və həyati xüsusiyyətlərdən biri olan "ağlı" tamamilə sıradan çıxarır.

Bu kitabda romantizm kimi bir mövzunun araşdırılmasında məqsədimiz təhlükəsiz kimi əks etdirilən, amma əslində insanlara hədsiz zərərlər verən bir mövzuya diqqət çəkməkdir. Sadə bir xüsusiyyət zənn edilən romantizmin istər cəmiyyət, istərsə də fərdlər üçün nə qədər ciddi bir təhlükə olduğunu göstərməkdir. Bu təhlükədən xilas olmağın nə qədər asan olduğunu Allahın bütün insanlara göndərdiyi bir rəhbər olan Qurana əməl olunduğu zaman insanın duyğularının ağlının önünə keçə bilməyəcəyini nümunələrlə göstərməkdir.

# Giriş

Onlardan gücün çatdığı kimsələri səsinlə (günah)a təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. (İsra surəsi, 64)

İnsanları din əxlaqından uzaqlaşdıran, Rəbbimiz olan Allaha qulluq etməkdən çəkindirən, onların başına saysız-hesabsız bəlalar gətirən hiyləgər bir təhlükə vardır. Bu təhlükə həyatın müxtəlif sahələrində, müxtəlif hadisələrlə qarşımıza çıxa bilər. Bəzən bir faşistin yumruğu, bəzən bir kommunistin söylədiyi marş, bəzən də sevdiyi qıza eşq məktubu yazan bir gəncin sözləri bu təhlükədən qaynaqlana bilər.

Bu təhlükənin ən əhəmiyyətli istiqaməti isə insanların böyük bir hissəsinin bunu təhlükə olaraq görməməsidir. Bunun Quran əxlaqına tamamilə zidd bir ruh halı olduğunu isə çox az insan dərk edir. Hətta insanların bir çoxu bu ruh halını təhlükə və səhv deyil, təqdir edilməli və yaşanması lazım olan bir üstünlük kimi görürlər.

Bu təhlükə insanları ağıllarına görə deyil, hisslərinə, yəni ehtiraslarına, əsəblərinə, zəifliklərinə və inadlarına görə yaşamağa yönəldən duyğusallıqdır.

Duyğusallıq - dünyada yüz milyonlarla insanı təsiri altına almış bir cahiliyyə mədəniyyətidir. Əslində, şeytan tərəfindən insanları Allahın yolundan sapdırmaq üçün istifadə edilən silahlardan biridir. Çünki duyğusallığın pəncəsinə düşmüş insan ağlından istifadə edə bilmir. Ağlından istifadə etmədiyi zaman isə nə özünü yaratmış olan Allahı təqdir edə bilər, nə Onun dəlilləri və hikmətləri üzərində düşünə bilər, nə də Quran əxlaqının incəliklərini qavrayıb yaşaya bilər. Çünki din əxlaqının

yaşanması ağılla mümkündür və Allah Quranı, “onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün” (Sad surəsi, 29) ayəsini nazil etmişdir.

Qısacası, bir insanın duyğusallıq xəstəliyi müalicə edilmədən, dini həqiqi mənada qavraması və yaşaması mümkün deyil. Duyğusallıq xəstəliyi müalicə edilmədən dünyadakı saysız qarşıdurmaların, insanların bir-birlərinə qarşı etdikləri zülmün, səbəbsiz ağrı-acı və təcavüzkarlığın da ortadan qalxması mümkün deyil.

Bu səbəbdən kitabda duyğusallıqdan bəhs edəcək, bu cahiliyyə mədəniyyətinin yaxın tarixdəki və gündəlik həyatımızdakı bəzi nümunələrini araşdıracağıq. Heç kimin özünü bu təhlükədən uzaq görməməsi və şeytanın hər insanı çəkməyə çalışdığı bu bataqlığa qarşı hər kəsin diqqətli olması lazımdır.

# Həqiqi və saxta sevgi

Ey iman gətirənlər! Mənim də düşmənim, sizin də düşməniniz olanları dost etməyin. Siz onlara qarşı sevgi bəsləyirsiniz; lakin onlar sizə haqdan gələni inkar etdilər... (Mumtəhənə surəsi, 1)

Duyğusallıq, yəni başqa sözlə desək, romantiklik çox vaxt "sevgi" duyğusu adı altında öz təsirini göstərir. Məsələn, sonrakı səhifələrdə araşdıracağımız romantik radikal milliyyətçilər öz millətlərini çox sevdiklərini söyləyərək başqa millətlərə qarşı kin bəsləyir və hətta təcavüzkarlıq göstərirlər. Və ya bir gənc qıza aşiq olan, onu həyatının yeganə məqsədi hesab edən, "sənə aşiqəm" deyərək şeirlər yazan və hətta intihara təşəbbüs edəcək şəkildə irəli gedərək bu gənc qızı "ilahlaşdıran" bir gəncin "sevgi" anlayışıdır. Homoseksuallar, yəni Allahın haram etdiyi bir azğınlığı həyasızca və israrla tətbiq edən insanlar da "sevgi"ni bir-birlərində tapdıqlarını söyləyirlər.

İnsanların əksəriyyəti isə "sevgi" adı verilən hər duyğunun həmişə doğru, təmiz, hətta müqəddəs olduğunu zənn edir və yuxarıda saydıqlarımıza bənzər romantizm nümunələrini məqbul görürlər.

Əlbəttə ki, sevgi Allahın insana bəxş etdiyi gözəl bir duyğudur. Amma əhəmiyyətli olan bu sevginin kimə və hansı düşüncələrlə bəsləndiyi, yəni əsl sevgi olub-olmadığıdır. Duyğusallığın gətirib çıxartdığı azğın sevgi anlayışı ilə Allahın bizə Quranda öyrətdiyi həqiqi sevgi anlayışı bu nöqtədə bir-birindən ayrılır.

Bu mövzuları kitabda araşdıracağıq. Ancaq əvvəlcə, Qurana görə sevginin meyarını açıqlayaq: Qurana görə sevgi ona layiq olanlara göstərilir. Sevgiyə layiq olmayanlar isə sevilməz. Hətta onlara "büğz" edilər, yəni

qəlbən soyuqluq duyular. Sevgiyə layiq olan isə sahib olduğu əxlaqa görə müəyyən olunur.

Mütləq sevgiyə layiq olan tək varlıq, hamımızın yaradıcısı olan Allahdır. Allah bizi var etmiş, saysız nemətlərlə ruziləndirmiş, bizə yol göstərmiş və əbədi cənnəti vəd etmişdir. Hər cür çətinliyimizdə O bizə kömək edir, hər səmimi çağırışımıza O cavab verir. Bizi O doyurur, xəstələndiyimizdə bizə O şəfa verir, qəlbimizi O qurtuluşa qovuşdurur. Bu səbəbdən kainatın sirrini qavrayan insan hər şeydən çox Allahı sevir. Sonra da Allahın sevdiklərini, yəni Allahın rizasına uyan saleh insanları sevir.

Digər tərəfdən, Allaha qarşı üsyankar olanlar, Rəbbimizə üsyan edən nankorlar isə sevgiyə layiq deyillər. Bu insanlara qarşı sevgi bəsləmək doğru deyil və Allah bu mövzuda iman edənləri belə xəbərdar edir:

> *Ey iman gətirənlər! Mənim də düşmənim, sizin də düşməniniz olanları dost etməyin. Siz onlara qarşı sevgi bəsləyirsiniz; lakin onlar sizə haqdan gələni inkar etdilər və Rəbbiniz olan Allaha iman etdiyiniz üçün elçini və sizi (yurdunuzdan) sürgün edib qovmuşlar. Əgər siz Mənim yolumda cəhd etmək və Mənim razılığımı qazanmaq üçün (bu yola) çıxmısınızsa, (bəs niyə) onlara qarşı gizli sevgi bəsləyirsiniz? Mən sizin gizli və aşkarda etdiklərinizi bilirəm. Sizdən bunu kim edərsə, əlbəttə ki, yolun ortasından azmış olar.*
>
> **(Mumtəhənə surəsi, 1)**

Ayədən göründüyü kimi, iman edənlər inkarçılara qarşı sevgi bəsləməzlər. Ancaq burada əhəmiyyətli bir nüansı xatırlatmaqda fayda vardır. Mömin dini inkar edən bir insana qarşı ürəyində bir sevgi duymasa da, o insanın iman etməsi, müsəlman olması üçün əlindən gələn hər şeyi edər. Yəni, burada bəhs edilən "sevgi bəsləməmək" vəziyyəti qarşıdakı insana hirslənmək, onun yaxşılığını istəməmək mənasını

verməz. Əksinə, Allaha iman edən bir insan öyüd ala biləcək, doğru yolu tapa biləcək hər insana dini təbliğ etmək, cənnətin və cəhənnəmin varlığını xatırlatmaq, ölüm və hesab günü ilə qarşı tərəfi xəbərdar edib qorxutmaq vəzifələrini əksiksiz olaraq, şövqlə yerinə yetirər.

Onun bütün səyinə baxmayaraq, bir insan iman etməsə də, yenə müsəlmanın ədalətli rəftarında bir dəyişiklik olmaz. Möminlərə zərər verməyə, insanlar arasında təxribatçılıq və qarışıqlıq çıxarmağa cəhd etmədiyi müddətdə hər insana qarşı xoş münasibət bəsləyər. Çünki Allah möminlərə belə əmr etmişdir:

Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir. Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır. (Mumtəhənə surəsi, 8-9)

Bu ayələrdə və yuxarıda misal olaraq verdiyimiz Mumtəhənə surəsinin 1-ci ayəsində Allah bizə bir çox hikmətlə birlikdə əhəmiyyətli bir dünyagörüşü də öyrədir: İnsanın duyğuları onu istiqamətləndirməməlidir. Çünki duyğular insanı son dərəcə yanılda bilər. İnsanın duyğularına görə deyil, ağlına və iradəsinə, Allahın əmrlərinə görə hərəkət etməsi, duyğularını da ağıl və iradə ilə tərbiyə etməsi lazımdır.

Bunu duyğusallıq bataqlığına düşmüş hər insanın həyatında görə bilərik. Ürəyindəki istək, ehtiras, nifrət və ya əsəb kimi duyğulara əsir olmuş yüz milyonlarla insan ağıla zidd olan işlər görərək və bunu da “nə edim, sevirəm də” və ya “nə edim, çox istəyirəm, içimdən gəlir” kimi çarəsiz sözlərlə müdafiə edərlər. Halbuki bir şeyin insanın “içindən gəlməsi”, o şeyin doğru və həqiqi olması demək deyil. İnsanın nəfsi ona daim pisliyi

əmr edir, şeytan da onu daha böyük pis işlərə itələyir. "Nə edim, içimdən gəlir" deyərək Allahın rizasına zidd işlər görən insan əslində, nəfsinin və şeytanın oyuncağı olmuşdur. Allah bu insanlardan Quranda belə danışır:

Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? (Casiyə surəsi, 23)

Sonrakı səhifələrdə duyğusallığın bir növü olan yüksək dərəcəli romantizmin müxtəlif nümunələrini araşdıracaq, bunların insanlara verdiyi zərərdən bəhs edəcək və necə müalicə ediləcəklərini açıqlayacağıq.

# Romantik milliyyətçilik

O inkar edənlər qəlbində "qəzəbli soy qoruyuculuğu"nu, cahillərin "qəzəbli soy qoruyuculuğu"nu təhrik etdikləri zaman, Allah elçisinə və möminlərə "mənəvi rahatlıq" nazil etdi... (Fəth surəsi, 26)

Romantizm - insanlar arasındakı romantik əlaqələrə əsaslanan bir anlayışdır. Bununla yanaşı, romantizm siyasi ideologiyaların bəziləri ilə də yaxından əlaqədardır. Bunların başında isə XIX əsrin sonlarında meydana gələn və XX əsrin ortalarına qədər dünyada geniş vüsət alan "romantik milliyyətçilik" durur.

Qeyd etmək lazımdır ki, tənqid edəcəyimiz anlayış milliyyətçilik deyil, "romantik milliyyətçilik"dir. Bunların arasındakı fərq isə çox böyükdür.

Qəzəbli soy qoruyuculuğu

Milliyyətçilik - bir insanın aid olduğu milləti və yaşadığı vətənini sevməsi deməkdir. Bu, gözəl bir duyğudur. Dinə zidd bir yönü olmadığı kimi, insanlığa zərər verən təsiri də yoxdur. Bir insanın anasını və atasını sevməsi necə bir duyğudursa, onu yetişdirən, eyni inanc və mədəniyyətə sahib olduğu millətini sevməsi də elə bir duyğudur. Məsələn, Türk Milliyyətçiliyi belə gözəl bir duyğudur: Heç kim arasında din, dil, irq ayrı-seçkiliyi etmədən hər kəsi əhatə edir.

Milliyyətçilik duyğusunun qeyri-qanuni hala gəlməsi isə bu sevginin ehtirasa çevrilməsi ilə baş verir. Bir insan millətini sevərkən digər millətlərə qarşı səbəbsiz yerə kin bəsləyirsə, yəni öz millətinin mənfəətləri üçün digər millətlərin və xalqların haqlarını tapdalayırsa, onların torpaqlarını ələ keçirməyi, mallarını talamağı hədəfləyirsə, bu, milliyyətçilik duyğusunun qeyri-qanuni bir həddə gəlməsi deməkdir.

İnsan öz millətinə olan sevgisini irqçiliyə çevirəndə, yəni öz millətinin digərlərindən üstün olduğunu iddia edən zaman qeyri-qanuni bir fikir yürütmüş olur.

Bu qatı milliyyətçiliyə Allah Quranda diqqət çəkir. Ayələrdə "qəzəbli soy qoruyuculuğu" olaraq təsvir edilən bu düşüncə cahiliyyənin (dindən uzaq cəmiyyətlərin) bir xüsusiyyəti olaraq izah edilir:

O inkar edənlər qəlbində "qəzəbli soy qoruyuculuğu"nu, cahillərin "qəzəbli soy qoruyuculuğu"nu təhrik etdikləri zaman, Allah elçisinə və möminlərə "mənəvi rahatlıq" nazil etdi və onları "təqva sözünü" qərarlı şəkildə ayaqda saxladı. Onların buna daha çox haqqı var idi və ona layiq idilər. Allah hər şeyi haqqı ilə biləndir. (Fəth surəsi, 26)

Diqqət yetirilsə, ayədə "qəzəbli soy qoruyuculuğu"ndan bəhs edilir. Allahın buna qarşı möminlərə rahatlıq və təqva duyğusu verdiyi bildirilir. Öz cəmiyyətinə (tayfasına və ya millətinə) yönələn sevgisi nəticəsində təcavüzkar olan insanların davranışlarının qeyri-qanuni olduğu məlum olur. Allah buna qarşı möminlərin rahat və təqvalı olmasını diləyir. Başqa sözlə desək, Allahın möminlər üçün bəyəndiyi hal "ağlı başında olan" bir insanın ruh halıdır.

Qəzəbli soy qoruyuculuğuna qapılmaq isə "ağlı başında olan" insanın ruh halını ortadan qaldırır və onları dilləri, rəngləri və ya cəmiyyətləri ayrı olduğu üçün bir-birlərinə düşmən edir.

Allahın 1400 il əvvəl Quranda təsvir etdiyi qəzəbli soy qoruyuculuğunu bu gün dünyanın hər tərəfində görmək mümkündür. Afrikada müxtəlif qəbilələrdən olduqları üçün bir-birləri ilə düşmənçilik edən insanlar vardır. Avropada bir futbol qarşılaşmasını silahlı qarşıdurmaya çevirən və qarşı ölkənin tərəfdarını, sırf o tərəfdən olduğu üçün ölənə qədər döyən "xuliqanlar" vardır. Qərb dünyasında zəncilərə, yəhudilərə, türklərə,

afrikalılara və ya başqa millətə qarşı nifrət və kin bəsləyən, onlara qarşı terror əməliyyatları təşkil edən, bu məqsədlə təşkilatlar quran qruplar var.

Qəzəbli soy qoruyuculuğu yalnız aşağı siniflərə deyil, bir çox ölkənin ən üst təbəqəsinə də təsir edir. Sadə bir sərhəd anlaşılmazlığını bəhanə edərək, təcavüzkarlıq instinktlərini təmin etmək üçün bir-birləri ilə vuruşan, bu müharibələri illərlə inadla davam etdirən, həm öz xalqlarını, həm də qarşı ölkənin xalqlarını səfalətə salan bir çox ölkə vardır. Bu cür insanlar qəzəbli soy qoruyuculuğunun təsiri altındadırlar. Hər biri ayədə təsvir edildiyi kimi, "öz qəlbində təkəbbürlüyə – qəzəbli soy qoruyuculuğuna qapılan" cahillərdir.

Bu cahillərə XX əsrin ən böyük iki fəlakəti olan I və II Dünya müharibələrini hazırlayan və icra edənlər də daxildir. "Alman qəhrəmanlığı", "İngilis qüruru", "Rus cəsarəti" kimi romantik anlayışların təsirinə qapılaraq həm öz millətlərinə, həm də bütün dünyada böyük fəlakətlər törətmiş, iki nəhəng müharibədə 65 milyon insanın qanını tökmüş, on milyonlarla insanı isə dul, yetim və şikəst etmişlər.

Bu fəlakətlərin qaynağı olan "qəzəbli soy qoruyuculuğunun" çağımızdakı adı isə "romantik milliyyətçilik"dir.

Romantik milliyyətçiliyin yaranması

Avropada milliyyətçilik XVIII əsrdə yayılmış bir düşüncə olaraq qəbul edilir. Əvvəllər bir çox dövlətlərin idarəsi altında yaşayan ölkələr bir mərkəzi hakimiyyət altında birləşərək ilk xalq-dövlətlərini yaratmışlar. İngiltərə və Fransa kimi Avropa ölkələri milliyyətçiliyi ilk olaraq mənimsəyən və ilk xalq hakimiyyətini quran ölkələr kimi tanınırlar. XIX əsrdə isə Avropadakı ölkələrin əksəriyyəti milli birliyini qurmuşlar.

XX əsrdə mövcud olan “romantik milliyyətçilik” cərəyanına göstərilə bilən ən yaxşı nümunə Hitler Almaniyasıdır. Tamamilə romantizmin təsiri altına düşən irqi milliyyətçiliyin zülmləri dünya tarixinə qara ləkə olaraq düşmüşdür.

Yalnız iki ölkə bu təsirdən kənarda qalmışdı: Almaniya və İtaliya. Hər iki ölkədə də krallıqların və ya kiçik şəhər-dövlətlərinin hakimiyyəti çox uzun sürmüşdü. İtaliya ancaq 1870-ci ildə, Almaniya isə bir il sonra, 1871-ci ildə milli birliyini quraraq bir xalq dövləti olaraq tarix səhnəsinə çıxa bilmişdi. Başqa sözlə desək, hər iki ölkə də milliyyətçiliyi mənimsəməkdə və tətbiq etməkdə digər Avropa ölkələrinə nisbətən gecikmişdi.

Bu vəziyyət hər iki ölkədə Avropanın digər ölkələrinə görə daha radikal-milliyyətçi cərəyanların inkişafına və kök salmasına səbəb olmuşdur. Sosioloqların qəbul etdiyi ümumi fikrə görə, milliyyətçiliyin ən qabarıq nümunələri olan nasizm və faşizmin bu iki ölkədə yaranması və hakimiyyəti ələ keçirməsinin səbəbi hər iki ölkədə də milli birliyin hələ yaranmaması səbəbindən yayılan fanatik milliyyətçi duyğulardır.

Bu iki ölkədə, xüsusilə Almaniyadakı fanatik milliyyətçi anlayışına liderlik edənlər tarixdə “romantik milliyyətçilər” olaraq tanınırlar. Romantik milliyyətçiliyin əsas xüsusiyyətləri ağıla deyil, duyğulara əhəmiyyət verərək, mənsub olduqları millətin mistik və sirli bir “ruh”a sahib olduğunu düşünərək onu digərlərindən daha üstün hesab etmələridir. Romantik milliyyətçilər XIX əsrin sonlarında məşhurlaşan irqçi nəzəriyyələrdən bəhrələnərək Avropalı irqlərin dünyadakı digər irqlərdən üstün olduqlarını bildirmiş və başqa xalqları idarə altına salma hüququna malik olduqlarını iddia etmişlər.

XIX əsrin ilk onilliyində romantik milliyyətçilik Almaniyada sürətlə inkişaf etmişdir. Paul Lagarde və Julius Langbehn kimi yazıçılar almanların bütün dünyanı idarə edəcəkləri bir iyerarxik dünya nizamı

qurulmasının lazım olduğunu müdafiə etmişlər. Bunun da tamamilə "Alman ruhu"ndan və "Alman qanı"ndan qaynaqlanan üstünlüklə əldə ediləcəyini, bunun üçün almanların köhnə bütpərəst inanclarına dönmələrinin və Xristianlıq kimi İlahi dini tərk etmələrinin lazım olduğu fikrini irəli sürmüşlər.



20-ci əsrdə yaşanan "romantik milliyyətçilik" axınına verilə biləcək ən yaxşı nümunə Hitler Almaniyasıdır. Tamamilə romantizmin təsiri ilə inkişaf edən irq milliyyətçiliyi, gətirib çıxardığı zülmlər və insanlığa gətirdiyi əziyyətlərlə dünya tarixinə quru bir ləkə olaraq keçmişdir.

O dövrdə Almaniyada qurulan mistik (gizli) dərnəklərin romantik milliyyətçiliyin yayılmasında əhəmiyyətli rolu olmuşdur. Bu dərnəklərin ortaq dünyagörüşü insanın ağlı ilə deyil, hissləri ilə doğrunu tapa bilməsindən, hər millətin bir "xalq ruhu"na sahib olması və Alman xalq ruhunun da bütpərəstlik olması kimi səthi və batil düşüncələrdən ibarətdir. Bu dərnəklər Hitlerə və dolayısı ilə Nasizmə də böyük bir zəmin hazırlamışdır. İngilis tarixçisi Michael Howard "Pan-Cermenik Alman milliyyətçiliyinin ruhi gücünü və ideoloji mənşəyini mistik (gizli)

dərnəklərdən aldığını və mistik (gizli) ənənənin 1920-ci illərdə doğan Milli Sosializm (Nasist) cərəyanına da böyük bir zəmin hazırladığını" yazır1.

Həqiqətən də romantik milliyyətçiliyin insanlıq tarixində ən mərhəmətsiz və qanlı rejimlərindən biri olan Nasizmə zəmin hazırlamaqdan başqa bir rolu olmamışdır.

Romantik milliyyətçiliyin şizofreniyası



Nazı Almaniyasında romantikliyin təsiri ilə trans halına keçmiş kütlələri, Nasizmin insanlıqdan kənar hərəkətləri adına yönəltmək asanlıqla mümkün olmuşdur.

Romantik milliyyətçilər insanın ağıl yolu ilə deyil, "duyğu və hisslə" doğrunu tapacağını düşündükləri üçün son dərəcə əsassız, kompleks bir dünyagörüşü və ruh halına malikdirlər. Amerikalı tarixçi professor Gerhard Rempel "Reform, Liberation And Romanticism In Prussia" (Prussiyada islahat, azadlıq və romantizm) adlı məqaləsində romantik milliyyətçilərin ruh dünyasını belə təsvir edir:

"Romantiklər fantaziyaya, duyğusallığa və simvolizmə gedən yolu seçdilər. Ruhi olaraq həmişə ölümlə maraqlandılar, gecə qaranlığında melanxolik böhranlar yaşadılar. (Romantik milliyyətçiliyin

öndərlərindən) Novalis "həyat ruhun bir xəstəliyindən ibarətdir" deyirdi. Burada qarşımıza çıxan faktor estetik pessimizmin başlanğıcıdır...

Romantizm - insan ruhunun dərinliklərindəki irrasional gücləri ortaya çıxardı... Müharibə haqqındakı vətənpərvər ədəbiyyatın inkişafı ilə birlikdə "ruhun rəqsi" deyilən bu düşüncə cəmiyyətin geniş kütlələri içərisində yayıldı...

Alman Romantikləri estetizm kultunu (sitayiş yeri) inkişaf etdirdilər ki, bu, ağlın inkar edilməsinə və həqiqətin bir anda, birdən qavranması cəhdinə əsaslanırdı. Bu nəzəriyyəyə görə, poetik olan mütləq həqiqətin özü idi."2




Yuxarıda, Nazı dövründə yaşanan romantik milliyyətçiliyin simvolu olan, Alman irqini, millətləri adına həddindən artıq romantikliyə yönəldən bir təbliğat afişası görülməkdədir.

Romantik milliyyətçilik, duyğuların "əsl dünya" qəbul edilməsinə əsaslanırdı. Bu xəyalpərəst düşüncə reallıqdan tamamilə uzaq, ruhi sarsıntılar içində yaşayan insanlar meydana gətirdi. Romantizmin bu

təsirini insanı reallıqdan ayıran, bəzi duyğulara əsir edən şizofreniyaya bənzətmək mümkündür (Şizofreniya xəstələri reallıqdan uzaq, öz xəyal dünyaları içində yaşayırlar).

Bu şizofreniyalı ruh halının bir nümunəsi də romantik milliyyətçilərin bəzi anlayışları bütləşdirməsi vəziyyətidir. Bunların başında “qan” və “torpaq” anlayışları dururdu. Almaniyada XX əsrin əvvəlində meydana gələn “Blut und Boden” (Qan və Torpaq) adlı fikri cərəyan Alman qanının və Alman torpaqlarının müqəddəs olduğunu, Alman soyundan olmayan xalqların bu qanı və torpağı kirlətdiklərini iddia etmişdi. Bu cərəyan Nasist ideologiyasına da böyük təzyiq göstərdi. Nasistlər qan tökülməsini müqəddəs bir hərəkat olaraq görürdülər. Hitlerin 1923-cü ildəki müvəffəqiyyətsiz dövlət çevrilişi cəhdi əsnasında yaralanan Nasistlərin qanları ilə islanmış partiya bayrağı sanki bir bütə çevrilmişdi. “Blutfahne” (Qan Bayrağı) adı verilən bu bayraq olduğu kimi mühafizə edilmiş və hər Nasist mərasimində müqəddəs simvola çevrilmişdi. Hətta Nasist partiyasının on minlərlə yeni bayrağı “Blutfahne”yə sürtülmüş və ondakı “müqəddəs” gücün bu yeni bayraqlara da keçdiyi düşünülmüşdü.3

Romantik milliyyətçiliyin qanlı qırğını

I və II Dünya müharibələri insanlığın gördüyü ən qanlı müharibə olaraq tarixə yazılmışdı. Bu müharibələr romantik milliyyətçilərin münaqişəsindən başqa bir şey deyildi. Almaniyada özünü açıq surətdə büruzə verən romantik milliyyətçi cərəyanı dövrün ingilis, fransız və rus cəmiyyətlərinə də təsir etmiş və bu ölkələrin idarə heyətlərini müharibəyə cəlb etmişdir. Razılaşmalarla həll edilə bilən problemlər qızışdırılmış və dünya milyonlarla insanın həyatına başa gələn bir qırğın yaşamışdır.







Romantik milliyyətçiliyin təsiri ilə təhrik edilən xalqlar və bunun nəticəsində başladılan dünya müharibələri, insanlığa qan, acı və gözyaşından başqa bir şey gətirmədi. Geriyə isə milyonlarla ölü, dul, yetimlə birlikdə xarab olmuş şəhərlər qaldı.

I Dünya müharibəsinin gedişatını araşdırmaq romantik milliyyətçiliyin nəticələrini görmək baxımından faydalıdır. Müharibədə bir çox ölkə iştirak etsə də, əsasən bir neçə dövlət vacib rol oynayırdı: Bir tərəfdə İngiltərə, Fransa və Rusiya, digər tərəfdə isə Almaniya və Avstriya-Macarıstan. Müharibənin əvvəlində bu ölkələrdəki generalların hamısının ortaq düşüncəsi güclü bir hücumla düşmən xətlərini yarıb dağıtmaları və bir neçə həftə ərzində zəfər çalmaları istiqamətində idi. Halbuki müharibə indiyə kimi heç kimə zəfər gətirməmişdir.









Qan tökən zehniyyət, II Dünya müharibəsində həyata keçmiş və cəmi 55 milyon insan, Hitler, Mussolini, Stalin kimi psixopat ruhlu romantiklərin ehtirasları səbəbi ilə ölmüşdür. II Dünya müharibəsinin baş aktyorları olan bu zalım liderlər, utopik ideallarının arxasında, bütün dünyanı zülm və qaranlığa sürümüşlər.

Romantik milliyyətçiliyin səbəbsiz qırğınının I Dünya Müharibəsindəki diqqət çəkən bir nümunəsi fransız generalı Robert Nivellenin 1917-ci ilin aprelində alman cəbhə xəttinə qarşı başlatdığı hücumdur. Nivelle hücumdan əvvəl "yalnız iki gün ərzində alman xətlərini yaracaqlarını və bir həftə ərzində zəfərə çatacaqlarını" vəd etmişdi. Alman ordusunun onlardan daha üstün olmasına baxmayaraq, bu romantik vədin təsirinə düşən fransız ordusu aprelin 16-da hücuma keçmiş və bu hücum 1.5 aydan çox davam etmiş, nəticədə heç bir nəticə əldə edilməmiş, yüz minlərlə əsgər ölmüş, sonra da fransız birlikləri arasında daxili üsyanlar baş qaldırmışdır.

Eyni zehniyyət II Dünya Müharibəsində də həyata keçmiş, bu dəfə daha çox insan - 55 milyon adam Hitler, Mussolini, Stalin kimi psixopat ruhlu

romantiklərin ehtirasları səbəbindən ölmüşdür.



Dünyanın dörd bir yerində romantizmin təhrik etdiyi insanlar, digərlərinə qarşı ağla sığmaz işgəncələr edə bilməkdə, müxtəlif insanlıqdan kənar hərəkətlər edə bilməkdə və böyük vəhşilik sərgiləyə bilməkdədirlər.

Yalnız dünya müharibələri deyil, müxtəlif ölkələr, qəbilələr və ya təşkilatlar arasındakı döyüş və qarşıdurmaların əsasında da romantizm durur. Yaşadığı dünyanın şərtlərini ağılla qiymətləndirə bilməyən, romantik şüarların, qəhrəmanlıq hekayələrinin, marşların və şeirlərin təsiri ilə silaha sarılan milyonlarla insan həm özlərinin, həm də düşmən saydıqları insanların qanını tökmüş və dünyanı xaos və fitnə içinə salmışlar.

Kitabın əvvəlində duyğusallığın insanları Allahın yolundan çıxarmaq və bəlalara uğratmaq üçün şeytan tərəfindən istifadə edilən bir silah olduğunu vurğulamışdıq. Şeytanın insanlara qarşı qurduğu bu tələ özünü romantik milliyyətçilikdə daha açıq şəkildə özünü göstərir. Allah Quranda şeytanın insanları qarşıdurma, xaos və terror mühitinə məruz qoyduğunu belə bildirir:

(Allah) buyurdu: "Çıx get! Onlardan kim sənə uysa, tam bir əvəz kimi cəzanız Cəhənnəm olacaqdır. Onlardan gücün çatdığı kimsələri səsinlə (günaha) təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver. Şübhəsiz ki, şeytan onlara ancaq yalan vədlər verər. (İsra surəsi, 63-64)



Nəzəriyyəsi ilə dünyaya bəla üzərinə bəla gətirən Çarlz Darvin

Bu ayədə şeytanın idarəsi altındakı insanları istifadə edərək yer üzündə "təhrik edən səslər" və "üzərinə yeriyən piyadalar" meydana gətirəcəyi bildirilir ki, romantik milliyyətçiliyin nəticələri də bu şəkildədir.

Romantik milliyyətçiliyin fikri əsası: Darvinizm

Romantik milliyyətçilər romantik meyl olan qan qırğınını dəstəkləmək üçün bəzi fəlsəfi və elmi izahlardan da istifadə etmişlər. Bunların əsası Darvinin təkamül nəzəriyyəsidir.

İngilis bioloqu Darvin 1859-cu ildə nəşr olunan “Növlərin mənşəyi” adlı kitabında təbiətdə mərhəmətsiz bir həyat mübarizəsi olduğunu, bu mübarizənin canlıları inkişaf etdirdiyini və yaranan yeni növlərin də bu mübarizənin qazanılması və itirilməsinə görə ortaya çıxdığını irəli sürmüşdür. Başqa sözlə, Darvinə görə inkişafın açarı “xaos”dur. Darvin 1871-ci ildə nəşr etdirdiyi “İnsanın törəməsi” adlı kitabında bu fikirlərini daha da inkişaf etdirmişdi. Bu kitabla birlikdə insan irqlərinin bəzilərinin digərlərinə görə daha üstün olduğunu qarşıya qoymuş, yəni irqçiliyə zəmin yaratmışdır. Darvin Avropalı ağ irqləri “üstün irqlər” olaraq hesab edərkən, zənciləri, asiyalıları və türkləri “yarı meymun ibtidai irqlər” olaraq qiymətləndirmişdir.

Darvinin elmdən uzaq bu nəzəriyyəsinin yayılması ilə birlikdə, qarşıdurma və irqçilik sürətlə dəstək qazanmışdır. Belə ki, bu iki anlayış “elmi həqiqət” kimi qəbul edilməyə başlanmışdır.

Romantik milliyyətçilərin Darvinizmlə əlaqəsi də bu nöqtədə ortaya çıxır. Romantik millətçilər müharibəyə olan meyllərini və öz irqlərini digərlər irqlərdən üstün hesab edərkən fikirlərini darvinizmə əsaslandırırdılar..

Şiddətli qırğınlara səbəb olan I Dünya Müharibəsinin ideoloji təməlində darvinizmin bu qaranlıq təlqinləri durur. Yüz minlərlə əsgəri gözlərini qırpmadan ölümə göndərən alman, fransız, ingilis, rus və ya avstriyalı generallar Darvinizmin “canlılar mübarizə edərək inkişaf edir, irqlər də döyüşərək ucalır” şəklindəki yalanına inanmış və bu ruh halı içində döyüş əmri vermişlər.

Məsələn, I Dünya Müharibəsi generallarından Friedrich von Bernardi savaş və təbiətdəki mübarizənin qanunları arasındakı əlaqəni belə qurmuşdur:








Darvinin zamanından bəri irqçi hücumlar və bundan qaynaqlanan müharibələr artaraq davam etməkdədir. İndiki vaxtda da bu azğın fikirlərin tətbiqlərini, Neo-Nazilərdə, Ku Klux Klan təşkilatında, zənciləri və ya fərqli irqlərdən insanları hədəf alan bir çox təşkilatda görmək mümkündür. Amma unutmamaq lazımdır ki, bütün bu insanlıqdan kənar hərəkətlərin birinci dərəcədən sosial darvinizm cavabdehdir.

Müharibə bioloji bir ehtiyacdır, təbiətdəki ünsürlərin qarşıdurması qədər lazımlıdır. Bioloji istiqamətdən yerində nəticələr verir, çünki bu nəticələr varlıqların əsas xüsusiyyətləri ilə əlaqədardır.4

Avstriya-Macaristanın Ali Baş Komandanı general Franz Baron Conrad von Hoetzendorff isə müharibədən sonrakı xatirələrində belə yazmışdır:

Dünya müharibəsinin böyük fəlakəti (insanın həyat mübarizəsi) prinsipi tam bir uyğunlaşma ilə reallaşmışdır. İnsanların və dövlətlərin həyatlarının ana gücü ilə yaranan bu müharibə boşalması lazım olan bir ildırım yükü kimi təbiətin bir qaydasıdır.5

Almaniyanın kansleri (baş naziri) Theobald von Bethman-Hollwegin fərdi məsləhətçisi və dostu Qurd Riezler 1914-cü ildə belə yazmışdır:




Gasman kitabında Almaniyada sosial darvinizmin necə inkişaf etdiyini izah etməkdədir.



Almaniyada sosial darvinizmin ən böyük nümayəndəsi: Ernst Haeckel

Mütləq və əzəli düşmənlik insanlar arasındakı əlaqələrin təbiətində vardır. Hər yerdə gördüyümüz daimi nifrət... insan təbiətinin pozulmasından qaynaqlanmır, əksinə təbiətin və həyatın qaynağının özündə vardır.6

Dövrün dövlət adamlarını və hökumət rəhbərlərini təsiri altına alan düşmənlik və qarşıdurmanın insanın təbiətində olması iddiası, şübhəsiz, böyük bir yalandır. İnsan təkamülçülərin iddialarının tam əksinə, şəfqət, mərhəmət, sevgi və anlayışdan zövq alacaq şəkildə yaradılmışdır. İnsanın fitrəti, yəni təbiəti Allahın əmr etdiyi din əxlaqını yaşamaqdır. Bunun xaricində insana təlqin edilən hər cür batil və azğın düşüncə isə həm insanlarda, həm də cəmiyyətdə pozğunluğa və degenerasiyaya səbəb olur.

Romantizm öz ətrafına ehtiraslı bağlılığı, digərlərinə qarşı isə kin və nifrəti qızışdırır. Bu ruh halı Darvinizmin "irqlərin həyat mübarizəsi" anlayışına çox uyğundur. Darvinin təkamül nəzəriyyəsinin sosial elmlərə

tətbiq edilməsinə "sosial darvinizm" deyilir və sosial darvinizm romantik milliyyətçi və irqçi cərəyanların ən böyük dayağı olmuşdur. Amerikalı yazıçı Janet Biehl "Ecology and the Modernization of Fascism en the German ultra-Right" (Ekologiya və alman radikal sağında faşizmin təkmilləşməsi) adlı məqaləsində mövzuya aid bunları yazır:

Alman radikal sağında sosial darvinizmin dərin kökləri vardır... İngilis-Amerikan sosial darvinizmində olduğu kimi, Alman sosial darvinizmi də insanların sosial təşkilatlarını insani olmayan dünyadan alınma "təbiət qanunları" ilə açıqlamışdır. Amma ingilis-amerikan sosial darvinizmi "uyğun olanların qazanması" anlayışını vəhşi kapitalist bir meşədə fərdi cəhdlərin qazancı olaraq izah edərkən, Alman sosial darvinizmi "uyğun olanların qazanması" anlayışını əzici olaraq irq anlayışında qəbul etmişdir. Bu səbəbdən, "ən uyğun" olan irq davam etdirdiyi "həyat mübarizəsi"ndə bütün digər rəqiblərini məhv edərək qazanacaq, qazanmalıdır.7

Almaniyada sosial darvinizmin ən böyük nümayəndəsi olan Ernst Haeckel (1834-1919) məşhur Darvinist bioloq idi. Darvinin işlərindən çox təsirlənən Haeckel Darvinizmə "tərəf" çıxaraq və "Ontogenez Filogenezin təkrarıdır" (Ontogeny Recapitulates Phylogeny) olaraq yekunlaşdırılan və məməlilərdəki embrionların təkamül müddətini əks etdirən nəzəriyyəni ortaya atmışdı (Bu nəzəriyyənin səhv olması illər sonra aydın oldu və Haeckelin istifadə etdiyi sxemlərdə saxtakarlıq etdiyi ortaya çıxdı).

Haeckel "Monist Birliyi" adı altında ateizmi yaymaq məqsədilə bir dərnək yaratmış və bu dərnək, eyni zamanda, irqçiliyin və romantik milliyyətçiliyin mərkəzi olmuşdur. 1920-ci illərdə Hitlerin başçılığı altında inkişaf edən Nasist hərəkatı Haeckelin fikirlərindən və Monist Birliyindən bəhrələnmişdir. Mövzunu araşdıran tarixçi Daniel Gasman The Scientific Origins of National Socialism: Social Darwinism en Ernest Haeckel and the

German Monist League (Milli Sosializmin Elmi Mənşələri: Ernest Haeckeldə və Alman Monist Birliyində sosial darvinizm) adlı kitabında belə yazır:

Almaniyadakı irqçilikdən ilham alan sosial darvinizm... varlığını demək olar ki, tamamilə Hekkelə borclu idi... (Hekkelin) fikirləri, irqçilik, imperializm, romantizm, anti-Semitizm və milliyyətçi cərəyanının bir bədəndə birləşib vahid ideologiya halına gəlməsinə xidmət etdi... Volkismim (romantik milliyyətçi Alman populistliyinin) həqiqətdə tamamilə qeyri-real və mistik fikirlərinə elmi əlavə edən adam Haeckel idi.8

Gasman mövzu barədə bunları yazmışdır:

Deyilə bilər ki, İngiltərədə Darvinizm təbii dünyanın sosial dünyaya bir proyeksiyası olaraq, "buraxın etsinlər" (laissez faire) kapitalizminin fərdiliyinin bir davamı oldusa, Almaniyada alman romantizminin bir proyeksiyası olmuşdur... Darvinizmin Almaniyada aldığı şəkil bir növ saxta elmi təbiət dini, irqçiliklə qarışıq bir təbiətə tapınma mistizmidir.9

Janet Biehl də eyni mövzuda "Hekkel mistik irqçiliyə və milliyatçiliyə inanırdı, belə ki, Alman sosial Darvinizmi əvvəldən romantik irqçiliyə və romantik milliyyətçiliyə saxta bioloji əsas təmin edən siyasi bir hərəkat oldu" deyə yazmışdır.10

Nəticə



Bütün bunlar romantizmin tamamilə dindən uzaq və dinə zidd bir psixologiya və dünyagörüşü olduğunu bir daha göstərir. Ortaya atıldığı ilk gündən etibarən demək olar ateizmlə oxşar olan Darvinizmin romantizmlə sıx bağlı olması bu istiqamətdə çox açıq bir göstəricidir.



Xalq üzərində romantik milliyyətçiliyi təhrik edərkən müəyyən simvollara ehtiyac duyulurdu. Alman ordusu, Alman xalqı, Alman bayrağı, Alman qanı kimi...

Romantik milliyyətçiliyin Darvinizmlə olan əlaqəsi və Nasist hərəkatın meydana gəlməsindəki rolu bizə çox əhəmiyyətli həqiqəti bir daha göstərməkdədir: Romantizm istər fərdlər, istərsə də cəmiyyətlər üçün son dərəcə təhlükəli bir cərəyandır. Çünki romantizmə qapılan insanlar öz irqlərinin başqalarından üstün olduğuna, müharibələr edərək bütün dünyanı zəbt etmə haqqına sahib olduqlarına, başqa millətləri ortadan

qaldırmağın və ya özünə tabe etməyin isə son dərəcə qanuni olduğuna inanır, ağıla, sağlam fikrə və vicdana zidd düşüncələrə asanca qapıla bilirlər.



Xalq üzərində romantik milliyyətçiliyi təhrik edərkən müəyyən simvollara ehtiyac duyulurdu. Alman ordusu, Alman xalqı, Alman bayrağı, Alman qanı kimi...

Nasist Almaniyası romantizmin dağıdıcı və zülmedici təsirini göstərən ən əhəmiyyətli tarixi nümunələrindən biridir. Nasistlərin 1933-cü ildə iqtidara gəlməsi ilə birlikdə Hitler və silahdaşları alman cəmiyyətinə qarşı sanki "romantik beyin yuma" kampaniyasına başlamış və romantik milliyyətçiliyin şüursuz iddialarını qısa zamanda cəmiyyətə mənimsətmişdilər. 1930-cu illərin sonlarına doğru alman xalqının əksəriyyəti tezliklə bütün dünyanı idarə edəcək 1000 illik bir "Alman Krallığı"nın (III Reich) qurulacağına, alman irqinin "saflaşdırılması" məqsədilə ölkədəki digər xalqların məhv edilməsinin lazım olduğuna, Hitlerin metafizik gücə sahib olan yanılmaz bir "başçı" (Führer) olduğuna və onları zəfərə aparacağına inanmışlar. Hitlerin qəzəbli, təcavüzkar,

paranoid və təkəbbürlü nitqlərini göz yaşları içində dinləyərək özlərindən gedən insanlar sanki kütləvi surətdə ovsunlanmışdılar.

Nasistlərin məşhur Nuremberg mitinqləri “romantik beyin yuma”nın ən parlaq nümunəsidir. Amerikalı tədqiqatçılar Baigent, Leigh və Lincoln bu mitinqləri belə təsvir edirlər:

Pis şöhrətə sahib olan Nuremberg mitinqlərində... hər şey (formaların və bayraqların rəngləri, natiqlərin yeri, proqramın gecə yarısına qədər davam etməsi, spot işıqlarının istifadəsi, zaman) çox diqqətli şəkildə hesablanırdı. Bu mitinqlərdə çəkilən filmlər insanların sanki özlərini sərxoş etdiklərini, sanki hipnozdaymış kimi “Sieg Heil” şəklindəki Nasist şüarını dayanmadan təkrarlayaraq Hitlerə sanki tapınırmışcasına Nasist salamı verdiklərini göstərir. Kütlələrin üzündən bomboş bir zehnin gətirdiyi xoşbəxtlik oxunur... Bu razı salıcı bir ifadədən qaynaqlanmır. Əslində Hitlerin ifadələri heç də razı salıcı deyil. Hər zaman adi, uşaq kimi eyni şeyi təkrarlayan, boş məzmunlu nitqlərdir. Amma bu nitqləri təşkil etmə şəkli zəhərli bir enerjiyə malikdir, bir baraban ritmi kimi hipnoz edicidir... Və bu, kütlə psixologiyasının gətirdiyi yoluxucu, bir sahəyə sıxışdırılan minlərlə insanın təsiri ilə cəmləndiyində ... kütlə isterikasını meydana gətirir... Hitlerin mitinqlərində görünən şey psixoloqların mistik təcrübələri açıqlamaq üçün istifadə etdikləri “şüur qapanması” vəziyyətidir.11

Qısacası, Nasist mitinqləri insanları tamamilə ağıldan uzaqlaşdıran və romantizm ovsununun təsiri altına aldığı kütləvi hipnoz seanslarıdır. Bu romantik vəziyyət II Dünya Müharibəsinin başlanmasına və 55 milyon insanın həyatına bais olmuşdur.





Şeytanın təhrik edərək romantikliyə qapdırdığı insanlar, Hitleri sanki ovsunlanmışcasına dinləyir, onun etdiyi insanlıqdan kənar hərəkətləri alqışlaya bilirdi. Üstəlik bu dəlilik dərəcəsinə çatan romantizmi uşaqlarına da öyrədir, onları da azğın bir yola sürüyürdülər.

Nasizm romantizmin dağıdıcı təsirlərinin yalnız bir nümunəsidir. Romantizm insanları ağıldan uzaqlaşdırdığı, ağıl yerinə duyğuları hakim etdiyi üçün onları hər cür azğınlığa sürükləyə bilər. Buna görə romantik bir insana hər hansı bir istiqamət vermək asandır. Əgər içində olduğu mühit o istiqamətdədirsə, qısa zamanda qatı bir irqçiyə və faşistə çevrilə bilər. Bunun tam əksi olan bir mühitdə olduğunda isə kommunist bir

döyüşçü olar, Leninist marşlar söyləyərək günahsız insanlara təzyiq göstərər, hətta özünü atəşə də ata bilər. Son dərəcə mərhəmətsiz və sərt olan romantik insanın bir neçə saat sonra göz yaşları içində hıçqıra-hıçqıra ağlamasını da görmək mümkündür. Ağıl ortadan qalxdıqdan və insan duyğularına, daha doğrusu şeytanın nəfsində oyatdığı ehtiraslara əsir olduqdan sonra həddini aşmasında və anormallıqda bir sərhəd yoxdur.

Darvinizm insanların ruhundan həqiqi sevgini almışdır

Adnan Oktar: Təkamül nəzəriyyəsinə qarşı olmamızın səbəbi kommunizmin, faşizmin və I Dünya müharibəsi, II Dünya müharibəsinin təməlində bu nəzəriyyənin olduğunu görürük. Və 350 milyon insan qanının axmasına, 1 milyarda yaxın insanın şikəst qalmasına, milyonlarla uşağın yetim qalmasına və ən dəhşətlisi insanların qəlbindən sevginin, şəfqətin sökülüb alınmasına səbəb olmuşdur. Bunun açıq isbatı vardır. Çölə çıxdığınızda kimsə kimsənin üzünə baxa bilmir. Dünyanın hər yerinə gedin, hər kəsin üzü yerdə və kimsənin üzündə sevgi ifadəsi, xoşbəxtlik və sevinc ifadəsi görə bilmirsiniz.

Halbuki insanların gözündə şövq, sevgi olması lazımdır. Allah eşqi olması lazımdır. Bu coşğu insanların qəlbindən alındı. Və dolayısilə çox böyük bir təxribat meydana gəldi. İnsanların bəziləri intihar edir, bəziləri müharibəyə gedir. Məsələn, baxın mənim canım qardaşlarım belə “Niyə belə bir müzakirə mühitinə giririk?” yaxud “Niyə sağçı ilə solçu danışa bilir?” kimi məntiq axtarırlar. Məhz bu, Darvinizmin bizə gətirdiyi fəlakətdir. Halbuki hər düşüncədən hər kəs bir-biri ilə görüşər, danışar və yenə qardaş qalar. Allah onları elə yaratmışdır və düşüncələrində də azaddırlar. O düşüncələrindən ötəri də biz onlara hörmət edərik. Meydana gələn təxribat çox əhəmiyyətli, yəni məsələn Mao deyir; “Çin kommunizminin quruluşunun təməlində Darvin və təkamül nəzəriyyəsi

vardır” deyir. Çox açıq söyləyir. Troçkinin izahlarında var. Leninin izahlarında var, Mussolininin izahında var. Hitlerin izahlarında var. Hamısı Darvinə əsaslanarlar. Yəni dünyada böyük bir təxribat meydana gətirmişdir və ateizmin dünyada yayılmasına səbəb olmuşdur. Bu yönü ilə Darvinizmə təbii ki, bir müsəlman olaraq fikirlə qarşıyam. (“Dem TV”, 16 oktyabr 2009)

Darvinizm qan tökən ideologiyadır

Adnan Oktar: Dünyada qan axıdan, dünyada şiddət tətbiq edən bütün ideoloji sistemlər; kommunizm, faşizm, satanizm, vəhşi kapitalizm kimi düşüncələr hamısı Darvinizmdən qaynaqlanmışdır və təməlində Darvinizm vardır. Dünyadakı axan qanların arxasında da, bütün terror qruplarının arxasında da, terrorist düşüncənin arxasında da yenə Darvinizm vardır. Mən bunu kitabımda çox geniş şəkildə izah etdim. Lenin kitablarında terroru necə dəstəklədiyini və terrorun necə olması lazım olduğunu çox detallı izah etmişdir. Mao izah etmişdir. Hitler əsərlərində, Mussolini şərhlərində Darvinizmdən necə təsirləndiyi və təməl dünya görüşünü Darvinizmin meydana gətirdiyini də izah etmişlər. Marks bütün təməl fikirlərini, təməl düşüncələrini Darvinizmdən götürmüşdür. Bu səbəbdən dünyanı qana boyayan hər cür terror aktlarının arxasında Darvinizm vardır. Və insanlıq üçün gəlmiş keçmiş tarix içərisindəki ən böyük fitnədir və ən böyük qan tökücü sistemdir Darvinizm.

Adnan Oktar: Bütün kommunist rejimlər və təşkilatlar tərəfindən öldürən insan sayı, yəni Darvinist sistemin işləməsi nəticəsində meydana gələn cinayətlərdə 120 milyon insan öldürülmüşdür. 120 milyon insan! Bu böyük bir qırğındır və böyük bir zülmdür. Karl Marks kitabında “Bizim fikirlərimizə tabe olan, tarix təməlini ehtiva edən kitab məhz budur” deyə Darvinin kitabını tərifləmişdir. Məsələn Mao deyir ki; “Çin

kommunizminin təməli Darvinə və təkamül nəzəriyyəsinə söykənməkdədir.” Çox dəqiq bir ifadə, Çində kommunizmin təməlini Darvinə və təkamül nəzəriyyəsinə söykəndiyini Mao söyləyir. Məsələn Stalin gənc nəsillərə üç şey öyrətməliyik deyir. “Dünyanın yaşını, geoloji mənşəyini və Darvinin təlimlərini”, bu da Stalinin açıq ifadəsi. Məsələn Lenin də Darvinin Allah inancını yox etdiyini əsərində açıqca ifadə edir, yəni kitabında ifadə edir. (“The Gulf Today”, oktyabr 2008-ci il)

# Romantizmin digər ideologiyaları

...dedi: "Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam. Mən onları mütləq (doğru yoldan) azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır. (Nisa surəsi, 118-119)

Əvvəlki hissədə romantizmin "romantik milliyyətçilik" adı altındakı təsirlərini araşdırdıq. İndi isə mövzunun digər aspektlərinə nəzərə salaq və romantizmin insanları saldığı bəzi bəlaları araşdıraq. İlk araşdırmalı olduğumuz ideologiya insanlığa ən azğın romantik milliyyətçilik qədər "qan qusduran" kommunizmdir.

Kommunist romantizm

Kommunizm sözdə "ağıllı" bir ideologiya olaraq meydana gəldi. İdeologiyanı quranlar, yəni Karl Marks (1818-1883) və Friedrich Engels (1820-1895) materialist fəlsəfəni mənimsəmiş, bunu sosial elmlərə tətbiq edərək "tarixin qaydaları"nı təyin etdiklərini düşünmüşlər. Marks tarixi müxtəlif mərhələlərə ayırmış, o dövrdə İngiltərə kimi inkişaf etmiş ölkələrdə "kapitalist mərhələ"sinin yaşandığını, bunun ardından qaçılmaz olan bir işçi inqilabının gələcəyini və sosialist mərhələnin başlayacağını irəli sürmüşdü. Marks bu inqilabın özbaşına, yəni işçilərin təşəbbüsü ilə reallaşacağı və İngiltərə kimi sənayeləşmiş ölkədə yaşanacağını söyləmişdir.

Ancaq Marksın proqnozları reallaşmadı. Reallaşmayacağı da onun ölümündən 30-40 il sonra da açıqca görünürdü. İngiltərədə və ya bir başqa

sənayeləşmiş ölkədə bir inqilab olmamış, əksinə işçilərin sosial və iqtisadi həyatında yaxşılığa doğru dəyişiklik baş vermişdir.

kommunizmin rasionallıq iddiasının etibarsızlığı




Zəncirlərini qıran güclü proletariat plakatları, sıxılmış yumruq fiqurları, sosializm uğrunda döyüşməkdən və ölməkdən danışan inqilab mahnıları, kommunist romantizmin ən məşhur simvollarıdır.

Bu vəziyyətdə Marksın nəzəriyyəsi tarixdəki bir çox yanılma kimi səhv olaraq qiymətləndirilməli və bir kənara qoyulmalı idi. Amma elə olmadı. Özlərinə “Marksistlər” adı verən bir qrup insan Marksın reallaşmayan proqnozlarını zorla da olsa reallaşdırmaq istəyirdilər. Marksın “özbaşına olacaq” dediyi inqilab baş vermədiyindən, bunu silah gücü ilə edəcək təşkilatlar qurmağa və “inqilabçılıq” etməyə qərar vermişdilər. Marksı bu şəkildə yenidən şərh edən və Marksın reallaşmayan proqnozlarını bəhanələr gətirərək şərh etməyə çalışan qatı marksist olan Lenin idi.




Kommunizmin fikir ataları Marks (solda) və Engelsdir (sağda). Ortada isə Marksın "Das Kapital" adlı kitabının rusca tərcüməsinin qapağı görülməkdədir.

Lenin inqilabın İngiltərə kimi inkişaf etmiş ölkələrdə ola bilməyəcəyini, onun yerinə Rusiya kimi sənayeləşməmiş ölkələri sınamaq, kommunizmin burada müvəffəqiyyətə nail olacağını və sonra da bütün dünyaya yayılacağı fikrini irəli sürmüşdü. Bu xəyalını reallaşdırmaq üçün Rusiyanın daxilində və xaricində uzun illər inqilaba hazırlıq görmüş, I Dünya Müharibəsinin qarışıqlığı fürsət bilmiş və iqtidara gəlmişdi.

Amma Leninin proqnozları da Marksınkı kimi boşa çıxmışdı. Nə qurduğu sistem müvəffəqiyyət qazanmış, nə də kommunizm düşündüyü kimi dünyaya yayılmışdı. Bu gün Leninin qurduğu Sovet İttifaqı artıq dağılmış və tarix olmuşdur. Sovet işğalı və təzyiqi ilə kommunizmin yaradıldığı ölkələrdə də kommunist sistemi çökmüşdür. Kommunizm XX əsrin ən böyük və ən müvəffəqiyyətsiz təcrübəsi olaraq qəbul edilmişdir.



Bir fikir, bir ideologiya uğuruna özlərini yandıran insanlar əslində həddindən artıq bir romantiklik içindədirlər. Nəticəsini ağıllı şəkildə düşünmədən, guya "cəsarət" nümayişi edə bilməkdədirlər.

Marksizmin bir yanılma olduğu yalnız proqnozlarının və qurduğu sistemlərin çökməsi ilə deyil, eyni zamanda əsaslandığı fəlsəfənin də iflası ilə isbat edilmişdir. Marksizmin əsasını təşkil edən materialist fəlsəfənin bütün fərziyyələri XX əsrdəki elmi kəşflərlə yalanlanmışdır. Məsələn:

1. Materializm kainatın sonsuzdan bəri var olduğunu, bu səbəbdən maddənin yaradılmadığını müdafiə etmişdir. Halbuki XX əsrdə qəbul edilən Big Bang nəzəriyyəsi maddənin və zamanın yoxdan yaradıldığını göstərmişdir. Bu nəzəriyyə kainatın 10-15 milyard il əvvəl yoxdan var olduğunu, yoxluq içində birdən bir hərəkətin yarandığını ortaya qoymuşdur. Başqa sözlə, Big Bang tərəfindən göstərilən reallıq heç bir şey mövcud deyilkən, bu yoxluq içində birdən bir hərəkət və bu hərəkətin ardından maddə və zamanın meydana gəlməsidir. Məhz bu,

materialistlərin iddialarını tamamilə yıxdı, maddəni, zamanı və hərəkəti Allahın yaratdığına dair dəlillərdən biri oldu.

2. Materializm maddənin və zamanın bir “mütləq” anlayış olduqlarını, yəni həmişə var olan, dəyişməyən, sabit əsaslar olduqlarını müdafiə etmişdir. Halbuki Eynşteynin “Nisbilik nəzəriyyəsi” maddə kimi zamanın da mütləq bir anlayış olmadığını, dəyişən bir hiss forması olduğunu göstərmişdir.

3. Materializm insan zehninin yalnız maddi faktorlarla açıqlana biləcəyini, insanın bütün zehni funksiyalarının maddi səviyyəyə endirilə biləcəyini iddia etmişdir. Halbuki beyinin detallarının kəşf edilməsi, beyində heç bir qarşılığı olmayan zehni funksiyaları ortaya qoyaraq, insan zehninin qeyri-maddi bir varlığa, yəni “ruh”a aid olduğunu təsdiq etmişdir.

4. Materializm canlıların yaradılmadığını, Darvinin təkamül nəzəriyyəsində iddia edildiyi kimi təsadüflərlə meydana gəldiyi yalanını irəli sürmüşdür. Bu iddia da XX əsrdəki elmi tapıntılarla çürümüş, canlılarda inkar edilməsi mümkün olmayan bir “dizayn” olduğu və bütün canlıları yaradanın Allah olduğu bir daha sübut edilmişdir.

Əgər bir ideologiya əsaslı olduğunu iddia edirsə, ancaq iddiaları ağıl və elm qarşısında aciz qalırsa və yaşanan konkret hadisələr o ideologiyanın bütün proqnozlarını boşa çıxarırsa, o zaman bu ideologiyanın əsaslı olması barədə heç bir iddiası ola bilməz. Bu ideologiyanı mənimsəmiş insanlar da onu tərk etməlidirlər. Bu səbəbdən əgər kommunistlər romantizm və xəyalpərəstliklə deyil, ağıl, məntiq və sağlam fikirlə hərəkət edən insanlar olsaydılar, bu günə qədər kommunizmi dəfələrlə tərk etməli olardılar.

Kommunizm romantizm əsasları üzərinə qurulmuş bir ideologiya olduğundan ona bağlananlar da elmdən uzaq bir şəkildə bu sistemə bağlı qalmağı və bu köhnə sistemi müdafiə etməyi davam etdirirlər. Hələ lap əvvəldən, yəni Marksın ən fundamental proqnozlarının reallaşmadığı görüldüyündə bu ideologiya bir kənara qoyulmalı idi. Amma qoyulmadı. Dünyanın hər tərəfində törəyən "inqilabçılar" Marksın xəyallarını reallaşdırmaq uğrunda hərəkətə keçdilər. İnqilablar, vətəndaş müharibələri, partizan mübarizələri, terror aktları həyata keçirdilər.

Sovet İttifaqı və bütün Şərq Bloku dağıldı, Qırmızı Çin kapitalist iqtisadiyyatını mənimsədi. Amma hələ də kommunizmdən əl çəkilmir. Hələ də dünyada və ölkəmizdə kommunist təşkilatlar mövcuddur və fəaliyyətlərini davam etdirirlər. Bəhs etdikləri "inqilab"ın bir xəyal olduğunu başa düşmələrinə baxmayaraq, sırf kommunizmi buraxmamaq üçün qan tökməyə davam edirlər. Özlərinə və yoldaşlarına diri-diri od vurub yandırarkən kommunist marşlar söyləyəcək qədər romantik, kor və məqsədsiz bir inadla kommunizmə bağlılıqlarını qoruyurlar.

Bu vəziyyət kommunizmin rasional bir ideologiya olmadığını və kommunizm tərəfdarlarının onu rasional şəkildə qiymətləndirmədən başqa səbəblə mənimsədiklərini göstərir. Buna bir çox insan "fanatizm", "mövhümatçılıq", "sabit fikirlilik" deyir. Burada səhv yoxdur. Amma bir az daha dərindən araşdırıldığında fanatizmin altında romantizmin çox böyük bir rol oynadığını görə bilərik.

Başqa sözlə desək, kommunizm də romantizmin qaranlıq sehrindən güc almaqdadır.

Kommunist romantizmin nümunələri

Kommunistlərin yaşadığı romantik ruh halını ilk başda çox adam dərk edə bilməz, çünki kommunistlər həmişə elmdən, fəlsəfədən, ağıldan

danışırlar. Halbuki bu anlayışları da romantik bir dünyagörüşləri qəbul edirlər. Elmin ortaya qoyduğu, gəldiyi nəticələri "burjua elmi" adlandıraraq kortəbii şəkildə inkar edirlər. Hətta Stalin bu dünyagörüşünü sistemləşdirmiş və öz dövründə "burjua elmi" və "proletariat elmi" deyərək axmaq və süni ayrı-seçkilik etmişdir.



Kommunistlərin diqqət çəkən tərəflərindən biri, milyonlarla insanın ölümünə səbəb olan, cani ruhlu liderləri, xalq üçün işləyən, yüksək ərdəm sahibi, hətta fövqəlbəşər varlıqlar olaraq göstərmə səyləridir. Bu yolla xalqda kommunist liderlərə qarşı romantik bağlılıq meydana gətirmək və işlənən cinayətləri yaxşı göstərməyə çalışmaqdadırlar.

Digər tərəfdən, kommunistlərin nəşrlərinə, jurnallarına, şeirlərinə ya da marşlarına diqqətlə baxsaq, onların dərin romantizm yaşadıqlarını görərik. Kommunistlər bəzi anlayışları bütləşdirmiş və onlara qarşı həddindən artıq romantik bir bağlılıqla bağlanmışlar. Bunların başında "inqilab" anlayışı gəlir. Bir kommunist üçün inqilab bütün pisliklərin sonu və bütün yaxşılıqların başlanğıcıdır. Heç bir zaman reallaşmayacağını bildiyi bu xəyala bir növ ümidsiz eşqlə bağlanar. Bu inqilab haqqında heç

bir ağıllı qiymətləndirmə edə bilməz. İnqilab niyə ediləcək? İnqilab olanda bir çox günahsız insanın qanı boşuna axacaq, bütün cəmiyyət qəm-qüssə çəkəcəkdir, buna nə gərək var? İnqilab olmadan da kasıb insanların həyat şəraitləri düzələ bilməzmi? İnqilab olanda iqtisadiyyatın vəziyyəti necə olacaq? Ölkə necə idarə olunacaq, daxili iğtişaşlar və xarici təhlükələr necə aradan qaldırılacaq?






Kommunist romantizmin əhəmiyyətli simvollarından biri də bu tərz plakatlardır. Bunlar xalqın kommunist ideologiya və kommunist liderlərlə romantik əlaqəsini dəstək olma məqsədinə xidmət etməkdədir.



Bu sualların bir kommunist üçün heç bir əhəmiyyəti yoxdur. Onun yeganə məqsədi inqilabdır. Əgər yuxarıdakı suallara cavab verməli olsa, Leninin, Stalinin və ya Maonun yazdığı kitablardan qəlibləşmiş sözləri deyər, ancaq bu sualların cavablarını həqiqətən düşünməz. Onu inqilab fikrinə

ən çox bağlayan faktor isə bu mövzuda yazılan duyğusal şeirlər, bəstələnən alovlu marşlardır. Kommunist ədəbiyyatda tez-tez "çiçəklər içindəki gözəl ölkə"dən, "uzaqlardakı qırmızı günəş"dən və s. bəhs edilir. Əslində inqilab anlayışı ilə kommunist arasındakı əlaqə bir növ romantik eşq hekayəsi kimidir. Universitetlər, kitab sərgiləri, mədəniyyət mərkəzlərindəki kommunistlərə aid stendlər, kommunistlərin yığışdığı barlar, kafelər araşdırıldığında romantizmin müxtəlif simvollarla dəstəkləndiyi nəzərə çarpar. Zəncirlərini qıran güclü proletariat emblemləri, sıxılmış yumruq fiqurları, sosializm üçün döyüşməkdən və ölməkdən danışan inqilabi mahnılar kommunist romantizminin ən məşhur simvollarıdır.

Bu romantizm bəzən geyimlərdə də əks olunur. Kürəyinə xaki rəngli şinel keçirən, başına da desant əsgər papağı qoyan bir kommunist gənc özünü Latın Amerikasının kommunist partizan lideri Che Guevaraya bənzədər. Otağında və ya xüsusi əşyalarının arasında böyük ehtimalla bir "Che" emblemi vardır. Pop ulduzlarının fanatiki olub onlar kimi geyinən romantik kollecli gənclərdən bir fərqi var: Seçdiyi ulduz musiqiçi deyil, partizandır.

Kommunist romantizmin bir başqa maraqlı nümunəsi isə özlərinə əziyyət verməkdən və digər insanların onlara yazığı gəlməsindən zövq almalarıdır. Məsələn, həbsxanada "aclıq aksiyası"na başlayaraq adi bir məqsəd üçün özünü ölümə aparan kommunist xadim bu hərəkətinin ona verdiyi əziyyət və iztirabdan həzz alır. Bir tərəfdən çəkdiyi əziyyətə görə digər insanların ona yazığı gəlməsindən, digər tərəfdən yoldaşları tərəfindən "dava adamı" olaraq tanınmaqdan və təqdir edilməkdən zövq alır.

Kommunistlərin əziyyət çəkməkdən aldıqları romantik zövq bəzən çox yüksək həddə çata bilər. Kommunist xadimlər özlərini diri-diri

yandırmaq, seçdikləri yoldaşlarını dəmir barmaqlıqlara bağlayaraq üzərinə yandırıcı maddə töküb yandırmaq, sonra da qarşısına keçib o yanarkən kommunist marşlar söyləmək kimi qorxunc bir vəhşilik tətbiq etməkdədirlər. Bu ağlasığmaz şiddəti reallaşdıran xadimlərin, eynilə Nasist mitinqlərindəki izdihamlar kimi, bir növ "şüur qapanması" vəziyyətində olduqları, tamamilə romantik və psixoloji trans halına girdikləri açıqca görünür.







Qırmızı Çində ya da Sovet Rusiyasında nümayiş üçün toplanan kommunist xalqın psixologiyasının, əslində Hitler Almaniyasındakı xalqın psixologiyasından fərqi yoxdur. Hər iki kütləni də meydanlarda şüursuzca bir kommunizm tərəfdarlığına yönəldən güc, təlqin edilən romantiklikdir.

Kommunistlərin hədəflərinə əsla çata bilməyəcəklərini bildikləri halda israrla ideologiyalarına bağlı qalmaları romantik inadla reallaşır. "Səhv də olsa, müvəffəqiyyət qazanmasam da, mən kommunistəm və axıra qədər

də qalacağam" düşüncəsilə kor-koranə bir bağlılıq nümayiş etdirirlər. Əlbəttə, ağıllı bir insan belə davranmaz.

*Nəticə etibarı ilə, kommunizmin şeytanın insanları ağıldan və Allaha imandan yayındırmaq üçün istifadə etdiyi romantik silahın bir hissəsi olduğu da anlaşılır. Kommunizm əslində ağıla və elmə zidd iddialarla doludur və təxminən 1,5 əsrdir davam edən davamlı təbliğatlarının arxasında kommunistlərin ideologiyalarına romantik bağlılığı dayanır.*

*Qırmızı Çində və ya Sovet Rusiyasında nümayiş üçün toplanan kommunist insanların psixologiyası əslində Hitler Almaniyasındakı insanların psixologiyasından fərqlənmir. Hər ikisi də meydandakı şüursuz kommunizmin dəstəyinə aparan güc aşılanmış romantiklikdir.*

Kommunizm bütün insan dəyərlərini ortadan qaldıran bir ideologiyadır

*Adnan Oktar: Marksizmin inkişaf etdiyi, Darvinizmin inkişaf etdiyi dövr, elmin çox qısır olduğu, insanların tədqiqat gücünün və texniki gücünün çox aşağı olduğu bir dövr idi. Beləliklə cahiliyyə mühitində inkişaf etdi. Bu səbəbdən Darvininin əsaslandığı heç bir dəlil yox idi. Bunlarda bütün nəzəriyyələrini Darvinin üzərində qurdular, yəni çürümüş yumurtanın üstündə bir ev tikməyə çalışdılar. Yumurta dağılanda ev aşağı düşdü və çökdü. Başqa sözlə, marksizmin ən acınacaqlı məqamlarından biri, ən acınacaqlı cəhətlərindən biri də onun Darvinizm üzərində qurulmasıdır. Darvinin təkamül nəzəriyyəsinə əsaslanır. Onsuzda Mao da bunu deyir. "Çin sosializminin əsası Darvin və təkamül nəzəriyyəsidir" deyir. Beləliklə, buradan nə qədər çürük, bir sistemin qurulduğunu başa düşə bilərsiniz...*

*Adnan Oktar: Kommunizmin məqsədi insanları heyvan kimi görmək, onları heyvanlar kimi işlətmək, istismar etmək və insan yerinə qoymamaqdır. Onların ruhlarındakı yaradıcılıq gücünü, yəni müəllif hüquqlarını məhv etmək və onları robotlaşdırmaqdır. Məsələn, SSRİ-də kommunizm çökdükdən sonra insanların şəkilləri var, ruha bənzəyən, mənəvi məhv olmuş şəkillər var. Məsələn, bu gün Çində insanlara baxın, fotolara baxın, insanlıqdan kənar vəziyyətdə üz ifadələri məhv edilir. Başqa sözlə desək, gülməyi, danışmağı, zarafatı edə bilmirlər, yəni ruh sevincini, ruhun dərinliklərini məhv edən kommunizmi bilirlər. Beləliklə, demək olar ki, insanlıqdan çıxarıldılar. Şeytan öz sistemini qurdu. Bəzisini sosialist, bəzisini faşist, bəzisini şeytançı, bəzisini iddia edilən ergenekoncu etdi.*

*Adnan Oktar: Qan tökmə və əziyyət vermə sistemini sevgisizlik, ruhsuzluq, həyat sevincini aradan qaldırmaq üçün insanlara vermişlər. Və bunlar insanlara dəyər verməyən sistemlərdir. İnsanları insan olaraq görməyən və ruha sahib olduqlarını qəbul etməyən sistemlərdir. İnsanları maşın kimi görən əşya, daş kimi görən insanlardır. Və bu sistemlər, düşüncələr insanlığı viran qoydular. Budur Hz. Mehdi (ə.s) bu bəlanı, azğınlığı, kiri, bu rüsvayçılığı aradan qaldıracaq. Bu zülmə son qoyacaqdır. İnşaAllah Allahın vəsilə etməsi ilə. (Kral Karadeniz TV, 22 yanvar 2009)*

# Dini pərdə altında tətbiq olunan romantizm

Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir"– deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?" (Əraf surəsi, 28)

Romantizm bir ideologiya və ya dünyagörüş olmaqdan çox, müxtəlif ideologiya və dünyagörüşlərə nüfuz edən, onlara romantik bir atmosfer verən, bu yolla insanları ağıllı davranmaqdan uzaqlaşdıran bir təsirdir. Faşizm və ya kommunizm kimi tamamilə dindən uzaq və azğın ideologiyalara nüfuz etdiyi kimi, bəzən dini pərdə altında da insanlara təsir edir.

Bu mövzuya başlamadan əvvəl vacib bir xüsusiyyəti qeyd etmək lazımdır: Dini pərdə altında ortaya çıxan bir hərəkət, bəzən səmimi olmaya bilər. Əksinə, tarixdə dinə və dindarlara zərər vermək üçün din və Allahın adı ilə ortaya çıxan bir çox adam, qrup və düşüncə olmuşdur. Allah Quranda bunun bəzi nümunələrini bizə bildirmişdir. Məsələn, Allahın Səmud qövmünə elçi olaraq göndərdiyi Hz. Saleh peyğəmbəri öldürmək üçün plan quran dəstə öz aralarında Allah adına and içmişlər:




ОКТЯБРЬ












Romantikliyin təsiri ilə azğın təriqətlərə daxil olan insanlar həqiqi dindən və ağıldan tamamilə uzaqlaşar. Yuxarıda rəsmi görülən Herff Applewhitenin tərəfdarları, “Do” ləqəbli bu adamın, UNO-ların gəlib onları aparacaqlarına dair sözlərinə inanmış və toplu şəkildə intihar etmişlər.

Bu vəziyyət insanların din adı və görünüşü altında əslində dinlə əlaqəsi olmayan bəzi azğın düşüncə və əməllər etdiklərini göstərir. Romantizm də, dinlə əlaqəsi olmadığı halda dinin bir parçası düşünülən bu azğınlıqların başında gəlir.

Dinlə romantizmin bir-birinə necə qarışdırıldığını anlamaq üçün dinin əsası olan “ixlas” anlayışını yaxşı qavramaq lazımdır. İxlas - bir işin yalnız

və yalnız Allahın razılığını qazanmaq üçün edilməsidir. Bir iş ancaq ixlaslı olaraq edilsə ibadət olar və Allah Qatında dəyər qazanar. Məsələn, namaz qılmaq, oruc tutmaq, zəkat vermək, Allah yolunda səy göstərmək və bütün digər ibadətlər, Allahın rizasını qazanmaq məqsədilə edildiyi təqdirdə ibadət olar. Allah Quranda "Vay halına namaz qılanların – o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar (Maun surəsi, 4-6) buyuraraq Allah rizası üçün edilməyən ibadətin etibarsızlığını bildirmişdir.

Romantizmin dini təhrif etməsi də bu şəkildə baş verir. Dini Allahın rizasından başqa yerə istiqamətləndirir: İnsanlara dini Allahın rizası üçün deyil, öz duyğusal ehtiyaclarını təmin etməyə yönəldir.






Batil dinlərin çoxunda insanların öz bədənlərinə zərər verməleri məqbuldur. Üstəlik bunu din adına edərlər. Halbuki bu romantik din anlayışının bir nəticəsidir.

Romantizm bu incə, amma çox əhəmiyyətli olan ayrı-seçkiliyi ortadan qaldıraraq, insanları tamamilə səhv bir din anlayışına yönəltmişdir. Bunun nəticəsi isə mistisizmdir. İxlas ortadan qalxdığında və din (Allahın dinini tənzih edirik) bir növ “psixoloji rahatlama” vasitəsi olaraq görülməyə başlandığında insanları bu psixologiyaya aparan mistik faktorlar dövrəyə girir.

Romantik din anlayışı ilə Quranda Allahın bizə öyrətdiyi və Peyğəmbərimizin (s.ə.v.) həyatında ən gözəl nümunəsini gördüyümüz əsl dini müqayisə etdiyimizdə fərq çox açıq şəkildə ortaya çıxır:

1. Quranda Allah insana ağlından istifadə etməyi, düşünməyi, Allahın yaratdıqlarını araşdırmağı və bu ağılla iman etməsini əmr edir. Halbuki “romantik din” anlayışında ağıl fəaliyyətini dayandırır. İnsanlar düşünməyə deyil, düşünməməyə yönəlirlər.

2. Romantik din anlayışlarının çoxunda insanın özünə zülm etməsi, əziyyət verməsi yaxşı davranış olaraq qəbul edilir. Məsələn, özlərini çarmıxa çəkərək Hz. İsaya yaxınlaşdıqlarını düşünən xristianlar vardır. Buddizm kimi Uzaq Şərq dinlərində ac qalmaq, narahat yerdə yatmaq kimi "özünə zülm" nümunələri müqəddəsləşdirilir. Halbuki Quranda insanın özünə əziyyət verməsi kimi bir anlayış qətiyyən yoxdur. Bir ayədə keçən "Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər" (Yunus surəsi, 44) hökmü romantizmin bu yanlış anlayışını ən gözəl şəkildə ifadə edir.

Qısaca, romantik din anlayışı insanların nəfsində olan, düşünməmək, reallıqdan qaçmaq, insanları bütləşdirmək, özünü hörmətdən salmaq və özünə əziyyət vermək kimi xüsusiyyətləri təmin edən və həqiqi dinə tamamilə zidd olan inancı və fəaliyyəti özündə ehtiva edən batil bir sistemdir.

İnsanlar Allahın onlardan nə istədiyini öyrənib tətbiq etmək yerinə, atalarından onlara miras qalan düşüncə qəliblərini və davranış şəkillərini davam etdirirlər. Hadisələri düşünüb ağılla qiymətləndirmək əvəzinə, ənənələrində mövcud olan qaydaları və anlayışları mühafizə edirlər. Bu da Allahın Quranda xəbərdar etdiyi bir azğınlıqdır. Quranda bu mövzu ilə əlaqədar çox sayda ayə vardır. Bunlardan bir neçəsi belədir:

> *Onlara: "Allahın nazil etdiyinə və (göndərdiyi) Elçiyə tərəf gəlin"– deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir"– deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə (onda) necə olsun?*
>
> **(Maidə surəsi, 104)**

Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir"– deyirlər. De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?" (Əraf surəsi, 28)

> *Onlara: "Allahın nazil etdiyinə itaət edin!"– deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!"– deyərlər. Əgər şeytan onları (Cəhənnəm) odunun əzabına doğru sürükləyirsə necə olsun?*
>
> **(Loğman surəsi, 21)**

Nəticə

Bir insanın Allahın istədiyi kimi saleh imana sahib ola bilməsi üçün romantizm bataqlığından xilas olması zəruridir. "Çünki Allah Haqdır...." (Həcc surəsi, 62) ayəsində buyurulduğu kimi Allah haqqın özüdür. Romantizmə qapılan insanlar isə ya romantik milliyyətçilik, kommunizm kimi azğın ideologiyalardan təsirlənir, ya dini romantik bir dünyagörüşlə ağıldan və ixlasdan uzaqlaşırlar, ya da kitabın sonrakı hissələrində araşdıracağımız romantik sevgi anlayışının təsirinə düşürlər.

Dini yaşamağa başlasalar belə, romantizmin verdiyi qarışıq ruh halına görə bu mövzuda qərarlı ola bilməzlər. Bəzi romantik faktorlarla dini yaşamağa başlayan, amma qısa müddət sonra bundan imtina edən və yenidən dindən kənar həyata dönən bir çox insan vardır.

Halbuki Allah insana belə əmr etmişdir:

O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbrli ol! Heç Ona oxşarını tanıyırsanmı?! (Məryəm surəsi, 65)

# İmanla bağlı olan əsl ağıl

...Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur (Muhəmməd) və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri (bu Kitabla) əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)

Kitabın sonrakı hissəsində romantizmin gündəlik həyatdakı təsirlərini araşdıracağıq. Ancaq bundan əvvəl tez-tez toxunduğumuz "ağıl" anlayışının əsl mənasını da ətraflı şəkildə izah etmək lazımdır.

Ağıl sözü cəmiyyətdə zəka anlayışını ifadə etmək üçün istifadə edilir. Bu səbəblə ağıllı bir insanla savadlı bir insan arasındakı əhəmiyyətli fərqə də çox vaxt diqqət yetirilmir. Lakin bu çox vacibdir. Ağıl və zəka tamamilə müxtəlif xüsusiyyətlərdir.

Ağıl möminin Allahın hadisələri yaratmasındakı incə hikmətləri görməsini və hadisələri bu ilahi hikmətlər dairəsində qiymətləndirməsini təmin edir. Zəkaya əsaslanan bir yanaşma isə hadisələri, ancaq sadə səbəb-nəticə əlaqələri çərçivəsində, mexaniki və dar əhatəli bir qavramanı meydana gətirir. Ağıl zəkadan daha üstündür və ancaq Allaha və Qurana qəti iman edən, Quran ayələrinə tabe olan möminlərə xas bir qabiliyyətdir. Zəka bütün insanlarda müxtəlif dərəcələrdə olan fiziki xüsusiyyətdir. Ancaq ağıl yalnız iman edənlərə məxsusdur. İman etməyənlər üçün isə ağıldan bəhs etmək doğru deyil.

Ağıl zəkanın, mühakimənin və məntiqin ən doğru və qüsursuz şəkildə istifadə edilməsini, bu qabiliyyətlərdən faydalanılmasını təmin edir. Ağılsız bir insan isə nə qədər zəkalı olursa-olsun, ağlından istifadə edə

bilmədiyi üçün mütləq müəyyən bir nöqtədə yanlış bir məntiqə və mühakiməyə sapmağa məhkumdur. Dünya tarixində iman etməyən filosoflara və elm adamlarına baxdığımızda hamısının eyni mövzularla əlaqədar fərqli, hətta bəzən zidd düşüncələri müdafiə etdiklərini görürük. Bunların hamısı olduqca zəkalı insanlar olmalarına baxmayaraq, imana və dolayısı ilə ağıla sahib olmadıqları üçün doğruları tapa bilməmişlər. Hətta bir çoxu insanlığı saysız fəlakətlərə sürükləmişlər. Yaxın tarixdən nümunələr verək: Marks, Engels, Lenin, Trotski kimi bir çox filosof, ideoloq və dövlət adamı zəkalı insanlar olduqları halda, ağıldan istifadə edə bilmədiklərindən milyonlarla insanın fəlakətinə səbəb olmuşlar. Halbuki ağıl insanların fəlakətini deyil, rahatlığını və xoşbəxtliyini güdür, bunları əldə etməyin yolunu və üsullarını göstərir.

İnsan düşünmək, qavramaq, diqqət yetirmək, praktik davranmaq kimi bir çox şeyi zəkası sayəsində reallaşdırır. Ancaq ağıllı bir insan zəka ilə mümkün olmayan dərin bir anlayışa, doğrularla yanlışları ayırd etmə qabiliyyətinə də malikdir. Bu səbəbdən ağıl insana zəkadan daha çox üstünlük qazandırır.

Ağlın qaynağı isə bir az əvvəl ifadə etdiyimiz kimi, səmimi iman və Allah qorxusudur. Allahdan qorxan, Onun əmr və qadağalarından çəkinən, tövsiyələrini dəqiq yerinə yetirən bir kimsə təbii olaraq bu üstünlüyə, Allahın bir neməti olaraq sahib olar.

Ancaq bu qabiliyyətə sahib olmağın bu qədər asan olmasına baxmayaraq, insanların çox az hissəsi ağıl sahibidir. Allahın Quranda "... Onların çoxu isə anlamır" (Maidə surəsi, 103) ayəsi ilə xəbər verdiyi bu həqiqət insanların çoxunun iman sahib olmaması, Qurandan uzaq həyat mənimsəmələrindən qaynaqlanan bir vəziyyətdir.

Allahdan qorxan və səmimiyyətlə Qurana uyanlara aid olan ağıl iman edən saleh möminləri hər vəziyyətdə üstün bir mövqeyə gətirir. Ayrıca

iman sahibi bir insanın hər şeyi, hər an Allahın yaratdığını bilməsi, incəliyinə qədər hər şeyin Allahın təyin etdiyi tale daxilində baş verdiyinin və hər an Allah ilə birlikdə olduğunu dərk etməsi ağlın əsas meyarıdır. Digər tərəfdən, ağıl insanın sahib olduğu üstün tərəflərinin dəyişən şərtlərə və mühitə qüsursuz şəkildə uyğunlaşmasını da mümkün edir.

Möminin bəsirət və fərasətindəki qətiyyət, diqqət və şüur açıqlığı, üstün diaqnoz və həlletmə qabiliyyəti, gözəl əxlaqı, danışığı və rəftarındakı hikmət, güclü şəxsiyyəti, həmişə ağıl sahibi olmasının təbii nəticələridir. (Ətraflı məlumat üçün baxın: "Qurana görə həqiqi ağıl", Harun Yəhya)

Təsvir etdiyimiz bu nümunə modelinin, bu üstün xüsusiyyətlərin bir insana aid olduğunu deyil, cəmiyyətin ümumi quruluşunu meydana gətirdiyini düşünün: Hər kəsin ağılla davrandığı hər vəziyyətdə, hər söhbətində, hər rəftarında, gəldiyi hər qərarda ağılın üstünlüklərinin əksəriyyət tərəfindən yaşandığını... Ağıllı insanlardan ibarət olan bir birliyin meydana gətirəcəyi mühiti... Şübhəsiz, hər kəsin təhlükəsiz, sağlam, rahat yaşaması üçün ağıllı insanlara ehtiyacı vardır. İnsanları bezdirən xaos, qarışıqlıq və anarxiyanın qarşısının alınması və bu mövzulara köklü dəyişiklik edilməsi üçün də ağıllı insanların varlığı vacibdir. Bu baxımdan hər problemin açarı olan ağıla duyulan ehtiyac ortadadır.



Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)

Şübhəsiz, ağıl bir insanın sahib olduğu ən əhəmiyyətli xüsusiyyətlərdəndir. Ağıllı insan faydalı bir şeyi özündən çox ətrafındakılara təmin edər. Çünki imanın gətirdiyi əxlaqda Allahın rizasını qazanmaq xaricində heç bir düşüncə, hədəf, ya da ideal yoxdur. Belə bir insan Quranda təsvir edilən mömin xüsusiyyətlərini əksiksiz olaraq yaşayar: Məzlumların qorunması, yolda qalmışlara, kimsəsizlərə, köməyə ehtiyacı olanlara sahib çıxılması, ədalətli davranılması, kimsənin ac buraxılmaması kimi hər işin məsuliyyətini üzərində hiss edər. Qurandan öyrəndiyi bu incəlikləri, vicdani məsuliyyətləri ağlı sayəsində qüsursuz bir şəkildə reallaşdırar. Belə ki, problemləri həll etmə, hikmətli danışma və yazma, tədbir görmə, tətbiq etmə, yol göstərmə kimi bir çox mövzuda təbii olaraq hər kəsin gözü ağıllı bir kimsəni axtarır. Çünki belə bir insanın hər rəftarından, hər danışığından, hər fikrindən istifadə edilir.

Ağlın lazım olması bu dərəcə əhəmiyyətli ikən ağılsızlığın nə cür ciddi bir təhlükə olduğunu təsbit etmək heç də çətin deyil. İstər şəxsi, istərsə də cəmiyyətlə əlaqədar olaraq ağılsızlığın səbəb olduğu bəlaları araşdırmaq, vəziyyətin ciddi olmasını göstərir.

Ağlın qarşısındakı ən böyük maneələrdən biri isə kitabın əvvəlki hissələrində siyasi və sosial təsirlərdən bəhs etdiyimiz ruhi pozuqluqdur: Romantizm, ya da digər adı ilə desək, duyğusallıq.

Gündəlik həyatda duyğusallıq nədir?

Duyğusallığın tərifini insanın ağıl və məntiqinin tələb etdiyi doğrular istiqamətində deyil, duyğularının istiqamətləndirməsi ilə hərəkət etməsi şəklində vermişdik. Duyğusallıq hər insanda müxtəlif ölçülərdə olmasına baxmayaraq, dindən uzaq cəmiyyətlərin bütün fərdlərində olan ruhi xəstəlikdir. Qurandan uzaq, dini yaşamayan bir insanın romantizmdən qurtulması mümkün deyil. Çünki duyğusallıq ancaq insanın ağlı ilə, yəni Quran əxlaqı ilə hərəkət etməsi nəticəsində ortadan qalxa bilər. Qurana əməl etməyən birinin isə bir az əvvəl ifadə etdiyimiz kimi ağıldan istifadə etməsi mümkün deyil.

Duyğusallıq cahiliyyə cəmiyyətlərində “yaxşı insan” ölçüsü olaraq qəbul edilən, bu səbəbdən də bəziləri üçün öyünmə vasitəsi olan əhəmiyyətli ruhi pozuqluqdur. Ancaq çox insan üçün duyğusallıq elə müsbət məna qazanmışdır ki, ağlamayan bir insanı asanlıqla qəlbsiz, duyğusuz bir insan kimi qiymətləndirirlər.

Görəsən duyğusallıq zənn edildiyi kimi bu qədər məsum bir xüsusiyyətdirmi? Bu problemin cavabını araşdırsaq, duyğusallığın son dərəcə dəhşətli nəticələr doğurduğunu görəcəyik. Əvvəlki hissələrdə bunun sosial sahədəki təsirlərini açıqca gördük. Ancaq duyğusallığın gündəlik həyatda da son dərəcə zərərli təsirləri vardır. Duyğusallıq insanların şikayət etdikləri və cavab axtardıqları bir çox mövzuda aciz qalmalarının başlıca səbəblərindəndir.



Romantik insan, çətinlikdən, hüzndən əsla xilas ola bilməz. Öz əli ilə özünə zülm etmiş olar.

Halbuki, problem olaraq dilə gətirilən hər şeyin həlli, yaşanan çətinliklərdən qurtuluş yolları Quranda mövcuddur. Quranı rəhbər edənlər ağlın qazandırdığı üstünlüklərə sahib olurlar:

> *...Artıq sizə Allahdan bir nur və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri (bu Kitabla) əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir.*
>
> **(Maidə surəsi, 15-16)**

Yəqin ki, uşaqlığınızdan bəri qəzetdə oxuduğu bir haqsızlığa, televizorda seyr etdiyi ac insanlara ağlayanların, onların olduqları vəziyyətə kədərləndiklərini ifadə edənlərin vicdanlı insanlar olduğuna dair izahlar eşitmisiniz. Halbuki romantik insanların ciddi maraq və səy göstərmədən yalnız göz yaşı axıtmaq, şikayət etməklə reaksiya göstərmələri problemə heç bir fayda verməz. Bu cür insanlar ağlayıb özlərinə dərd etdikləri insanların problemlərinə çıxış yolu tapmaqdan çox onlara kədərlənməkdən zövq alarlar. Şüur altında duyğusallığın qaranlıq halını yaşamaq nəfslərinin daha çox xoşuna gələr. Pessimizm, ümidsizlik, ağrı-acı, kədər, depressiya kimi cəhənnəmə xas xüsusiyyətlərin bu dünyada

şeytanın duyğusallıqla azdırdığı insanlara cazibədar gəlməsi də olduqca maraqlıdır.

Bu mövzunun əhəmiyyətli bir istiqaməti daha vardır: Televizor qarşısına keçib heç bir şey etmədən göz yaşı tökən bu insanlara bir şey etmələri təklif edilsə, boş dayanmamaları deyilsə də, dəyişən bir şey olmaz. Bu vəziyyətdə də "mən tək başıma nə edə bilərəm ki?", "mənim etdiyimdən nə olacaq?" kimi bəhanələrlə mövzudan qaçmağa çalışarlar.

Duyğusal insanlar ətrafında meydana gətirdikləri mənfi aura nəticəsində hadisələri qarışıq və problemin həllini qeyri-mümkün göstərərək, özləri kimi ətrafındakıları da pessimizmə və ümidsizliyə sövq edərlər.





Kədərlənmək, pessimizmə qapılmaq, içindən çıxılmaz bir vəziyyətdə olduğunu sanmaq, təvəkküldən uzaqlaşmış insanların yaşadıqları romantikliyin əhəmiyyətli bir əlamətidir. Halbuki insan hər nə ilə qarşılaşsa Allaha güvənmək, ümidvar olmaq və buna uyğun davranmaqla məsuldur.

Bir çox gözəl əxlaq xüsusiyyəti duyğusallığın tərkibində yaşandığında bu gözəlliyini itirər, hətta son dərəcə təhlükəli vəziyyət yaranar. Məsələn, şəfqət Allahın Quranda təşviq etdiyi üstün bir əxlaq xüsusiyyəti olmasına baxmayaraq, romantik bir adamın şəfqəti zalım bir insana yazığı gəlmək, bu adamın etdiklərini xoş görmək, zülmü ilə razılaşmaq kimi yanlış şəkillərdə tətbiq oluna bilər. Bu baxımdan ağıllı insan üçün duyğusallığa aid heç bir üslubu, heç bir rəftarı və məntiqi də məqbul görmək mümkün deyil. Çünki bu cür bir zehniyyət olduğu müddətdə duyğusallığa aid hərəkətlər mühit və şərtlərə görə daha ciddi xarakter ala bilər.





O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)

Ancaq burada həssas olmaqla duyğusal olmaq arasındakı fərqi də göstərmək lazımdır. "Həssas, mülayim olmaq" Allahın Quranda peyğəmbər xüsusiyyəti olaraq vurğuladığı üstün bir xüsusiyyət ikən, duyğusallıq Quranda təsvir edilən əxlaqın tam əksidir. Möminlər duyğusal deyil, həssas insanlardır. Başqa sözlə desək, həm ağıllı və mülayim insanlardır, həm də insani istiqamətləri son dərəcə qüvvətlidir. Belə ki, əsl üstünlük də insanın bu xüsusiyyətləri bir yerdə saxlaya bilməsidir. Allah Quranda İbrahim Peyğəmbərin bu gözəl əxlaqını "Həqiqətən, İbrahim həlim, (Allaha) çox yalvaran və Ona üz tutan bir şəxs idi." (Hud surəsi, 75) ayəsi ilə bildirir.

Unudulmamalıdır ki, romantik insanların ancaq kiməsə yazığı gələr, onu düşdüyü çətin vəziyyətdən qurtarmaq, problemlərini həll etmək üçün heç bir cəhd etməzlər. Amma Allahın əmr etdiyi həssaslığa sahib bir insan yazığı gəldiyi insanlara kömək etmək üçün də əlindən gələni edər, problemləri həll edər, insanları çətin vəziyyətdən qurtarmaq üçün lazımi tədbirləri görər. Əsl şəfqət və sevgi də budur.

Duyğusallıq ağlı necə örtər?

Əlbəttə, hər insan sevgi, şəfqət, mərhəmət, qorxu kimi duyğularla birlikdə yaradılmışdır. Bu duyğulara sahib olmaq insani bir xüsusiyyətdir. Bizim burada vurğulamaq istədiyimiz mövzu isə bir insanın sağlam və stabil ruh halına sahib ola bilməsi üçün bu duyğularını imanı və ağlı ilə idarə etməsi, istiqamətləndirməsidir. Məsələn, sevgi insana ən başda onu yoxdan var edən, ona saysız-hesabsız ruzi və nemət verən və sonsuz, xoşbəxt həyat vəd edən Allaha qarşı duyulması üçün verilmişdir. Bundan sonra da Allahı sevən və Allahın da sevdiyi insanlara qarşı, yəni möminlərə qarşı yönəldilməli olan bir duyğudur. İnsanlara qarşı yönəldilən sevgidə əsas ölçü insanın Allaha olan yaxınlığı, Allahın sərhədlərini qorumaqda göstərdiyi həssaslıq, Allah qorxusu, yəni təqvasıdır. Bütün bu sevgilər də yenə Allah üçün və Allahın təcəllilərinə qarşı yönəldilən sevgilərdir. Allaha və dinə qarşı düşmənçilik bəsləyənlərə qarşı sevgi bəslənilməsi Quranda möminlərə haram edilmişdir.





Pessimizm, ümidsizlik, əzab, kədər, stress kimi cəhənnəmə xas xüsusiyyətlərin, bu dünyada şeytanın romantikliklə sapdırdığı kəslərə cazibədar gəlməsi çox təəccüblü bir vəziyyətdir. İnsanlar Allaha təvəkkül etmənin hüzurunu yaşamaq yerinə, özlərini heç sonu gəlməyən bir çətinliyə soxmaqdadırlar.

Eynilə, Allah möminlərə ancaq Ondan qorxmalarını, başqa heç kimdən və heç nədən qorxmamalarını əmr etmişdir. Çünki hər kəsin və hər şeyin varlığı Allahın hakimiyyətindədir, Allahdan başqa heç bir güc və qüvvət sahibi yoxdur, bu səbəbdən qorxmağa layiq başqa bir varlıq da yoxdur.

Başqa bir nümunə olaraq da əsəbiləşmək duyğusunu göstərə bilərik. Əsəbiləşmək insanlara qarşı edilən haqsızlıqlara, ədalətsizliklərə, Allaha və dinə qarşı göstərilən düşmənçiliklərə, zülmlərə qarşı möminlərin məsuliyyət və ruh yüksəkliyi hisslərini xəbərdar edən, hərəkət etdirən bir duyğudur. Lakin möminin bu hisslərinin hərəkətə keçməsi hər zaman ağıl, təmkin və gözəl əxlaq çərçivəsində reallaşar. Heç bir zaman mömini ədalət və mərhəmətdən uzaqlaşdırmaz. Mömin əsəbiləşərək haqsızlığa qarşı haqsızlıq, zülmə qarşı zülmlə cavab verməz, ədalətsizlik etməz. Bu cür etməsi Quranda qadağan edilmişdir.

Duyğuları ilə davranan insan isə bəzən öz mənfəətinə zidd olan adi bir hadisədə belə əsəbiləşə bilər. Hadisələr onun istədiyi kimi baş vermədikdə, bir insan onun arzuladığı bir şeyi etmədiyində anidən əsəbiləşə bilər. Daxilən əsəbiləşdiyinə görə gözlənilmədən bir anda hökmü və mühakiməsi tamamilə bağlanaraq qeyri-ixtiyari hərəkətlər edə bilər.



Ağıldan uzaqlaşıb, duyğularının idarəsinə girən bir insan asanlıqla hiddətlənə, kinlənə bilər və hətta şiddət edə bilər. Halbuki iman edən ağıllı bir insan, Allahın əmri gərəyi “qəzəbini tutub məğlub edər”, hər zaman etidallı olar.

Göründüyü kimi, insan Allahın onda yaratdığı duyğuları Allahın razılığı istiqamətinə yönəltməlidir. Yəni, Allahın razı olmadığı bir sevgi anlayışını, qorxunu, ya da əsəbini özündə saxlamamalıdır. Əks halda, Allahın göstərdiyi deyil, duyğularının göstərdiyi yolu mənimsəmiş olar. Bu da şirkdir (şərik qoşma).

Məhz insanda yaradılışdan var olan bu duyğuları ağlın yönləndirməsindən uzaqlaşanda, duyğusallıq dediyimiz xəstəlik başlayır. Həmin insanın davranışlarını, danışığını, hərəkətlərini, düşüncəsini, hadisələrə yanaşma tərzini duyğuları idarə etməyə başlayır. Bu zaman insan artıq ağlının idarəsindən çıxaraq, duyğularının idarəsi altına düşür. Belə bir insanın duyğuları ağlının önünə sədd çəkmiş, ağlını örtmüşdür.

Heç bir Quran ölçüsü güdmədən sevdiyi insana ölənə qədər aşiq olan bir insanın və ya müdirindən, həyat yoldaşından, hər hansı birindən şiddətlə

qorxan bir kimsənin, ya da qəzəblənən bir insanın ağıllı davranmasını gözləmək mümkün deyil. Çünki bu insanlar sərhəd və ölçü tanımayan duyğularının əsiri olmuşlar və bunun nəticəsində də ağılları bağlanmışdır.

Duyğusallıq insanı reallıqdan uzaqlaşdırır. Duyğusal insanların ən diqqətə çarpan xüsusiyyətlərindən biri də xarici dünyanı yaşamağı istəməmələridir. Bu ruh halındakı bir kimsə xəyal aləmində yaşayar. Reallıqla arasındakı əlaqə son dərəcə zəifdir. Ağlın və məntiqin yerini duyğular, reallığın yerini isə xəyallar tutmuşdur. Bu baxımdan, romantik bir insanla əlaqə qurmaq, onunla məsləhətləşmək, tövsiyə vermək o qədər də asan deyil. Əslində duyğusallıq psixiatriyada "şizofreniya" adlanan ruh xəstəliyinin yüngül formasıdır. (Əvvəl də ifadə etdiyimiz kimi, şizofreniya xəstələri reallıqdan tamamilə uzaqlaşaraq, öz xəyal dünyalarında yaşayırlar).

Duyğusal insanların vəziyyətini televizor qarşısında film seyr edən bir kimsənin ağlamasına bənzədə bilərik: Bu insan reallıqdan o qədər uzaqlaşmışdır ki, filmdə oynadığı rola görə pul alan, hətta bəlkə də həyatda hər cür pis əxlaqı üzərində daşıyan bir insanın filmdəki roluna görə əziyyət çəkdiyi üçün ona kədərlənə, hətta ağlaya bilər. Ağıllı insanın əsla düşməyəcəyi bu vəziyyət romantik bir zehniyyətin insanı reallıqdan nə cür qopardığını, nə qədər qeyri-sağlam düşüncəyə itələdiyini açıqca göstərməkdədir. Məhz, bu yanlış dünyagörüşü gündəlik həyatda yaşanan hadisələrə də əks olunmaqdadır.





Romantik insanların əksəriyyətlə əli qolu bağlı oturan, yalnız ağlamaqla kifayətlənən, şikayət edən amma bu şikayətləri, narahatlıqları yalnız sözdə qalan insanlar olduqlarına şahid olarıq. Bu insanlarda özünə acıma hissi o qədər çoxdur ki, heç bir səbəb olmasa da özlərinə ağlayıb sızlanacaq bir mövzu meydana gətirə bilərlər.

Duyğusal insanların əksəriyyətinin əli-qolu bağlı oturan, yalnız ağlamaqla kifayətlənən, şikayət edən, amma bu şikayət və narahat olmalarının yalnız sözdə qaldıqlarının şahidi oluruq. Məsələn, bir yaxınının qəzaya düşdüyü xəbəri gəlir, bunda mütləq bir xeyir olduğunu, sonra da necə kömək edə biləcəyini düşünmək yerinə, romantik bir adam kimi ağlamağa başlayır və huşunu itirir. O adama kömək etmək, həkim,

dərman, vəziyyəti necədir kimi sual vermək və necə yardım edə biləcəyini öyrənmək yerinə, şəxsən özü təsəlliyə, köməyə möhtac vəziyyətə düşür.

Başqa bir misal: Yanında birinin halının birdən pisləşdiyini görür amma bu adama ilkin yardım göstərib təcili yardım çağırmaq əvəzinə, özü təlaşlanmağa, çaxnaşma yaratmağa, heyfslənməyə, şüursuz və ağılsız reaksiyalar verməyə başlayır. Hadisəni izah belə edə bilməz, qısacası yaşadığı duyğusallıq onu ağlını istifadə edə bilməz hala gətirdiyindən belə bir adamla bütün əlaqə kəsilər.

Ya da özünün ciddi bir narahatçılığı vardır. Ancaq bunu bildiyi halda, həkimə getdiyində ciddi bir xəstəlik diaqnozu ilə qarşılaşacağını, qorxub kədərlənəcəyini düşünərək xəstəliyinin əlamətlərini əhəmiyyətli hesab etməz. Ağıllı tərpəndiyində ala biləcəyi tədbirləri görməməzlikdən gələrək, xəstəliyini müalicə etdirmə fürsətini itirə bilər.

Nümunələri daha da çoxalda biləcəyimiz duyğusal insanların göstərdikləri bu məntiqsiz, ağılsız reaksiyalar həyati baxımdan ciddi nəticələr meydana gətirə bilər. Nəticədə, bu insanlar şeytanın təsiri ilə ətrafında baş verən və mənfi kimi görünən hadisələrdən elə sarsılırlar ki, özlərinə kömək etmək, təskinlik vermək lazım gəlir. Halbuki bir az ağıllı davranaraq yaşadıqları hadisələr qarşısında məqsədəuyğun qərarlar versələr, bu problemləri həll edə bilərlər.



Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir. (Nəhl surəsi, 99-100)

Göründüyü kimi, romantik insanlar ağıllı nəticələr çıxaran, insanları istiqamətləndirən deyil, daim nəzarətdə olan, sahib çıxılan, başqalarına yük olan insanlardır. Bütün bunların nəticəsində də, bu insanlar ağıldan istifadə edə bilməyən, daxilən qeyri-xoşbəxt, narahat, ətraflarına problem yaradan zümrəni meydana gətirirlər. Məsələn, duyğusal bir adam yanında köməyə ehtiyacı olan biri olduğunda, bu adama kömək etmək yerinə heyfslənməyi, "vay, vay, çox təəssüf" kimi ifadələr işlətməyi yetərli görə bilər. Belə bir vəziyyətdə ağıl tamamilə arxa plana keçir. Bu səbəbdən də, bu anlayışdakı kimsədən fayda gözləmək səhv olar.

Allah Quranda bu kimi insanlarla möminlərin fərqini belə izah edir:

Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; Onlardan biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə

qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi? (Nəhl surəsi, 76)

Möminlər hadisələrə duyğusal deyil, ağılla reaksiyalar verərlər və hər vəziyyətdə yuxarıdakı ayədə bildirildiyi kimi "ədalətli işlər görməyi əmr edər", yəni doğru olanın edilməsini təmin edərlər. Yaşadıqları hər hadisənin Allahın təqdiri ilə olduğunu bildiklərindən və Allahın onlar üçün dilədiyindən başqa heç bir şeyə güclərinin çatmayacağının dərk edər, bunun təslimiyyəti və rahatlığını yaşayarlar. Gözlənilməz bir reaksiya verməz, əsla ümidsizliyə qapılmaz, pessimist olmazlar. Çatışmamazlıq kimi görünən hadisələri belə Allahın onlar üçün bir gözəllik olaraq yaratdığını dərk edərlər.

Duyğusallığın təhlükəli yönlərindən biri də, bu cür insana səhvlərini izah edildiyində, bunu qətiyyən qəbul etməməsi, hətta belə bir ehtimalı dinləməyi də ən başdan rədd etməsidir. Duyğusal bir insan kənardan gələn hər cür fikrə elə bağlıdır ki, dərhal haqsızlığa uğradığı hissinə qapılaraq ya kədərlənib ağlamaya başlayar, ya da küsüb bir kənara çəkilər. Bu baxımdan, romantik bir kimsəni tənqid etmək, ona bir şeyi xatırlatmaq, tövsiyə etmək belə mümkün olmaz.



Romantik insanların ən diqqətə çarpan xüsusiyyətlərindən biri də, qarşılaşdıqları problemlər qarşısında çözümsüz qalmaları, pessimist ruh halına bürünmələridir. Duyğuları ilə deyil ağılı ilə hərəkət edən, təvəkküllü insanlar isə, hər hadisə qarşısında bənzəri olmayan, saysız həll yolları çıxara bilərlər.

Duyğusallıq insanlara küsəyən bir xarakter qazandırar. Bunun nəticəsində bu insanlar hər deyilən sözün altında özlərinə bir mesaj olduğunu düşünərək, son dərəcə fərqli və şişirdilmiş nəticələr çıxara bilərlər. Heç bir şərh etmədən uzun müddət danışmamaq, üzünü turşutmaq, salamlaşmamaq kimi etiraz üsullarından istifadə edə bilərlər. Real düşünə bilmədiklərindən, ya da həqiqətlə üz-üzə gəlməkdən çəkindikləri üçün onları tənqid edib düzəltmək də mümkün olmaz. Bir az əvvəl də ifadə etdiyimiz kimi, bu zehniyyətdəki insanlar onlara deyilən hər sözü ya özlərinə edilmiş haqsızlıq olaraq qiymətləndirərlər, ya da ümidsizliyə qapılarlar. Belə ki, Allah bədbəxtliyi seçən bu cür insanlardan bir ayədə belə bəhs edir:

(Allahdan) qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaqardına vurarlar. (Əla surəsi, 10-11)

Nəticədə, ağıllarından istifadə edə bilmədikləri üçün duyğularının təsiri altına düşən və buna görə gündən-günə ağılları daha da örtülən insanların

bu hallarından təmizlənmədikcə dini qavramaları və yaşamaları mümkün deyil. Çünki Peyğəmbərimiz (s.ə.v.) "Ağlı olmayanın dini yoxdur" demişdir. Duyğusal, ağılsız bir insan sağlam mühakimə yürütmək qabiliyyətindən, tutarlı bir məntiqdən məhrumdur. Mömin üçün çox açıq olan bir mövzuda ziddiyyətlərə düşər. Vəsvəsələrlə boğuşar. Təmiz ağıl sahibləri üçün nəsihət olan Quranı anlaya bilməz, ondan öyüd ala bilməz, Allahı təqdir edə bilməz, öz ətrafında, kainatda baş verən hadisələrin yaradılış hikmətlərini, dünyanın, cənnətin, cəhənnəmin yaranma səbəblərini qavraya bilməz. Allahdan başqa ilah olmamasının nə məna verdiyini anlaya bilməz. Bu dərrakədə olan insanın hər fikri, hər düşüncəsi, hər məqsədi, hər niyyəti, hər davranışı onu bir şirkdən başqa bir şirkə sürükləyər.

Bu, şeytanın insanları Allahın yolundan sapdırma üsullarından biridir. Quranda şeytanın insanları cəhənnəmə sürükləmək üçün hər cür üsulu istifadə edəcəyi belə bildirilmişdir:

> *Allah (şeytana) lənət etdi. O isə dedi: "Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam. Mən onları mütləq (doğru yoldan) azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır. (Şeytan) onlara vədlər verir və onları xülyalara salır. Lakin şeytanın onlara verdiyi vədlər aldatmaqdan başqa bir şey deyildir.*
>
> **(Nisa surəsi, 118-120)**





Şeytan verdiyi vəsvəsələrlə romantik insanları asanlıqla istiqamətləndirər. Onları ümidsizliyə aparar və çarəsizliyə salar.

Allahın bu ayələrini bilərək şeytanın vəsvəsələrindən üz çevirən, buna görə duyğularının təsirinə qapılmadan ağlını istifadə edən bir kimsə həqiqətləri dəqiq və aydın görər, ona görə davranar. Duyğusal, ağlı örtülmüş bir kimsənin içindən çıxa bilmədiyi, çox kompleks, ziddiyyətli, açıqlanması mümkün olmayan kimi gördüyü mövzular, ağıllı bir möminin gözündə son dərəcə asan, açıq, dəqiq və sadədir. Duyğusal insanlar ağıllarını bir kənara qoymuş, özlərini şeytanın sehrinə və iradəsinə təslim etmiş bir şəkildə şirkin qaranlığı və bataqlığı içində əbədi əzablarına doğru sürüklənərlər.

Romantiklik maddi və mənəvi bir çox təxribata səbəb olar

Aparıcı: Bir tamaşaçımız sual verib; "Bu gün yeni bir saytınızı gördüm adı http://www.duygusalliktehlikesi.com. Bir çox kino filmində ya da seriallarda romantik olmaq, ağlayıb hüznlü gəzmək yaxşı bir şey kimi göstərilir. Mən də saytınızdakı məlumatları oxuyana qədər elə düşünürdüm, ancaq indi həyata baxışım dəyişdi. Romantikliyin şeytanın silahı olduğunu hətta romantizmin fiziki təxribatlara gətirib çıxardığını oxudum. Romantiklik niyə bu qədər təhlükəlidir? Bu mövzunu ətrafımda bir çox insanın da öyrənməsini istəyirəm, təsirli olması üçün necə izah etməliyəm? Mənə kömək edərsiniz?"

Adnan Oktar: Romantik olan, romantikliyin təsirində davamlı kədərli və hüznlü olan bir insan kədər və hüznün xərçəng xəstəliyi kimi təsir etdiyini də bilməsi lazımdır. Yəni bədən toxumaları üçün, bədən hüceyrələri üçün kədər xərçəng xəstəliyi kimidir. Saçları tökülər, bədənində şişlər çıxar, sümüyü əriyər, yəni onurğa pozulmaları başlayar. Məsələn, onurğa yırtıqlarının çoxu kədərdəndir, insanlar onu ağır işdən olduğunu zənn edirlər, halbuki sinir pozuqluğundandır. Məsələn, boyun yırtığı meydana gəlir, onurğa yırtığı meydana gəlir, şiddətli gərginlikdən olar. İstəsəz bunu gedib həkimlərə də soruşa bilərlər. Məsələn, qan azlığı

edər, yaddaş pozuqluğu edər, diqqət pozuqluğu edər, xoraya səbəb olar, mədə xorasına səbəb olar və bir çox narahatlıqlara səbəb olar. Məsələn reflyuks, başqa bir çox xəstəliyin səbəbi budur, bədən müqaviməti azalar məsələn, dodaq uçuqları yaranar və bir çox xəstəliklər başlayar. Bu görünəndir, görünməyən mənəvi təxribatı daha çoxdur. Allah bizi xoşbəxt, sevinc içində olmamız üçün yaratdı. Bizi Allah əzab çəksinlər deyə yaratmadı. "...sizə əzab vermək Allahın nəyinə gərəkdir?.." (Nisa surəsi, 147) deyir Allah, şeytandan Allaha sığınaram. İnsanın özünə etdiyi zülmü heç kim, başqası etməz, bu atalar sözüdür eyni zamanda. Cənabı Allah deyir ki; "Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər." (Yunis surəsi, 44)

Adnan Oktar: Ayə var. Yəni insanın özünə etdiyi əzab çox şiddətlidir, Allaha təvəkkül, Allaha güvənmək, Allaha özünü tamamilə buraxmaq bütün narahatlıqların ortadan qalxmasıdır. Həm ibadətdir, həm də Allahın razılığına ən uyğun rəftardır, əksini etmək zatən şirkdir, bir şeyi mən edirəm desə şirkdir bu. Hər şeyi Allah meydana gətirər, Allah nə meydana gətirsə gətirsin hamısında xeyir görmək, hamısında gözəllik görmək. Məsələn mən gedərkən ayağım ilişər bir yerə, xeyir vardır mənim bir az gecikməmə səbəb olar o, həm düşünməmə səbəb olar amma o gecikmədə də bir xeyir vardır. Hər şeydə xeyir görmək, bərəkət səbəbidir və gözəllik səbəbidir. Hər şeydə xeyir görənin dünyası da axirəti də gözəl və xoşbəxt olar. Hər şeydə şər görmək, şeytanından Allaha sığınaram "hər səs-küyü əleyhlərinə zənn edərlər" deyir Allah ayədə; bu bir münafiq əlamətidir, yəni bir müsəlmanın edəcəyi bir şey deyil. Hər şeydən şübhələnər, bir avtomobil keçər bizim əleyhimizədir bu? Məsələn bir içəcək gəlir, bir şey olar ondan şübhələnər, biri bir şey söyləyər görəsən bir şeymi eyham etdi? Biri məsələn normal təbəssüm edər, gülər bir şeyəmi gülür? Və bunu özünə dərd edər. Hətta mən belə hadisələr görürəm, axşama qədər onu düşünür. Yəni, niyə belə oldu. Dərd yoxsa da

özünə dərd çıxardır. Halbuki dərd varsa belə dərddən sevinc və xeyr çıxartmaq lazım. Onun hikmət istiqamətlərini, gözəl istiqamətlərini görmək lazımdır. Çünki sonsuz gözəlliyi yaradan Allah, bir şey yaradırsa onu mütləq hikmət və xeyirlə yaradar və imtahan üçün yaradar. Hər şeydə şər görən bir insanın dünyası da axirəti də pərişanlıqla nəticələnər, Allah əsirgəsin. (Kanal 67, 9 mart 2009)

# Romantizmin növləri

Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar. Əgər başına gələn müsibətdən sonra, ona firavanlıq daddırsaq: "Bəlalar məndən sovuşdu!"– deyər və sevinib lovğalıq edər. Səbr edib yaxşı işlər görənlər istisnadır. Məhz onlar üçün bağışlanma və böyük bir mükafat vardır. (Hud surəsi, 9-11)

Ağlın bağlanmasına səbəb olan duyğusallıq insanı şeytanın bütün təlqinlərinə qarşı açıq hala gətirər. Şeytan duyğusallıq silahı ilə dindən uzaq yaşayan insanları və cəmiyyətləri dilədiyi şəkildə istiqamətləndirərək hər cür azğınlığa sürükləyə bilər. Bunun bəzi nümunələrini kitabın ilk hissələrində araşdırdıq, romantik milliyyətçilik, kommunizm kimi ideologiyaların insanları və cəmiyyətləri duyğusallığı istifadə edərək necə həlaka sürüklədiyini gördük.

Gündəlik həyatımızda isə romantiklik müxtəlif formalarda özünü göstərir. Sonrakı səhifələrdə romantikliyin bəzi növlərini başlıqlar altında araşdıracağıq.

Kədər və pessimizm

İnsan gözəlliklərdən zövq alacaq, sevinc, rahatlıq içində yaşamaq istəyi duyacaq şəkildə yaradılmışdır. Bu baxımdan bir insanın qarşısına çıxan çətinlikləri ən qısa zamanda ortadan qaldırmaq, ya da bunları gözəlliklərə, sevinc vəsiləsinə çevirmək istəməsi ən təbii səyi olacaq. Şübhəsiz hüzur, güvən duymaq, şən, xoşbəxt, rahat olmaq, cismən və ruhən sağlam olmaq üçün son dərəcə əhəmiyyətli ünsürlərdir.

Ancaq insanlar Qurana görə deyil, öz ölçülərinə, istək və ehtiraslarına, duyğularına görə hərəkət etdikləri zaman kədər, çətinlik, qorxu onlara

hakim olar. Məsələn, Quranda təsvir edilən təvəkkül, tale, təslimiyyət anlayışına sahib olmayan kimsə sabah ona və yaxınlarının başına nə gələcəyini bilmədiyindən həmişə narahatlıq hissi keçirər.

Halbuki insan Allahın qulları üçün seçib bəyəndiyi dinini yaşadığı, Quran əxlaqına sahib olduğu təqdirdə bu çətinliklərin heç birinə düşməyəcək, bu problemlərin heç birini yaşamayacaq. Allah elçiləri vasitəsilə bildirdiyi bu həqiqəti ayələrdə belə xəbər verir:



Romantik insan gün ərzində hər detalı mənfi qiymətləndirib, olanlara görə kədərlənər, hirslənər, peşman olar və ya bunları çatışmazlıq olaraq düşünər.

...hər kəs Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar. Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq... (Taha surəsi, 123-124)

Ayədə deyildiyi kimi, bir çox insan isə Allahın zikrindən üz çevirdiyi üçün bədbəxt olar, sıxıntılı bir həyat tərzi keçirər. Bundan başqa, həyatın təsadüflərdən ibarət olduğuna inandığı üçün gələcəkdə gözəl nəticələr ola biləcək şeyləri də bir tərslik, çatışmamazlıq olaraq görər, bunların da sıxıntısını çəkər. İşdən çıxarılmaq, pulsuz qalmaq, aldadılmaq, xəstələnmək, ya da təltif edilməyi gözləyərkən lağ olunmaqla, sədaqət gözləyərkən nankorluqla əvəz görmək kimi qorxuları isə həmişə zehnini

məşğul edər. Hər an kədərli xəbər almağın, xoşuna gəlməyəcək bir rəftar, ya da sözlə qarşılaşmağın təlaşını keçirər. Ən rahat, xoşbəxt anında belə yaşadığı bu anı daimi edə bilməməyin narahatlığını keçirərək kabus dolu bir həyat yaşayar. Bir ayədə Allah Qurandan uzaqlaşaraq bir ruh halı içinə girən insanların vəziyyətini belə açıqlayır:

> *Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə rəzalətə salar.*
>
> **(Ənam surəsi, 125)**

Dindən uzaq həyat tərzi keçirən insanlar sevgi, şəfqət, mərhəmət, fədakarlıq, qardaşlıq, təvazökarlıq kimi Qurandakı gözəl əxlaq xüsusiyyətlərinə sahib olmayan insanlarla birlikdə olduqları üçün də təbii olaraq etibarsızlıq və narahatlıq içində olarlar. Heç kimin heç kimə qarşılıqsız kömək etmədiyi, qazanc əlaqələrinə əsaslanan dostluqların yaşandığı, səhvlərin qəzəblə qarşılandığı, hər kəsin bir-birinin haqqını yediyi, arxasından dedi-qodu etdiyi, səmimi fikirlərini söyləmədiyi süni, əzab verən bir sistemin içində yaşamaq duyğusal bir kimsə üçün bədbəxtlik səbəbidir.

Ancaq bu insanlar düşüncələrinə görə gözəl bir mühitdə olsalar da, dəyişən bir şey olmaz. Ətrafında baş verən saysız müsbət mövzu olsa da, duyğusal insanlar bu mövzulara həmişə mənfi cəhətdən yaxınlaşarlar. Havanın isti və ya soyuq olması, yağışlı və ya küləkli olması, qısacası hər şeyə mənfi baxdıqlarından bu, onlar üçün bir çətinliyə çevrilər. Bir çox nümunələr verə biləcəyimiz bu hallarının gün boyunca davam etməsi Allahın " Qoy onlar etdikləri (günahların) cəzası olaraq az gülüb çox ağlasınlar." (Tövbə surəsi, 82) ayəsinin bir təcəllisidir. Bir başqa ayədə Allah inkarçıların bu reaksiyalarını belə bildirir:

Ona bir pislik toxunduqda özündən çıxır. (Məaric surəsi, 20)

İman etməyənlərin bədbəxt olmalarının başqa bir səbəbi isə planladıqları işin gözlədikləri kimi getməməsidir. Məsələn, duyğusal bir adam yoldaşını razı etmək üçün bir yemək bişirir, istədiyi nəticəni görməyəndə kədərlənir; pul yığıb yoldaşına bir hədiyyə alır, kifayət qədər sevindirə bilmədiyini düşünərək yenə kədərlənir; bir ev alır, rəngsaz yaxşı rəngləməyib deyə məyus olur. Məyus olmasının səbəblərinin isə sayı-hesabı olmaz. Pərəstişi olduğu futbol komandasının məğlub olması, imtahandan gözlədiyi qiyməti almamağı, işinə gecikməsi, nəqliyyatın tıxanması, eynəyinin qırılması, saatını itirməsi, qonaqlıqda ən sevdiyi paltarının ləkələnməsi və s. hər şey onun məyusluğuna səbəb olar.

Hadisələrə səthi şəkildə duyğusal bir yanaşma ilə reaksiya verən bir insan özü ilə əlaqədar və ya ətrafında baş verən hadisələrin sonrakı mərhələdə özü üçün nə kimi xeyir ola biləcəyini ağlına gətirməz. Halbuki avtobusa gecikdiyi üçün dərhal kədərlənən bir insan avtobusun bir az sonra qəza etməyəcəyini haradan bilər? Bəlkə də Allah ona başına gələcək belə bir qəzaya mane olaraq taleyində avtobusa gecikməsini vəsilə etmişdir. Ya da hər gün qarşısından keçdiyi və çox yaxşı bildiyi bir döngəni ötürərək yanlış bir yola girən biri hadisələri öz səthi dünyagörüşü ilə qiymətləndirdiyində özünə əsəbiləşərək, yolunu uzatdığı üçün hövsələsi pozulacaq. Halbuki onu yola döndərməmiş olan Allahdır, hər hadisə kimi bu da taledir.

Məsələn, çox istədiyi bir işə götürülməməsi qafil bir kimsə üçün böyük bir tərslik və bir kədər səbəbidir. Bu yanaşmadakı bir kimsə işə girməsinin özü üçün çox yaxşı olacağına əmindir. Əksini isə çox böyük bir itki kimi görür. Halbuki imanlı bir kimsə Allahı dostu, vəlisi olaraq bildiyindən Allahın onun üçün təqdir etdiyi nəticəni təslimiyyətlə, sevinclə, şövqlə qarşılayacaq. Bəlkə bu iş mühiti sağlamlığına pis təsir

edəcək bir mühitdir, bəlkə daha yaxşı bir fürsət əldə etməsi üçün bu işə girməməyi lazımdır.

Ya da səhər avtomobilinə mindiyində avtomobilinin işə düşmədiyini görən bir kimsə qafil davranaraq bunu bir çatışmamazlıq kimi düşünə bilər. Ancaq əslində avtomobil Allah dilədiyi üçün işə düşmür və Allah avtomobilin işə düşməməsində xeyir görür. Bundan əlavə, insan bu hadisədəki hikməti görməyə bilər, ancaq hikmətini bilsə də, bilməsə də Allahdan razı olmalıdır.

İnsanlar istəmədikləri şəkildə baş verən hadisələrə çatışmamazlıq deyərlər. İnsan "çatışmamazlıq" zənn edər, halbuki ən doğrusu taledə hadisənin o şəkildə olmasıdır. Gün ərzində insanları üzən, rahatlığını pozan, hirsləndirən, sıxan, çatışmamazlıq, tərslik dedikləri hadisələrin hikmət və xeyirlərini Allah göstərsə onların kədərlənməsinin nə qədər səhv olduğunu anlayacaq və əksinə sevinəcəklər. Tale insana tam göstərilsə, ya da çatışmamazlıq kimi görünən hadisələri taledə görsə, olanlar üçün heç vaxt kədərlənməyəcəklər.

Bu baxımdan ən ağıllı rəftar Allaha təslim olaraq yaşamaqdır. İnsan dərk etsə də, etməsə də, qəbul etsə də, etməsə də Allaha təslimdir. Ancaq bunu dərk edərək yaşamaq əhəmiyyətlidir. Bu şüura sahib olan möminlər rahatlıq və güvəndə Allahın onlar üçün təyin etdiyi taleni yaşayarlar.

İnsanların çoxu doğum, ölüm, əcəl, ruzi kimi mövzulardan başqa şeylərin taledə olmadığını, tərslikdən, tədbirsizlikdən meydana gəldiyini, dolayısı ilə də tale ilə əlaqəli olmadığını fikirləşirlər. Halbuki bu yanılma onları taledə təsbit edilmiş hadisələrə qarşı üsyan etdirər, onların qüssələnmələrinə səbəb olar. Bütün hadisələri əleyhinə qiymətləndirmələri də onlara bir əzab yaşadar. Bunun nəticəsi olaraq duyğusal insanların şən halları da çox qısa və bir anlıq olar. Bir şeyə çox

sevindikdən qısa müddət sonra ağıllarına kədərlənəcəkləri bir şeyi gətirib təkrar pessimist ruh halına geri dönərlər.

Bütün bunlar dini yaşamamağın təbii və qaçınılmaz nəticələridir. İman olmadığında insan hüznə və ümidsizliyə məhkum olar. Belə ki, dünyada Allahın əmr və tövsiyələrini güdmədən ömürlərini məsuliyyətsizcə yaşayanlar axirətdə bu bədbəxt hallarını özləri təsdiq edəcəklər:

Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi və biz doğru yoldan azan bir camaat olduq. (Muminun Surəsi, 106)

Əlbəttə ki, Allah insanı bu dünyada bəzi çətinliklərlə sınaya bilər. Ancaq mömin Qurandan xəbərsiz insanlar kimi bu çətinliklər qarşısında hüznə və pessimizmə qapılmaz, duyğusallaşmaz. Çünki bilər ki, Allah onun bu çətinlik qarşısında necə davranacağını sınayır. Bunun həlli nə ağlamaq, nə kədərlənmək nə də heyfslənməkdir. Bunun həlli "yalvardığı zaman ona cavab verən, şəri sovuşduran" (Nəml surəsi, 62) Allahdan kömək istəməsi, yalnız Ona güvənməsidir və Allahın duasına cavab verəcəyindən əmin olmasıdır. Allah mömin qullarına Quranda belə vəd etmişdir:

Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və (Allahdan) qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 62-64)

Allah çətinlik, sıxıntı kimi görünən anları da xüsusi olaraq bir çox hikmətlə yaradır. İman gözü ilə baxan Allahın yaratdığı hər şeydəki gözəllikləri, hikmətləri görərək şövqlənəcək, sevinci daha da artacaq. Bu səbəbdən insanın Allaha olan təslimiyyəti rahat, qənaətbəxş bir ruh halında olması səbəbindən də hüzur və güvən duyğusu içində yaşamasını təmin edəcək.

Duyğusallıq isə insanları bu təvəkkül halında tamamilə uzaqlaşdırmaqda, onları hadisələr qarşısında şişirdilmiş sevinclərə və ya şişirdilmiş kədər və qüssələrə sürükləməkdədir. Allah ümidsizlik və özündən razılıq arasında qalan bu insanların vəziyyətini və möminlərin bunlardan fərqini Quranda belə təsvir edir:

Əgər insana Özümüzdən bir mərhəmət daddırsaq, sonra da ondan onu geri alsaq, o, naümid və nankor olar. Əgər başına gələn müsibətdən sonra, ona firavanlıq daddırsaq: “Bəlalar məndən sovuşdu!”– deyər və sevinib lovğalıq edər. Səbr edib yaxşı işlər görənlər istisnadır. Məhz onlar üçün bağışlanma və böyük bir mükafat vardır. (Hud surəsi, 9-11)

Qəzəb və əsəbilik





Asanlıqla hiddətlənmək, hirsinə hakim ola bilməmək, qışqırıb çağırmaq, özünə ya da başqalarına zərər vermək, insanın ağılı ilə deyil də duyğuları ilə hərəkət etdiyinin göstəricisidir.

Duyğusallıq qadınlarda daha çox hüzn, pessimizm, ağlama, şikayətlənmə şəklində özünü büruzə verərkən, kişilərdə də əksər halda qəzəb, əsəbilik, aqressivlik şəklində özünü göstərir. Məsələn, duyğusal bir kişi avtoparkda ona ayrılmış yerdə başqasının avtomobilini görüncə qışqırıb çığıraraq avtomobili təpikləyər. Ya da yolda gedərkən bir kimsənin səhvən çiyninə toxunması asanlıqla onun hiddətlənməsinə gətirib çıxarar. Və ya evdən çıxarkən açarı evdə unudan uşağına, telefonda onu gözlədən katibəyə, nəqliyyatdakı maşınlara əsəbiləşib ağzına gələni deyə bilər. Ağıllı bir insanın asanlıqla həll edə biləcəyi problemlər, hətta ağlına belə gətirməyəcəyi yüzlərlə detal qarşısında duyğusal insan şişirdilmiş və lüzumsuz reaksiyalar verər. Çox vaxt da ona zərər verərək gözdən salar.

Kişilərdə qəzəb və əsəbilik şəklində yaşanan duyğusallıq "cavanlıq mədəniyyəti" adı verilən ruh halını daşıyan müəyyən bir sosial qrupu meydana gətirir. Bu mədəniyyəti özündə əks etdirən qrupda qəzəb,

romantizm zehniyyətinin qarışığı olan romantikliyin bir növü hakimdir. Bu insanlar əsasən qeyri-stabil, hər an, hər cür aqressiv davranış göstərən quruluşa malikdir. Bir anlıq əsəb nəticəsində qarşısındakını yaralaya və ya öldürə bilərlər. Bəzən qarşısındakı insan heç tanımadığı bir insan ola bilər. Qəzetlərin üçüncü səhifələri bu kimi insanların etdikləri hadisələr və işlədikləri cinayətlərlə doludur. Şən başlayan bir axşamın sonunda birdən əsəbiləşib yoldaşlarını, yaxınlarını döyə bilər, küçədə gedərkən ona “tərs baxdığı” üçün tanımadıqları bir insanı bıçaqlaya bilərlər. Bir an üçün azğın, eqoist duyğularına tabe olmaları, həyatının geri qalan hissəsini həbsdə keçirmələrinə yol aça bilər. Daha da əhəmiyyətlisi, Allah Qatında haqsız yerə bir insanı öldürdüyü üçün böyük günah işləmiş olarlar.

Əsəbi duyğusallıq son dərəcə dəhşətli nəticələr doğura bilən, hər an partlamağa hazır potensial bir təhlükədir. Duyğusal bir insan nəqliyyatda ona qarşı edilən yanlış bir hərəkət, ya da tanımadığı birinin narahatedici baxışı və ya çox adi bir səhvə görə hirslənib başına müxtəlif dərd və bəlalar aça bilər.

Xüsusilə xarici ölkələrdə rast gəlinən bəzi fanatiklərin göstərdikləri vəhşiliklər də fanatikliyin verdiyi duyğusallığın yol aça biləcəyi ağılsızlıq ölçüsünə bir nümunədir. Bıçaq və çubuqlarla silahlanaraq heç tanımadıqları insanlara hücum edən və öldürənə qədər döyən insanlar şeytanın duyğusallıq silahı ilə ağıl və şüurlarını korlaşdırdığı və cəmiyyətə təlqin etdiyi bir bəla halına gəlmişlər. Halbuki Allah insanlara şeytandan çəkinməyi, savaş və qəzəbi deyil, sülh və təhlükəsizliyi axtarmağı əmr etmişdir:



Zaman qəzeti, 15.01.2001 Posta qəzeti, 09.10.1999 Hürriyet qəzeti, 01.08.1999 Qəzetlərin üçüncü səhifələrini açdığınızda, ümumiyyətlə ani bir qəzəb və romantikliklə hərəkət edən insanların elədikləri hadisələr və işlədikləri cinayətlərlə qarşılaşarsınız. Şən başlayan bir axşamın sonunda birdən əsəbiləşib yoldaşlarını, yaxınlarını döyənlər, küçədə gedərkən onlara "yan baxdığı" üçün tanımadıqları bir insanı bıçaqlayanlar, birjada itirdiyi pullara görə ailəsini öldürənlər, onunla lağ etdiyi üçün birdən əsəbiləşib yoldaşlarını öldürənlər... Bu insanların bir an üçün azğın eqoist duyğularına tabe olmaları, həyatlarının geri qalan hissəsini həbsdə keçirmələrinə, daha da əhəmiyyətlisi, insanları öldürmə kimi böyük bir günah işləmələrinə səbəb ola bilməkdədir. Məhz bütün bunlar, şeytanın insanları ağıldan uzaqlaşdırıb nəfsin istək və ehtirasları ilə hərəkət etməyə yönəltməsi, ani duyğu parlamalarına sürüməsi ilə reallaşmaqdadır.

> *Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin və şeytanın addım izləri ilə getməyin. Şübhəsiz ki, o sizə açıq-aydın düşməndir.*
>
> **(Bəqərə surəsi, 208)**

Burada yenə duyğusallıqla ağıl arasındakı fərqi ayırd etmək lazımdır. Zülmə və pisliyə duyulan qəzəb və nifrət insanı ədalət, sülh və yaxşılıq mövzusunda daha çox həssas olmağa, zülmü və pisliyi ortadan qaldırmağa, zalımlara mane olmağa, günahsız və acizlərin haqlarını

qorumağa yönəldər. Allahın insanlara verdiyi bu ədalət duyğusu ağıl və iradə ilə istiqamətləndirməlidir. Ağıl və iradədən məhrum insanlar iradə göstərib duyğularını tənzimləməzlər və doğru yoldan azaraq şeytanın istədiyi istiqamətə yönələrlər. Allah bir başqa ayəsində insanları şeytana qarşı belə xəbərdar etmişdir:





İdman müsabiqələri və xüsusilə də futbol qarşılaşmaları bir çox insanın romantikliyə qapıldığı anlardır. Belə vəziyyətdə bu insanları tamamilə duyğuları yönləndirər. Rahatlıqla hirslənib təcavüzkarlaşa bilər ya da romantikləşib ağlaya bilərlər. Çox vaxt hərəkətləri idarədən çıxdığı üçün bir-birlərinə zərər verə bilərlər.

> *Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, (bilsin ki,) o (şeytan) iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah dilədiyini təmizə çıxardır. Allah Eşidəndir, Biləndir.*
>
> **(Nur surəsi, 21)**

## Təvəkküllü insanda qəzəb və kin olmaz

Aparıcı: Bir tamaşaçımız soruşmuş; “Mən tez hirslənən bir insanam, əhəmiyyətli mövzularda səhv görəndə ya da insanların zəif davrandıqlarını gördüyümdə tez əsəbiləşə bilirəm. Allah bağışlasın,

nəfsimi bu istiqamətdə tərbiyə etməyə çalışıram, mən bu mövzuda nələr etməliyəm? Hörmətlər."

Adnan Oktar: Bu təbii ki, hər kəsin problemidir, yəni cəmiyyətdə ümumi bir problemdir, qardaşımıza xas bir şey deyil. Əvvəlcə bunu etməlisən; özünün harada olduğunu görəcəksən. Mənə inanın, bu qədər balaca yerdə yaşayırıq, beynin içində. Bu qədər yerdə yaşayırıq və oraya gələn elektrik cərəyanını, o əsəbiləşdiyi insanlar, və s. hamısı elektrik cərəyanı olaraq Allah beyninə gətirir, orada onu görür. Yəni film seyr edərkən pis rolda olan kovboya bəzən əsəbiləşən insanlar olur, eyni onun vəziyyətinə düşürsən. O necə gülməlidirsə, orada kovboya əsəbiləşən insan deyil?... Təbii ki, belə hadisələr çoxdur. Öncəliklə acizliyini biləcək... Bir dəfə çox qısa yaşayacağıq, yəni məsələn 20 yaşında bir gənc qız, iki 10 il sonra 40 yaşında xala olar. Bir iki 30 il sonra da 60 yaşında nənə olar. Yəni dörd 10 il o qədər, 10 illər də 1 il kimi keçir... Belə bir dünyada Allahın yaratdığı aciz qullara hirslənmək olmaz. Bir də belə düşünəcək, onsuz da həmin insan 100 il geriyə aparılsa, özü də 100 il geriyə aparılsa, yenidən taleyi yaşamağa başlasa, yenə eyni hadisə olar. Bir daha edəcək onu, yəni heç bir şəkildə bir dəyişiklik olmaz. Mütləq xeyir vardır. Müsəlmanda xeyir olmayan heç bir hadisə olmaz, amma imansıza da hər şey şərdir. İçdiyi su şər olar, atdığı addımı şər olar, danışması şər olar, həmişə şər içindədir. Mömində də həmişə xeyir vardır, həmişə tolerant və gülərüzlü olmaq lazımdır, hadisələrə səmimi baxmaq lazım, bir də öyrətmək lazımdır. Amma təbii ki, həmişə problem çıxaran insana qarşı da Cənabı Allah "əgər söz dinləyəcəklərsə öyüd ver" deyir. Yəni çox sərt isə, qəbul etmirsə, artıq ona öyüd olmaz, o zaman Allah üz çevirin deyir.

Aparıcı: Mən də bir anda reaksiya verə bilən bir insanam əslində, bir anda hirslənə bilən insanam.

Adnan Oktar: O zaman ediləcək şey budur. Əgər razı sala bilirsə tolerant olmaq lazım, uzun-uzandı izah etmək lazımdır. Amma heç cürə olmursa, ya o mövzulara girməmək lazım, ya da üz çevirmək lazımdır. Yəni Quranın bizə əmr etdiyi budur. Ani hirs çox təhlükəlidir. Məsələn, Allah əsirgəsin, bir anlıq təzyiqi qalxa bilər. Yaşlılarda xüsusilə çox təhlükəli olar. Çox ölüm hadisəsi olur, məsələn bir anlıq beyin qanamalarına səbəb ola bilər. Hətta Allah deyər, bax "hirsinizlə çatlayıb ölün" deyir Allah, küfr əhli üçün. Hirsinizlə. Çünki hirs öldürücüdür, Quran ona diqqət çəkir. Çox təhlükəli olar, bir tək beyin qanaması deyil, ürək infarktı da keçirə bilər və ya böyrək infarktı da keçirə bilər, daha da zərər ola bilər. Damar trombuna səbəb ola bilər. Məsələn tac damarlarının tutulmasına səbəb ola bilər. Amma hamısından əhəmiyyətlisi təvəkkülsüzlük haramdır. Ona çox diqqət yetirmək lazım, yəni əslində bu o qədər çətin bir şey deyil. Yaxşı bir təhsillə, səmimi yoldaş tərəfindən dostca rəftarla yatışa bilər. Amma belə xroniki xəstədirsə, ağıl xəstəliyi tərzində adamlardan uzaq dayanmaq lazımdır. Yəni onları düzəldəcəyəm deyə, ömür boyu düzəldə bilməz. Tək həll yolu onlardan uzaq durmaqdır. (Kocaeli TV, 28 fevral 2009)

Şeytani mərhəmət duyğusu

Şeytanın vəsvəsələrinə uyan insanlar Allahın gözəllik olaraq verdiyi mərhəmət duyğusunu da bəzən azdıraraq tamamilə səhv istiqamətlərə yönəldə bilərlər. Allahın hökmləri ilə ziddiyyət təşkil edən mərhəmət anlayışı şeytani mərhəmətdir. Duyğusal insanlar rəhbər olaraq Quranı deyil, duyğularını əsas götürdükləri üçün şəfqət və mərhəmət duyğuları da yanlış şəkildə istiqamətlənər.

Məsələn, bir insan kiçik uşaqların, günahsız sevimli heyvanların ölümlərindən, insanların dərdlərindən kədərlənər. Ancaq burada şeytani mərhəmət dövrəyə girər və qarşılaşdığı hadisələr onu Allaha qarşı üsyana və şirk qoşmağa aparar. Halbuki bu cür bir təlqindən ağlını istifadə edib

xilas olan insan reallığı təmiz və aydın bir şəkildə görəcək. Ölüm mömin üçün bir zülm, əziyyət və əzab olmadığı kimi, bir qurtuluş və sonsuz gözəl bir həyata atılan addımdır. Allahın qullarını öz Qatına aldığı bir qapıdır. Şeytan və onun dostları baxımından isə ölüm dünyadakı azğınlıqlarının, nəfslərinin, sərhədsiz ehtiraslarının sona çatdığı və özlərinə vəd edilən əbədi əzab qapısının açıldığı andır. Buna görə şeytan ölümü çirkin bir pislik olaraq görür və elə də göstərməyə çalışır. Bu cür qiymətləndirmə onun prizmasından doğrudur, lakin günahsızlara və möminlərə aid deyil. Cəhənnəmə gedəcək biri baxımından ölüm həqiqətən pis bir hadisədir, cənnətə gedəcək üçün isə sevindiricidir.

Şeytani mərhəmət, eyni zamanda, insanı qarşı tərəfə fayda deyil, tam əksinə zərər verəcək bir mərhəmət göstərməyə yönəldər. Dindən uzaq cəmiyyətlərdə insanlar qarşılarındakı insanın axirətdə zərərə uğrayıb-uğramayacağını düşünmədən hər şeyi etmələrinə göz yumarlar. Məsələn, pis bir əxlaq göstərməsinə izn verər, Allahın haram etdiyi bir hərəkətin edilməsinə səs çıxarmaz, hətta bu mövzuda kömək edərlər. Məsələn, oruc tuta biləcək yaşa gəlmiş olan uşağının "aç qalmasına dözə bilmədiyi üçün" oruc tutmasına icazə verməyən ana-ata, ya da əlində olduğu halda "oyandırmağa qıya bilmədiyi üçün" yaxınındakı insanı sübh namazına qaldırmayan bir kimsə əslində şeytani bir mərhəmətə malikdir.

Möminlərin bu mövzudakı ölçüləri isə göstəriləcək mərhəmətin qarşı tərəfin axirətinə mütləq müsbət istiqamətdə təsir etməsidir. Bəzən bir möminə olan sevgiləri və mərhəmətləri onlara qarşı bəzi tədbirlər almağı, ya da tənqid etməyi tələb edə bilər. Qarşılarındakı insanın etdiyi pis rəftarda onu tənqid edə bilər, olduğu vəziyyətdən daşındıracaq söhbətlər edə bilər, Quranın bir əmri olaraq pislikdən uzaqlaşdıra bilərlər. Əsl mərhəmət də budur. Çünki möminlər qarşılarındakı insanın nəfsinə ağır gələcək bir söz söyləyərək, onun Quran əxlaqından uzaq hərəkətinə mane olmaqla, o insanın sonsuz həyatını cəhənnəm kimi geri dönüşü olmayan

bir əzab içində keçirmələrinə razı olmazlar. Bu səbəblə də Allahın ən bəyənəcəyi və ən çox məmnun olacağı əxlaqı yaşaması istiqamətində təşviq edərək onu cənnətə hazırlayar və dolayısı ilə də ola biləcək ən üstün mərhəmət nümunəsini göstərərlər. Unutmamaq lazımdır ki, əsl mərhəmətsizlik qarşı tərəfin axirətini düşünmədən etdiyi səhvlərə bilə-bilə göz yummaqdır.

Şeytani mərhəmət özü ilə bərabər haqsızlıq və ədalətsizliyi də gətirər. Ağıl sahibi bir mömin hər vəziyyətdə ədalətlə və Allahın razılığına uyğun qərar verərkən, duyğusal insanlar şeytani mərhəmət hisslərinə və yazığı gəlmə duyğularına qapılaraq asanlıqla ədalətsiz davrana bilər, haqsızlıq edə bilərlər. Nəfslərinin, duyğularının, istək və ehtiraslarının göstərdiyi istiqamətdə hərəkət edərlər. Şahid olduqları bir hadisə qarşısında haqlı-haqsız bilmədən, ədalətli və ağıllı qiymətləndirmə etmədən və ən əhəmiyyətlisi Quranın hökmlərini güdmədən cahilcə kədər duyğusuna qapılar və bu düşüncə ilə hərəkət edərlər. Ümumiyyətlə, həm özlərinə, həm də qarşılarındakı insanlara zərər verəcək əməllər edər, yanlış istiqamətləndirər və səhv qərarlar verərlər. Bu səbəbdən də yaşadıqları mərhəmət Quranın əmr etdiyi gözəl əxlaqdan çox uzaq bir quruluş ortaya çıxarar.

Duyğusal insanların ən əhəmiyyətli xüsusiyyətlərindən biri də eqoist olmalarıdır. Bu cür insanların kənardan fədakarlıq kimi görünən rəftar və davranışları da əslində duyğularını təmin etmək üçün göstərdikləri davranışlardır. Bu səbəblə duyğusal bir insanın ədalətli davranmasını, haqq niyyətli olmasını gözləyə bilmərik. Romantik bir kimsə özünün, yaxınlarının və sevdiklərinin əleyhinə çıxmamaq üçün ədalətli olmaq yerinə birtərəfli və haqsız hökm edər. Hətta ona müraciət edilən bir mövzuda həqiqətləri əks etdirməyən şahidlik etməsi, yaxını olduğu üçün edilən yanlış bir hərəkəti gizlətməsi də mümkündür.

Halbuki ədalətli davranmaq möminin ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Belə ki, Allah Quranda hər şəraitdə özü, yaxınları ya da düşməni bildiyi biri olsa belə, ədalətlə davranmağı əmr edir:

> *Ey iman gətirənlər! (Şahidliyiniz) özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. (Əleyhinə şahidlik edəcəyiniz şəxslərin) varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz (cəfəngiyat) danışsanız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Nisa surəsi, 135)**

Bir başqa ayədə Allah insanları "ədalətli şahidlər" olmağa dəvət edir:

Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin.... (Maidə surəsi, 8)

Ancaq duyğusal bir insanın ayələrdəki bu əmrləri tam yerinə yetirməsi mümkün deyil. Çünki belə bir insan dərin bir eqoizmə sahib olduğundan hadisələri qiymətləndirmə şəkli, şərhləri də həmişə birtərəfli olar. Məsələn, başda özü olmaqla yaxınları, sevdikləri, ya da simpatiyası olduğu insanlara üstünlük verər, edilən çirkin rəftara, hətta cinayət hallarına qarşı da göz yuma bilər.

Minnətdarlıq duyğusu

İnsandakı duyğulardan biri də minnətdarlıq, başqa sözlə desək, "təşəkkür" duyğusudur. İnsan istər doğuşdan, istərsə də həyatının hər anında həmişə bir nemət axını ilə qarşı-qarşıyadır. Ona gələn nemətlər daha çox səbəblər vasitəsi ilə olduğu üçün insan təşəkkür duyğularını bu

səbəblərə yönləndirməyə meyllidir. Halbuki bu duyğunun da həqiqi mənada yönəldilməsi lazım olan tək varlığın Allah olduğu Quranda dəfələrlə bildirilmişdir. Quranda bu minnətdarlıq "şükür etmək" olaraq bildirilir. Şükür etmək - vasitəçilər kim, ya da nə olursa-olsun, bütün nemətləri göndərənin yalnız Allah olduğunun və hər mövzuda yalnız Ona möhtac olduğunu dərk edərək, Ona qarşı təşəkkür və minnətdarlığını ürəkdən və sözlü bildirməkdir.

Yalnız Allaha şükür etmək, yalnız Ona minnətdar olmaq qulluğun bir göstəricisi olaraq ayədə ifadə edilmişdir:

Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Ona şükür edin! (Bəqərə surəsi, 172)

Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin. (Nəhl surəsi, 114)

Ayələrdə Allaha şükür etmək, başqa ilahlar qəbul etmədən, yəni şirk qoşmadan qulluq etməyin şərti və göstəricisi olaraq ifadə edilir. Həqiqətən də, yalnız Allaha şükür edən bir kimsənin bütün nemətlərin Allahdan gəldiyini, hər şeyin Onun əlində, Onun idarəsində olduğunu, yəni Allahdan başqa ilah olmadığını dərk etməsi mənasını verir. Bütün nemətlərin Allahdan gəldiyini dərk edən isə yeganə güc, qüvvət və söz sahibinin Allah olduğunu, Ondan başqa ilah olmadığını qəlbinə yerləşdirmiş imana sahib bir kimsə deməkdir. Quranda təsvir edilən və təriflənən insan modeli də budur.

Duyğusal insanlarda isə vəziyyət başqa cürdür. Bu insanlar sahib olduqları bütün nemətləri Allahın bunları yaradarkən vəsilə (vasitə) etdiyi maddələrə və şəxslərə bağlayar və onlardan mədət umarlar. Onlara borclu qalar, onlara şükür etməyə çalışarlar. Qısacası, Allahdan başqa güc və təsir sahibi sandıqları saysız saxta ilahlar qəbul edərlər. Ağıllarını istifadə

etmədikləri üçün bütün bu saxta ilahları da, onların etdiklərini də Allahın yaratdığını və Allahın diləməsi və əmri olmadan heç bir şey edə bilməyəcəklərini, heç bir şeyə güclərinin çatmayacağını görə bilməzlər.

Bu yanlış minnətdarlıq hissi duyğusal insanlarda acizliyə səbəb olar. Onlara minnət edənlər qarşısında (məsələn müdirləri, ailə başçıları, varlı qohumları kimi) özlərini aciz hiss edər, bunu hərəkət və sözləri ilə bildirərlər. Bir möminə əsla yaraşmayan bu rəftar, romantizmin insanlara verdiyi saysız çətinlikdən biridir.

Özünə qapanmaq





Allah iman gətirənlərin Himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 257)

Duyğusallıq bəzi insanlarda özünə qapanmaq- insanlarla ünsiyyət qura bilməmək şəklində büruzə verir. Bu cür duyğusallıqda olan adam yalnız öz dünyasında yaşayar, yalnız öz problemləri ilə maraqlanar və ətrafında olanlara qarşı laqeyd olar. Quranda əmr edilən güclü bir şəxsiyyətə sahib olmadığından xarici dünyada baş verənlərə qarşı iradə və güc göstərə bilməz, qarşısına çıxan problemlərin öhdəsindən gələ bilməz, daim aciz, çarəsiz və müvəffəqiyyətsiz bir quruluşa sahib olar. Təvəkkülü, Allaha güvənməyi, Allaha yönəlib Ondan kömək istəməyi düşünmədiyi üçün, özünü dünyada tək və qorumasız hiss edər. Buna görə öz içində yaratdığı xəyal dünyasının xaricinə çıxmaqdan qorxar.



Hürriyet qəzeti, 14.04.1996 Posta qəzeti, 26.06.2000 Sabah qəzeti, 04.08.1999 Milliyet qəzeti, 21.01.2001 Hürriyet qəzeti, 09.06.00





Romantik insanların, özünə qapanan, depressiyada və tək çözümləri dinə uyğun gəlməyən ruh halıdır. Allah insanları təvəkkülə və hüzura dəvət etməkdədir.



Gənclərin bəzən sevdikləri pop ulduzlarına duyduqları həddindən artıq heyranlığı düşünüb, depressiyalı ruh halına girmələri də romantikliyin bir növüdür. Bəzən bu romantiklik elə həddindən artıq davranışlara səbəb olar ki, konsertlərdə "huşunu itirən", özündən keçib xəstəxanaya aparılan gəncləri televiziya ekranlarında və qəzet səhifələrində görərik.

Duyğusallığın səbəb olduğu bu melanxolik hal bu tip insanları depressiyaya salar. Özünü insanlardan təcrid etmək, stress, mənəvi pozuqluq, əsəbi gərginlik keçirmək, yas tutmaq, depressiyaya düşmək, intihar düşüncələri duyğusal insanlar tərəfindən təbii qarşılanan rəftarlardır. Məsələn, yoldaşının etdiyi bir zarafatdan inciyən bir gənc qız bütün gecəni ağlayaraq keçirməyi, bütün axşam yoldaşının bu sözü üzərinə düşünməyi məqbul görə bilər. Bir başqası üçün isə saçının ağarması, fiziki qüsurunun olması depressiyaya düşməsinə kifayət edər. Gözü niyə başqa rəngdə deyil, boyu niyə bir az daha uzun deyil kimi onlarla, yüzlərlə sual zehnini məşğul edərək onun üçün problemə çevrilər. Bütün bunlar üçün də canı sıxılar, kədərlənər.

Bu cür insanlarda "düşünmək" adı altında qəmli şeirlər yazmaq, saatlarla divara baxaraq xəyal qurmaq, yağışda gəzmək, dərin iç çəkmək, uzaqlara dalmaq, birisinin çiyninə söykənib ağlamaq, gözləri dolaraq, səsi titrəyərək danışmaq kimi hərəkətlər tez-tez nəzərə çarpar. Bəziləri "fikir dağıtma" adı altında həddindən artıq içki və siqaret çəkər. Nəticədə bunların hamısı qaranlıq bir dünyaya aid daxili çətinliyə, narahatlığa, ruhən və cismən qeyri-sağlam həyat sürmələrinə səbəb olar. Hamısından əhəmiyyətlisi isə Allahın bəyənmədiyi bir əxlaqı yaşamış, Onun məmnun olmadığı həyatı mənimsəmiş olarlar.

Bu cür insanlar əlbəttə, ömürləri boyunca özlərini otağına bağlayıb yaşamazlar. Digər insanlarla birlikdə sosial həyatın içində də olar, amma şəxsiyyət pozuqluqlarını cəmiyyət içində də davam etdirərlər. Ümumiyyətlə, küsəyən və kövrək quruluşa sahibdirlər. Hər sözün onların əleyhinə olduğunu düşünər, heç nəzərdə tutulmayan mənaları özlərinə götürərlər. Tez-tez hər şeyi özlərinə aid edər, küsərlər. Adi bir hadisə qarşısında gözləri dolar, gizli-gizli ağladıqları belə olar.

Kişilərdəki romantik quruluş zamanla daha böyük azğınlığa, ruh sağlığında meydana gələn ciddi pozuqluqlara, "efemine (qadın kimi)" rəftar və hərəkətlərə, cinsi sapmalara, homoseksual meyllərə qədər irəliləyən ölçülərə vara bilər. Duyğusal insanlar daxili dünyalarında yaşadıqları azğın şəxsiyyətlərini mühitin və ətrafın vəziyyətinə görə gizli, ya da aşkar şəkildə edə bilərlər. Uyğun mühit və fürsət tapdıqlarında gizlətdikləri komplekslərini, azğınlıq, sərhəd tanımazlıq, heç bir əxlaq və dəyər mühakiməsi tanımama şəklində göstərə bilərlər. Məsələn duyğusal, qəmli, içinə qapanıq bir kimsənin bir gün birdən-birə azğın homoseksual olaraq ortaya çıxması dövrümüzdə cəmiyyətin alışdığı vəziyyətdir. Allah Quranda bu cinsi azğınlığın çirkin həyasızlıq olduğuna Hz. Lutun qövmü üçün bildirdiyi aşağıdakı ayələrlə diqqət çəkmişdir:

Lutu da (elçi göndərdik). Bir zaman o, öz qövmünə demişdi: “Sizdən əvvəl aləmlərdən heç kəsin etmədiyi iyrənc əməli sizmi edəcəksiniz? Siz, qadınları qoyub şəhvətlə kişilərin yanına gedirsiniz. Həqiqətən, siz, həddi aşmış adamlarsınız”. (Əraf surəsi, 80-81)

Şübhəsiz, bütün bu azğın hərəkətlər insanların Allahın yolundan azmalarının, istək və ehtiraslarına əsir olaraq şeytanın arxasından sürünmələrinin bir nəticəsidir. Allah insanları Quranda belə xəbərdar etmişdir:



Ağıl və məntiqdən uzaqlaşan insanlar artıq tamamilə duyğularının idarəsinə girərək, azğın bir həyat yaşamağa başlayarlar.

... şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir. O sizə pis və iyrənc işlər görməyi və Allaha qarşı bilmədiyiniz şeyləri söyləməyi əmr edir. (Bəqərə surəsi, 168-169)

Bura qədər saydığımız bütün duyğusallıq növləri ağılı tərk edib duyğularından asılı yaşayan hər kəsdə müəyyən dərəcədə mövcuddur. Ancaq şərtlərə və insanlara görə fərqli formalarda özünü göstərər. Məsələn, hirsli, əsəbi, qeyri-stabil bir kimsə özünə nə qədər sərt və əsəbi bir görünüş verməyə çalışsa da, əslində duyğusallığını və acizliyini əsəbilik örtüyü altında gizlədir. Belə bir kimsə gözlənilmədən bir anda ağlayıb-sızlamağa başlaya bilər, özünü hörmətdən salan vəziyyətlərə sala bilər. Qısacası, bir insan iman etmirsə və iman edənlərin sahib olduğu ağıla sahib deyilsə, bir ağıl və xarakter zəifliyi olan duyğusallığı daşıyar,

mühit və şərtlərə, qarşısına çıxan hadisələrə görə bu duyğusallığı müxtəlif qeyri-stabil və şəxsiyyət pozuqluqları şəklində göstərər.

Duyğusallıq ancaq iman edən, Allahdan qorxan və ağıllı davranan möminləri təsiri altına ala bilməz. Şeytanın ixlaslı möminlərə qarşı heç bir təsiri olmadığı üçün duyğusallıq silahını möminlərə qarşı istifadə edə bilməz. Allah hicr surəsinin 42-ci ayəsində şeytana “Şübhəsiz ki, qullarım üzərində sənin heç bir hökmün yoxdur...” buyurmuşdur. Buna görə möminlər imanlarından, Qurana bağlılıqlarından və ağıllı olmalarından qaynaqlanan möhkəm, güclü, stabil və iradəli şəxsiyyətə sahibdirlər.

Duyğusallığın cəmiyyətdə ən çox görünən, hətta ən ciddi növlərindən biri də romantik sevgi anlayışıdır. Romantik sevgi anlayışının insanlar arasında fərqli növləri yaşanır. Ailədaxili əlaqələrdən yoldaşlıq və dostluq əlaqələrinə qədər uzanan bu romantik sevgi anlayışının əlbəttə ki, ən çox yaşanan forması qadın-kişi əlaqələridir.

Romantik sevgi anlayışı romantikliyin bəlkə də ən məşhur və azğın növü olduğundan, bu mövzunu ayrı bir hissə olaraq təhlil edəcəyik.

Hər şeyə gözəl gözlə baxmağın əhəmiyyəti

Adnan Oktar: İnsanların dünyada ən çətin hesab etdikləri mövzulardan biri də vəsvəsədir. Gecə gündüz insana vəsvəsə gəlir. Sağlamlığı ilə əlaqədar gəlir, imanı ilə əlaqədar gəlir, digər insanlarla, digər hadisələrlə əlaqədar gəlir, gözəlliyi ilə əlaqədar gəlir. Bu çoxdur, məsələn qadınlar aynaya baxarlar, bir gün çirkin olduğuna qərara gələr, sabahısı gün gözəl olduğuna, günorta yenə çirkinləşdiyinə, bu gənclərdə, cavanlarda da vardır. Bir gün çox yaraşıqlı olduğunda belə, sabahısı gün başqa cür olduğuna... Bu insanların qarşılaşdığı acizlik ancaq cənnətdə sona çatır. Cənnətdə dayanar, amma insanların inkişafı üçün buna ehtiyac vardır, əgər vəsvəsələr olmasaydı beynimiz çox sabit olardı. Biz onunla mübarizə

edərək həm şəxsiyyətimizi inkişaf etdiririk, həm cənnətdəki xarakterimizin möhkəmlənməsini təmin edirik. Yəni çox güclü bir xarakterə doğru gedirik.

Adnan Oktar: Hətta ən sonunda mömin deyir ki, ayə var, Quran ayəsi “Ya rəbbim” deyir, “Sən məndən məmnun olaraq, mən də Səndən məmnun olmuş olaraq” deyir, qısaca deyirəm. Yəni iki tərəfin də Cənabı Allahın da, qulunun da məmnuniyyətini Cənabı Allah hədəfləyir, bunu deyir və hər ikisi meydana gəldikdən sonra saleh müsəlmanların yanına cənnətə gedəcəklərini Allah deyir. Vəsvəsə gəldiyində nə etmək lazımdır, vəsvəsəyə bir həll də budur, 10 il sonraya buraxsınlar. 10 il sonra o vəsvəsənin heç birisini xatırlaya bilməzlər, ağılına belə gəlməz, yəni o günün ən böyük dərdi olan problemi olan mövzu, 10 il sonra “nə idi” desələr, “nə idi xatırlayırsan?” desələr ağılına gəlməz.

Adnan Oktar: O gün yaşamaqdan bezir bəzən, Allah əsirgəsin, çox stress yaşayır. 10 il sonra xatırlatdığında “ya nə idi” deyir, “xatırlaya bilmirəm, çıxara bilmirəm” deyir, demək ki, bomboş bir şeymiş, ən gözəli davamlı Allaha sığınmaqdır, taleni unutmamaqdır və Allahın yaratdıqlarına qarşı şəfqətlə baxmaqdır. İnsanın ruhunda kin və intiqam duyğusu vardır. Nifrət duyğusu vardır, bunlar da çox güclü duyğulardır. Yəni necə insan şirniyyat bişdiyində canı çəkər, ət bişdiyində yemək istəyər. Kin və nifrəti də eyni şəkildə istəyər. Hirsi də istəyər. Yəni intiqam almağa, qırıb yıxmağı da istəyər.

Adnan Oktar: Amma Allah ayədə ifadə edir, Allah “zaluma və cehula” deyir, insan zalım və cahildir deyir, insanlar zülmə meyllidirlər. Təbii ki, müstəsna yaxşı insanlar da vardır, amma hər insan elə olmaz. Yəni kini peşə edər sanki, nifrəti məsələn, xüsusilə “iy verən” qadınlar belə olar, 50 yaş ətrafında olanlar, oksid sarı saçlı, mən həmişə təsvir edərəm, belə qartal dırnağı kimi dırnaqları olar. Pinti deyərlər, “iy verən”. Bunların

sevdiyi heç kim yoxdur, nə həyat yoldaşını sevər, nə oğlunu sevər, nə küçədəki kimsəni sevər. Dövlətə deyinər, bələdiyyəyə deyinər, ailəsinə deyinər, qonşularına deyinər. Yəni davamlı söz soxar, davamlı qışqırar, çağırar, nə desən söz qaytarar, elə kin və nifrətdən, iquanaya bənzəyirlər onlar.

Adnan Oktar: Allah əllərindən, üzlərindən belə nuru alıb, belə iki ayaqüstündə gəzən iquana kimi olurlar. Nifrət küpü, qəzəb küpü, bu eyni şəkildə kişilərdə də olur, nifrət dolu əlindən üzündən bəd niyyət axır. Qısqanclıq da çox böyük bir bəladır. Məktəblərdə də vardır, hətta mən məktəbdə ikən, məsələn bir-birlərinə imtahanın necə keçdi soruşarlar, çox pis keçdi deyər. 10 ala biləcək şagird, nə üçün belə deyər. Yaxşı keçdi desə, həsəd edib onun başına bir iş gətirərlər deyə çəkinər. 10 aldığında də təəccüblənmiş kimi edər, deyər ki, necə oldu 10 aldım, maraqlıdır bomboş kağız verdim, 10 aldım. Elə deyil? Amma bu bir taktikadır, məsələn paxıllıqlarından asan bir məsələnin həllini yoldaşlarına izah et deyəndə, onu çətin izah edər, belə qarışıq, onun anlaya bilməyəcəyi kimi, yəni sürünsün tərzində.

Adnan Oktar: Məsələn fərz edək kompüter də asan bir məlumatı, asan formada izah etmək istəməz. Yəni asanlıqla qavranacaq şəkildə deyil də, çətin və dolaşıq hala gətirər. Onun da mənşəyində paxıllıq vardır. Çox gözəl bir insana paxıllıqlarından “gözəlsən” deməzlər. Paxıl adam ağla gəlməyən qüsurlar tapar, yəni belə o murdar ağızı ilə, çox alçaq bir kindarlığı ilə, heyrətlər içərisində qalarsan, təəccüblənərsən, nifrəti onun ruhunu örtdüyü üçün. Halbuki bir insan başqasına baxdığı zaman onun yalnız gözəl yönlərini görməlidir. Allah onda təcəlli edir. Şəfqət nəzəri ilə mərhəmətlə, qoruma hissi ilə Allahın məzlum bir qulu deyilmi? Allahın məzlum bir təcəllisi, mərhəmətlə baxıldığında və hər şeydə bir gözəllik olaraq baxıldığında, Allah onu gözəlləşdirər. Yəni hər şeydə gözəl tərəfinə baxmaq lazımdır.

# Romantik sevgi anlayışı

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)

Romantik sevgi anlayışından bəhs etmədən əvvəl möminlərin əsl sevgi anlayışının necə olduğunu xatırlatmaqda fayda vardır. İman sahibi olan şüurlu insan Allahı qəlbən sevməli, Ona yaxınlaşmalı və bağlanmalı olduğunu bilir. Çünki onu yoxdan var etmiş, bədənini, ağlını, şüurunu, imanını və sahib olduğu hər şeyi O vermişdir. Bütün ehtiyaclarını ödəmiş və ödəməkdədir. Onun üçün bu dünyada saysız nemətlər yaratmışdır. Allaha iman etdiyi və itaət etdiyi təqdirdə də onu həm dünyada, həm də axirətdə çox böyük və sonsuz bir nemətlə - özündən bir sevgi və razılıqla müjdələyir. Bütün bunları da yalnız bir rəhmət və lütf olaraq qarşılıqsız şəkildə verir. O halda əsl mənada hər kəsdən çox sevilməyə layiq olan yalnız Allahdır. Allah möminləri "(Ancaq) Rəbbinə üz tut!" ayəsi ilə bu mövzuda xəbərdar etmişdir. (İnşirah surəsi, 8)

İnsanlara duyulan sevgi də Allah sevgisindən qaynaqlanır. Allahı sevən insan Allaha itaət edən qullara qarşı şəfqət duyğusu hiss edir. Bu da, Allahın bu insanlar üzərindəki təcəllilərinə duyulan əsl sevgini meydana gətirir.

Sevginin meydana gəlmə səbəblərindən biri də sevilən kimsədəki üstün və gözəl xüsusiyyətlərə qarşı duyulan maraq və heyranlıqdır. Bu maraq və heyranlıq qarşı tərəfdən də qarşılıq gördüyündə aradakı əlaqə qüvvətli bir sevgi hissinə çevrilir. Ancaq burada əhəmiyyətli olan üstünlük və

gözəlliyin əsl sahibini tapmaq, maraq, sevgi və heyranlıq hisslərini ona yönəltməkdir. O da bütün gözəlliklərin, üstün və uca sifətlərin qaynağı, sahibi olan Allahdır. Onun yaratdıqlarının sahibimiş kimi göründükləri üstün sifətlər isə, yalnız Allahın sonsuz sifətlərinin çox kiçik əks olunmasıdır və həqiqətdə Allaha aiddirlər. Ancaq müvəqqəti olaraq Allahın qulları üzərində təcəlli etməkdə, yəni əks olunmaqda, görünməkdədirlər.

Bu səbəbdən, sevgi ancaq Allahın Şəxsinə duyulmalıdır. Onun təcəllilərinə qarşı olan sevgi isə, ancaq Allahı unutmadan, Onun adına bəslənə bilər. Bir insanı və ya bir əşyanı Allahdan ayrı, müstəqil varlıq olaraq görüb də, onu, Allahı sevər kimi sevməsi isə, şərik (şirk) qoşduğunun ən diqqətə çarpan əlamətlərindən biridir.

Yanlış sevgi bəsləmə nəticəsində şirk qoşmanın cəmiyyətdə bir çox növləri vardır. Atasını şirk qoşma, oğlunu şirk qoşma, arvadını, ərini, ailəsini, idarə rəhbərlərini şirk qoşma bunlardan bəziləridir. Hamısının da əsasında yanlış sevgi hissi vardır.

Bir ayədə müşriklərin Allahı buraxıb bütlərə qarşı sevgi bəsləmələri belə bildirilir:

> *(İbrahim) dedi: "Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allahı buraxıb bütlərə pərəstiş etdiniz. Sonra isə Qiyamət günü bir-birinizi kafir adlandırıb lənətləyəcəksiniz. Sığınacağınız Od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz".*
>
> **(Ənkəbut surəsi, 25)**

Axirətdə bu sevgi bağının nifrətə və qarşılıqlı inkara çevrildiyi isə yenə Quranda bizə bildirilər. Bunun səbəbi, aralarında sevgi bağı quraraq bir-

birlərini büt edənlərin, axirətdə bir-birlərinin sonsuz əzabına səbəb olmalarıdır. Yalnız Allahı İlah edən bir kimsənin başqa bir şeyi, başqa bir kimsəni Allah qədər ya da Ondan daha çox sevməsi mümkün ola bilməz. Bunun əksini edən müşriklər isə ayədə belə təsvir edilər:

İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini (Ona) tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər. (Bəqərə surəsi, 165)

Ayədə iman edənlərin ən çox Allahı sevdikləri ifadə edilmişdir. Allahdan qeyrilərinə duyduğu sevgi daha güclü olan bir kimsənin iman edənlərdən olduğunu söyləmək mümkün deyil. Bunun əksini iddia edən bir insanın səmimi olmadığı, ya da Allahı və dini tanımadığı şübhəsizdir. Ayənin sonundan şirk qoşanların Allah haqqında səhv və az məlumata, anlayışa sahib olduqları aydın olur.

Bu cür insanlar Allahı lazım olduğu kimi təqdir edə bilmədiklərindən (Zumər surəsi, 64-65) sahib olduqları sevgi duyğusunu öz nəfslərinə və ya başqa insanlara yönəldirlər. Bunlar ataları, oğulları, qardaşları, arvadları, ərləri, sevgililəri, nümunə götürdükləri insanlar, heyran olduqları insanlar kimi bir çox insan ola bilər. Bəzi insanlarda bu sevgi cansız obyektlərə, hətta mücərrəd anlayışlara da istiqamətləndirilir. Pul, mal, ev, avtomobil, hər hansı bir əşya, vəzifə, iqtidar kimi anlayışlar bütləşdirilir. Qısacası, imanla istiqamətləndirilməyən sevgi özü ilə bərabər şirk qoşmağı gətirir. Bu sevgi rasional olmadığı, yəni Allaha istiqamətləndirilmədiyi üçün romantik sevgidir. Allah Quranda belə bir sevginin insanlara fayda gətirməyəcəyini, əsl qazancın Allah Qatında olduğunu belə bildirmişdir:

Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. (Ali İmran surəsi, 14)



Romantik qadın-kişi münasibətində kədər, gözyaşı, pessimizm imtina edilməz ünsürlərdir. Bunların bütün dünyaları qarşılarındakı insandır. Onun necə baxdığı, nə söylədiyi üzərinə saatlarla düşünə bilərlər. Bu da melanxolik, ağıldan kənar ruh halı meydana gətirər.

Doğru olan isə bütün bunları Allahın yaratdığı varlıqlar olaraq sevmək və onları Allahın vermiş olduğu bir nemət olaraq qiymətləndirməkdir. Xüsusilə insan sevgisi Allahın yaratdığı gözəl bir hissdir. Allah Quranda insanı "ən gözəl surətdə" yaratdığını bildirmişdir. Bu səbəbdən Allaha itaətli, gözəl əxlaqlı insanlara layiq olduqları şəkildə dərin bir sevgi bəsləmək də gözəl əxlaqın bir nümunəsidir. Möminin duyduğu bu sevgi dindən uzaq cəmiyyətlərdə yaşanan heç bir sevgi ilə müqayisə edilə bilməyəcək, çox uca, dərin bir duyğudur.

Sonrakı səhifələrdə isə Allahın bir nemət olaraq insana verdiyi bu uca duyğunu yaşaya bilməyən insanlardan danışacaq, sevgi yolu ilə yaşanan

şirk modelinin ən çox rast gəlindiyi qadın-kişi əlaqələri üzərində xüsusilə dayanacağıq.

İnsan dünyəvi dəyərlərlə xoşbəxt olmaz, insanı xoşbəxt edən səmimi, dərin Allah sevgisidir

Adnan Oktar: Məsələn gəlir adam, əlində bir-iki kilo şokolad almış, qız evinə gedir, istəməyə gəlir. Soruşurlar, “harada oxuyursan, mühəndissən, həkimsən, pulun var, evin var?” Niyə soruşmursunuz, “Allahın dininə xidmət edirsən? Təqvalısan? Nə qədər xidmət etdin indiyə qədər, Allah üçün nələr etdin?” Elə deyil? “Bu yaşa gəlmisən, sən çox faydalı işlər etməliydin. Hansı insanın hidayətinə vəsilə oldun, nələr etdin?” deyə soruşmaq və onun təqvalı olub-olmadığına fikir vermək lazımdır. İnsan ancaq bundan xoşbəxt olar. Yoxsa avtomobillə, evlə xoşbəxt olsa hər yer ev, avtomobil dolu; yəni onunla insanlar xoşbəxt ola bilməz. Evi, avtomobili olub da bir çox intihar edən insan var, depressiyaya girən insan var. İnsan ancaq Allahın zikri ilə ürəyi mutmain olar, Quranın işarəsidir bu.

Adnan Oktar: Quranın ayəsidir, şeytandan Allaha sığınaram. Mömin qadın da daim cənnətdəki kimi dərin ehtirası axtaracaq, dərin sevgini axtaracaq. Allahın ruhuna qoyduğu o dərin gücü tapmağa çalışacaq. Hər qadının ruhunda şiddətli bir sevgi gücü vardır, ehtiras gücü. Bu ancaq Allahın Rəsulunun yolunda irəliləyən, Qurana tam tabe olan, mömin müttəqi insanla qarşılaşdığında, mömin qadında ortaya çıxan bir gücdür. O, ruhunda bir qutu kimi dayanar onun, bir güc olaraq dayanar, bir transformator kimi dayanar. Bu heç bir şəkildə işləməz normalda, yəni nə evlə, nə avtomobillə, nə pulla, nə tiplə bu gücü ruhunda qadın hərəkətə keçirə bilməz. Ancaq təqva ilə, Allahdan çox qorxan, çox ağıllı bir insanla qarşılaşdıqda qadının ruhunda bu güc ortaya çıxmağa başlayar. Və qarşısındakı insan nə qədər ağıllıdırsa, nə qədər təqvalıdırsa, ruhundakı

güc o qədər şiddətli, ona zövq verərək ortaya çıxar. Məhz bu, qadının gözəlliyini meydana gətirən, qadın deyilən varlıqdır.

Adnan Oktar: Bunu təqdim etdiyində ondan böyük zövq alar. Gecə-gündüz bundan zövq alar. Hətta onun həyəcanından bir çox qadın da yata bilməz. Yəni yata bilməyəcək dərəcədə zövq alar. Kişidə də eyni güc vardır, eyni xüsusiyyət vardır, Allah ikisini birlikdə bir-birinə yapışdırar sanki, yəni müdhiş bir güc meydana gəlir. Mömin qadın bunu axtaracaq. Əks təqdirdə, istədiyi qədər evi olsun, istədiyi qədər avtomobili olsun və ya hər hansı aktyora oxşayırsa oxşasın, bu, qarşıdakı şəxsə təsir etməz. Yəni ona bir ət yığını olaraq, avtomobillər metal yığını olaraq, ev də bir beton yığını olaraq görünər; yəni heç bir şəkildə təsirlənməz. Ancaq Allahın nuruna, Allahın təcəllisinə niyyət edərək, o qarşısındakı insanı Allahın təcəllisi olaraq gördüyündə, o bolluğu o nuru hiss etdiyində, ruhundakı o şiddətli güc hərəkətə keçər. (Kral Karadeniz TV, 30 yanvar 2009)

Qadın-kişi münasibətində şirk sevgisi

Qadın-kişi münasibətində Allah rizası xaricində qurulan qarşılıqlı bağlılıq insanları şirkə sapdıran ən əhəmiyyətli mövzulardan biridir. Bunlar evlilik, ya da cəmiyyətdə geniş yayılan evlilikdən kənar münasibətlər şəklində ola bilər.

Bu romantik sevgi anlayışında Allah qarşısında yerinə yetirməli olduqları bütün vəzifələri bir-birlərinə qarşı qoyan, bir-birlərini Allahdan asılı olmayan müstəqil varlıqlar olaraq görən, Allaha qarşı duyulacaq hissləri bir-birlərinə qarşı duyan "sevgililər" ortaya çıxır. Bu insanlar Allahı zikr etmək (xatırlamaq) yerinə, daim bir-birlərini zikr edərlər (xatırlayarlar). Səhər gözlərini açdıqlarında özlərini yaratmış və onlara yeni bir gün verən Allahı xatırlayıb Ona şükür etmək əvəzinə, bir-birlərini düşünür, bir-birlərini xəyal edirlər. Özlərini Allaha bəyəndirməyə deyil, bir-

birlərinə bəyəndirməyə çalışırlar. Allah və Onun dini üçün fədakarlıq etməzlər, amma bir-birləri üçün müxtəlif fədakarlıqlar göstərərlər.

Qısacası, bu insanlar bir-birlərini ilah olaraq qəbul edərlər. Dünyada son dərəcə geniş yayılan bu sevgi anlayışının nümunələrinə baxıldığında, romantik kişilərin və qadınların açıq şəkildə bir-birlərinə "sənə tapınıram" kimi ifadələr istifadə etdikləri görülə bilər. Romantik sevgililərin bir-birləri ilə söhbətlərində, yazdıqları şeirlərdə "hara baxsam səni görürəm, hara getsəm səni düşünürəm" kimi ifadələr yer alır. Halbuki hara baxılsa və hara gedilsə düşünüləcək tək varlıq aləmlərin Rəbbi olan Allahdır.

Göründüyü kimi, xalq arasında günahsız, hətta məqbul bir sevgi növü olaraq görünən romantik eşq əslində Allah Qatında lənətlənmiş olan "şirk qoşma"nın bir parçasıdır. "Həqiqətləri tərsinə çevirən şeytan" hər mövzunu olduğu kimi bu anlayışları da əslindən uzaqlaşdıraraq insanlara bəzəkli göstərməkdə, insanların çoxu da şeytanın göstərdiyi yolu izləməkdədir:

> *Allaha and olsun ki, səndən əvvəl də ümmətlərə elçilər göndərmişdik. Şeytan isə o (kafir) ümmətlərin əməllərini özlərinə gözəl göstərmişdi. Şeytan bu gün də onların dostudur. Onlar üçün ağrılı-acılı bir əzab vardır.*
>
> **(Nəhl surəsi, 63)**




Əvvəllər duyğularının təsirinə girərək, özünə qapanan, utancaq və depressiyalı bir həyat sürən insanların bəzən bütün əxlaqi dəyərlərini bir kənara ataraq, azğın və sərhəd tanımaz həyat içinə girdikləri görülər. Homoseksualların etdiyi davranışı göstərən yandakı şəkildə, bu cür əxlaqsızlığın bir nümunəsi sərgilənməkdədir.

...Şeytan onlara etdikləri əməlləri gözəl göstərib onları haqq yoldan çıxartdı... (Ənkəbut surəsi, 38)

Quranda bu cür romantik münasibətlərdə qadınlara qarşı bəslənən ehtiras dolu sevgiyə xüsusilə diqqət çəkilir. Bu qadın kiminsə həyat yoldaşı, sevgilisi, hətta uzaqdan "platonik" sevgi bəslədiyi hər hansı bir qadın da ola bilər. Əgər bu, Allahı unutduran, Allahı xatırlamağa mane olan, qəlbdən Allah sevgisini çıxarıb onun yerinə qoyulan bir sevgidirsə, o zaman insanı şirkə aparar. Şübhəsiz, eyni təhlükə yalnız kişilərə deyil, qadınlara da aiddir.

Romantik qadın-kişi münasibəti yaşayanlar çox vaxt bu həqiqətlərdən xəbərsizdir. Özlərini atdıqları təhlükəni dərk etmirlər. Çünki çoxu uşaqlıqdan bəri cəmiyyətdən aldıqları yanlış təlqinlərin və özlərinə doğru

yolu göstərəcək yeganə rəhbər olan Qurandan və Peyğəmbərimiz (s.ə.v)-in həyatından bixəbər olmalarının bir nəticəsi olaraq, etdiklərinin Allah Qatında günah olduğunu bilmirlər. Allahın dinindən uzaq yaşadıqları üçün, əvvəl də ifadə etdiyimiz kimi, böyük bir bataqlığın içində olmalarına baxmayaraq, özlərini doğru yolda zənn edirlər. Allaha iman etmədikləri üçün ağıl və anlayışları korlanmışdır.

Ağılsız yaşanan şirk sevgisi bir-birlərini ilah etmiş qadın və kişiləri bəzən çox böyük fəlakətlərə sürüyər. Məsələn, bir-birinə aşiq iki gəncin birlikdə intihar etməkdən zövq alacaq dərəcədə ağılları bağlana bilər. Dünyəvi şərtlərin qovuşmalarına mane olduğu iki gənc eşqlərini “əbədiləşdirmək”, “ruhlarının sonsuza qədər birlikdə olması” kimi mənasız və reallıqdan uzaq təlqinlərlə əl-ələ tutaraq özlərini bir körpüdən ata bilərlər. Halbuki bunu edərkən əslində özlərini cəhənnəm çuxuruna atdıqlarının fərqində deyillər. Haram olan hərəkəti bir maneə görmədən reallaşdırarkən öldüklərində Allaha qovuşacaqlarına deyil, bir-birlərinə qovuşacaqlarına inanırlar. Son anda ölüm mələklərini gördüklərində bunu anlayarlar, ancaq artıq iş-işdən keçmişdir. Qəzetlərdə tez-tez ümidsiz aşiqlərin intiharlarından, yazdıqları romantik məktublardan bəhs edən xəbərlərə rast gəlmək mümkündür. Bütün bunlar romantizmin insanların ağıllarını və şüurlarını nə dərəcədə bağlaya bildiyinin konkret nümunələridir.

Bu dünyada romantizm səbəbindən gözü bağlı sevdiyi, ilah etdiyi həyat yoldaşını axirətdə öz nəfsini qurtarmaq üçün fidyə olaraq verməyə çalışacaq. Çünki gözündəki pərdə qalxmış, ona vəd edilən əzabın həqiqi olduğunu anlamışdır. Ayələrdə bu insanların axirətdəki davranışları belə təsvir edilir:

(Halbuki) onlar bir-birini görəcəklər. Günahkar o günün əzabından qurtarmaq üçün fidyə vermək istəyər – öz oğullarını, həyat yoldaşını və

qardaşını, ona sığınacaq vermiş nəslini və yer üzündə olanların hamısını – təki (bu) onu xilas etsin. (Məaric surəsi, 11-14)

Bir başqa ayədə də eyni vəziyyət belə təsvir edilir:

> *O gün insan qaçacaq öz qardaşından, anasından, atasından, arvadından və övladlarından! O gün onlardan hər birinin yetərincə işi olacaqdır.*
>
> **(Əbəsə surəsi, 34-37)**



Hürriyet qəzeti, 30.01.1999 Hürriyet qəzeti, 01.06.2000 Sabah qəzeti, 21.10.2000 Sevdiyi bir insan onu tərk etdiyi üçün və ya sevdiyi adam ilə dünya şərtlərində bir yerə gələ bilmədiyi üçün intihar etmək, sevdiyi insandan maraq görə bilmədiyi üçün özünə zərər vermək, arvadı ilə və ya əri ilə savaşdığı üçün özünü öldürməyə cəhd etmək... Bu tərz xəbərlər qəzetlərdə, televiziyalarda, xəbər saytlarında zamanla qarşımıza çıxar. Şübhəsiz bütün bunlar, qadın-kişi münasibətlərində romantikliyin səbəb olduğu azğınlıqlardandır. Yuxarıda da bu azğınlığın müxtəlif nümunələri görülməkdədir. Ən üstdəki İngiliscə xəbərlərdə, arvadının ölümünün ardından özünü öldürən (solda) və sevgilisi ilə savaşdığı üçün sulfat turşusu içib ölən insanları xəbər verir. Şübhəsiz şeytan, bu insanları aldadaraq doğru yoldan sapdırmışdır.

Şirkə əsaslanan romantik sevgi anlayışı cəmiyyətdə "eşq", "romantizm", "saf və təmiz duyğular" və s. şəklində günahsız göstərilir, hətta ucaldılıb təşviq edilir. Xüsusilə də, gənc yaşdakı insanları təsirinə alan bu romantizm təlqini ağıl və şüurun inkişafına mane olduğu üçün dindən, imandan, yaradılış məqsədlərindən xəbərləri olmayan, Allahı unutmuş,

Allah sevgisini, Allah qorxusunu bilməyən, şirki təbii davranış, bir həyat tərzi halına gətirmiş azğın nəsillər ortaya çıxır.

Televiziyada və filmlərdə romantizm və romantik mövzular çox sıx bir şəkildə insanlara təlqin edilir. Romantiklik sanki insanın təbii ehtiyacı olaraq irəli sürülür. Romantizm mahnılarda, şeirlərdə, kitablarda ən populyar, ön planda olan mövzudur. Şeytan romantikliyin insanların həqiqətləri görmələrinin, ağıllarından istifadə etmələrinin, Allahı xatırlamalarının, yaradılış məqsədlərini və axirəti düşünmələrinin qarşısını alan, onları dini yaşamaqdan uzaqlaşdıran, şirkə aparan xəstəlik olduğunu çox yaxşı bilir. Buna görə hər təbəqədə və hər sektordakı tərəfdaşlarını, romantiklik təlqinini ən çox və sıx olaraq dəstək olacaq şəkildə istiqamətləndirir.

Bu səbəblə, şirk qoşmağı yalnız daşdan-taxtadan hazırlanmış bütlərə səcdə etmək olduğunu hesab edənlər və bu dünyada özlərini kənarda görüb axirətdə də “Allaha – Rəbbimizə and olsun ki, biz müşrik olmamışdıq!” (Ənam surəsi, 23) deyənlərdən olmaqdan çox çəkinməlidirlər.

...Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. O gün onların hamısını bir yerə toplayacaq, sonra da müşriklərə: “Siz də, şərikləriniz də öz yerinizdə qalın!” – deyəcəyik. Biz onları ayıracağıq... (Yunis surəsi, 27-28)

Səmimi sevgi ağıl, iradə və səbir tələb edir, bu da ancaq dərin imanla mümkün olar

Adnan Oktar: Allah şirk qoşmağı bağışlamaz. Bir insan müşrikdirsə səni bağışladım deyə bilmərik. Şirkdən imtina etməlidir, o zaman bağışlayar. Amma məsələn, Allah verməsin içki içmişdir, zina etmişdir və yaxud yalan danışmışdır və ya buna bənzər bir şey etmişdir. Bu təbii ki, ömür

boyu belə imansız insan kimi hərəkət edə bilməz. Tövbə etdisə, imtina etdisə mömin qardaşımızdır. Yəni bağışlayarıq təbii ki, biz də bağışlayarıq. Çünki o əsas Allahın bağışlayacağı bir mövzudur. Yəni Allah onu cəzalandırar. Bu səbəbdən biz ilk etdiyində acıqlanarıq, amma imtina etsə də bağışlayarıq. Nə üçün biz hadisənin üstünə gedən mövqedə olaq? Çünki axirətdə onun hökmünü biz verməyəcəyimizə görə, Cənabı Allah olduğuna görə, bir də bizim bağışlamadığımızı düşünək, Allah əsirgəsin, yaxud hər hansı bir adamın bağışlamadığını düşünək. Ya o cəhənnəmə gedər də digəri cənnətə gedərsə? Elə deyilmi? Təbii ki, bağışlamayan cəhənnəmə gedə bilər, bağışlanılmayan da cənnətə gedər.

Adnan Oktar: O cəhənnəmdə olar o birisi cənnətdə olar. Onun üçün bağışlamaq çox əhəmiyyətlidir. Əfv olmazsa sevgi olmaz. Bağışlamaq sevginin önündəki maneələri qaldıran bir təmizləyicidir. Çünki insanların bir-birini sevməsi çox çətindir. Məsələn bir kişinin bir qadını sevməsinin qarşısında minlərlə maneə olar, yəni halalı olaraq. Məsələn tərs söz söyləyər bağışlaması lazım, səhv düşünər onu düzəltməsi lazım. Məsələn uyğun olmayan hərəkətini görər, yaxud onda sevmədiyi bir şey görər onu düzəltməsi lazımdır. Əzm tələb edir sevgi. Əzimli olmaq lazımdır, yoxsa sevgi uçar gedər. Sevgi o qədər sabit oturan bir şey deyil. Ağıl lazımdır, çox ağıllı olmaq lazımdır. İradə lazımdır, səbir lazımdır, vəfa duyğusu lazımdır, mərhəmət lazımdır. Gözəl gözlə baxmaq lazımdır, gözəllikləri görmək lazımdır, çirkinliklərə göz yummaq lazımdır. Yoxsa insan acizdir, insanı necə sevəcəksən yoxsa sən, yəni ətdən, sümükdən meydana gəlmiş bir varlıq. Onda bir dərinlik, gözəllik axtaracaqsan. Onda ehtiras axtaracaqsan, onda şəfqət və mərhəmət axtaracaqsan, elə deyilmi? Onun məsələn doğru danışmasını bir zövqə çevirəcəksən, əfəndiliyini zövqə çevirəcəksən, munisliyini zövqə çevirəcəksən. Ona şəfqət duyacaqsan, şəfqət də ayrı bir zövqdür. Şəfqət etmə, onu qoruma hissidir, o insanın

ruhunda bir məmnunluqdur. Yəni insan həyat yoldaşını sevərkən çox şeydən məmnun olar.

Adnan Oktar: Məsələn şəfqət duyaraq ayrı həzz alırsan, bağışlayaraq ayrı həzz alırsan, danışmasının gözəlliyindən ayrı həzz alırsan, amma hamısının üstündə Allahın təcəllisi olduğu üçün, Allah onda Camal adıyla təcəlli etdiyi üçün ən çox ondan həzz alırsan. Çox xoşuna gələr, yəni ruhunu dinlədər. Gözündən sevgi axar, Allahın nuru axar gözündən. Onunla birlikdə ruhun fərahlar, zövq alarsan. Sənin gözündən, onun gözünə sevgi axar, ondan zövq alarsan. Amma bunun meydana gəlməsi üçün hər iki tərəfin də çox dürüst olması lazımdır. Yəni qarşındakının saxtakar olduğunu bildiyində sən avtomatik kilidlənərsən, yəni beynin səni kilidlər. Sən desən ki, "sev onu", bütün gücünlə bədəninə əmr etsən də, bədən beton kimi dayanar, yəni heç vaxt sənə icazə verməz. Əgər "gözümdən sevgi axsın" desən, gözünə pərdə gələr, o sevgini axıda bilməzsən.

Adnan Oktar: Yəni ruhumda bir sevgi axışı olsun desin, Allah onu kəsər, edə bilməzsən. İstədiyi qədər qarşındakı tələb etsin, olmaz. Mütləq çox dürüst olmalıdır. Yəni onun dürüstlüyünə beyninin inanması lazımdır. Baxın, beynin inanacaq, beyin inanmasa, beyin əlaqəni avtomatik kəsər. Məsələn yalan danışmaması, hər doğru danışanda daha çox sevərsən, yəni çox zövq verən bir duyğudur yalan danışmaması. Məsələn gözündəki ehtiras və dərinlik, o iman və ağılla mütənasib olaraq insan onu ala bilər qadından, yəni ağılı olmayan 1% ala bilər amma ağılı olan 100% ala bilər, bəzi insanlar 30% ala bilər, 40% ala bilər. Yəni bir "çəkib çıxardan" vardır, məsələn kişi çəkər qadın da onu buraxar gözündən amma "çəkən" olmasa qadın buraxa bilməz onu. Yəni buraxsa da qalar onda, yəni onun axması üçün mütləq çəkənin gücü lazımdır.

Adnan Oktar: Bu güc isə yalnız Allaha dərin iman və Allah qorxusu ilə olar. Allahdan qorxmadığını bildiyin bir adama, bir qadına gözündən sevgi verə bilməzsən, qadın da ona sevgi verə bilməz. Çünki hələ Allahı dərk edə bilməyəcək qədər ağılsızdır. Yəni bu qədər böyük bir gücü, bu qədər möhtəşəm bir gücü dərk edə bilmir, onu dərk edə bilməyən səni necə dərk etsin? Allaha vəfası olmayan, Allaha təşəkkür etməyən sənə niyə vəfa göstərsin, sənə niyə təşəkkür etsin? Allahın dinini qorumaq istəməyən, səni niyə qorumaq istəsin? Allaha qarşı içində vəfa hissinin olması, bağlılıq hissinin olması onun aliliyini göstərər, olmaması isə bəsitliyini və adiliyini göstərər.

Adnan Oktar: Beyin onu dərhal seçər. Görsə ki, onun Allaha qarşı vəfası yoxdur, bu vəfasızdır deyər, bu xaindir və namərd deyər. Dərhal onu fikrindən silər. Amma çözümsüz deyil. O pisliyi alıb kənara atar, yenidən təmizləyər, o zaman göz onu dərhal görməyə başlayar. Yəni gözün üstündəki pərdə qalxar, amma qarşı tərəfin onu gözdən alıb silməsi lazımdır. Çünki o pərdəni özü qoymuş, pərdəni çəkdisə yenə görməyə başlayarsan, məhz bağışlama budur. Yəni onun o pərdəni çəkməsi ilə olar. Amma pərdəni çəkmiş, amma sən daha da inad edirsənsə, buna məhz bağışlamama deyərlər. Yəni bu da sevgisizliyin zəminini hazırlayır. Onun üçün, məsələn evlənənlər bir həftə, bir ay sonra boşanmaya çalışarlar, bilirsiniz. Dərhal vəkilimə zəng edim boşanacağam, bir-birini evdən qovmalar və rüsvayçılıq. Deyək ki, belə bir şey olsa, amma ömür boyu təbii ki, qadın unuda bilməz belə bir şeyi. Yəni belə bir tələblə gəlsə.

Adnan Oktar: Amma qadın bunu düzəltsə və ya kişi bunu düzəltsə təbii ki, orada Allah aralarında bir sevgi bağı meydana gətirər. Yəni sevginin öz gücü ilə əldə edəcəyini düşünsə məhz bu şirkdir. Yəni mən sevgini özüm əldə edərəm deyil. Allah verər. Allah verdiyində də ondan böyük zövq alar və möcüzə olaraq meydana gələr sevgi. Yəni “mənim sevmə gücüm var”... O zaman sən də sev görək, yəni belə bir şey olmaz. Sənə o zaman qoyun əti

kimi və ya mal əti kimi ətə çevrilərsən. Necə ki, heyvan əti insana təsir etmirsə, o ət də təsir etməz. Orada Allahın nurunun təcəlli etməsi lazımdır. Allahın xüsusi bir gücü vardır. Onun təcəlli edib möcüzə meydana gəlməsi lazımdır, möcüzə ilə qadına qarşı insan sevgi duya bilər. Buna görə, məsələn namaz qıldığını bilmək ona qarşı sevgini artırar. Məsələn Allah üçün qorxmur, dəli cəsarəti var çox sevərsən. Onun mərdliyini, igidliyini görərsən, çox sevərsən.

Adnan Oktar: Ağrıya dözümünü görərsən, Allah üçün eşqə çevrilər, çox sevərsən. Məsələn ağrıya dözməzsə adi insan olduğuna inanarsan. Məhz Allah da onun üçün elə sevir. Məsələn baxır ki, Onun üçün əziyyət çəkir, məsələn yerlərdə sürünür, amma Allah deyir, buraxmır Allahı. Məhz onlar Firdevs cənnətlərində, Ədn cənnətlərində olurlar, inşaAllah. Yəni cənnət sevgi əhli üçündür, dəli aşiqlərin yurdudur cənnət. Yoxsa birisi gedər cənnətə villası var, hovuzu var, stressə girər, asar özünü. Sıxılar, yəni narahat olar. Dəli aşiqlər zövq alar cənnətdən, Allah onun üçün dəli aşiq ruhunu inkişaf etdirmək üçün bura bizi gətirir. Acı və əziyyət çəkməmizin səbəbi budur, yəni bu ağrılardan əziyyətlərdən və çətinliklərdən keçdikdən sonra, cənnətin fərahlığına girdiyində, biz bu çəkdiyimiz əziyyətləri ömrümüz boyunca unutmayacağıq. Onunla müqayisə edib, cənnətdən çox zövq alacağıq, amma unutmamaq üçün də, ayrıca cənnətdə müsəlmanlara cəhənnəm göstərilər ki, daha da zövq alsınlar deyə, müqayisə edib zövq alsınlar deyə. (Adıyaman Asu TV, 14 dekabr 2009)

Möminlərin sevgisi

Qısacası, sevgi duyğusunun Allahdan başqasına, Onun yaratdıqlarına yönəltməsi şirki ortaya çıxaran əhəmiyyətli bir səbəbdir. Möminlər isə əvvəl də ifadə etdiyimiz kimi, yalnız Allahı sevərlər, digər möminləri və Allahın yaratdıqlarını da onlarda Allahın təcəllilərini, Allahın sifətlərini

gördükləri üçün Allah adına sevərlər. Allahdan asılı olmayan, müstəqil varlıqlar olaraq sevməzlər. Bu da xalis imanın şərti və göstəricisidir.

Möminin sevgisi aydın, nurlu, qəlbdə rahatlıq meydana gətirən bir sevgidir. Çünki sevgisini Allaha yönəltmişdir. Buna görə də, dünyada Allahın təcəllilərini daşıdığı üçün sevdiyi bir insan öldükdə və ya sevdiyi bir əşya itdikdə, ondan alındıqda mömin kədərlənməz, bir məhrumiyyət, ayrılıq acısı çəkməz. Çünki sevdiyi varlıqdakı maddi-mənəvi bütün gözəlliklərin, təcəllilərin əsl sahibi Allahdır. Allah əbədi və əzəlidir. Hər şeydən əhəmiyyətlisi isə ona şah damarından daha yaxındır. Allah yalnız onu sınamaq üçün müvəqqəti olaraq bəzi təcəllilərini geri almışdır. İmanını və bu anlayışını davam etdirdiyi müddətdə diləsə bu dünyada, diləsə axirətdə sonsuza qədər ona daha çox gözəl sifəti ilə təcəlli edəcək. Məhz, bu sirri qavradığı və əsl imana qovuşduğu üçün möminə kədər və dərd verəcək heç bir vəziyyət ola bilməz. Allah möminin bu ruh halını belə təsvir edir:

Həqiqətən də: “Rəbbimiz Allahdır!”– deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Əhqaf surəsi, 13)

# Romantizmin fiziki təxribatları

Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər. (Yunis surəsi, 44)

Duyğusallıq insanda ruhi və mənəvi cəhətdən böyük bir fəlakətə gətirib çıxardığı kimi, fiziki olaraq da ciddi təxribata səbəb olur. Bunların başında insanın gizlədə bilmədiyi, hər kəs tərəfindən müşahidə edilə bilən fiziki dəyişikliklər gəlir. Çünki ruhən yaşanan narahatlıqlar, gərginliklər, kədərlər təbii olaraq insanın xarici görünüşünə də əks olunur. Üz əzələləri, baxışları, mimikaları, əl və qol hərəkətləri, səs tonları bu insanların hər baxımdan duyğusallığın təsiri altında olduqlarını hiss etdirir.






...Onların üzləri sanki zülmət gecənin parçalarına bürünmüşdür. Onlar Od sakinləridir və orada əbədi qalacaqlar. O gün onların hamısını bir yerə toplayacaq, sonra da müşriklərə: "Siz də, şərikləriniz də öz yerinizdə qalın!" – deyəcəyik. Biz onları ayıracağıq... (Yunis surəsi, 27-28)





Gənclər arasında sevdiyi insanı düşünmək, gördüyü etinasızlığa görə depressiyaya girmək, sıx rast gəlinən vəziyyətdir.

Duyğusal insanlarda "psixosomatik" xəstəliklərin, yəni ruhi problemlərin gətirib çıxardığı fiziki pozulmaların hamısına rast gəlinə bilər. Bədənin fiziki müqaviməti qırılaraq gücdən düşər. Bunun nəticəsində immunitet sistemi zəifləyər və bir-birinin ardınca xəstəliklərə tutular və ya mövcud bir xəstəlikdən sağalma müddəti uzanar.

Xəstəliklərlə bərabər saç tökülməsi, ağarması, dərinin nəminin çəkilərək quruması, qalınlaşması, elastikliyini itirərək qırışması, çatlaması, bunun nəticəsində hər cür infeksiyaya yoluxması, hüceyrələrin yenilənməsi gecikdiyi üçün dərinin pis görünüş alması, rəng solğunlaşaraq üzün saralması, gözlərin solğunlaşması kimi daha bir çox dəyişiklik də onunla birlikdə yaşanar. Bu səbəblə hər şeyi problem edən romantik, kədərlənməyə meylli insanlar tez yaşlanarlar. Bədənləri illərlə, günün hər anında sürən bu gərginliyi, duyğusal fırtınaları, ruhi dalğalanmaları

qaldıra bilməz. Bunun nəticəsində də, yaşlılıq əlamətləri görünər və fiziki qüsurlar meydana gələr.

Romantikliyin insana fiziki olaraq verdiyi zərərlər bununla bitməz. İnsanın daxilindəki qaranlıq və qüssə üzünə və hərəkətlərinə da əks olunduğundan bütün dinamizmi, canlılığı, həyat sevinci, şövqü, dolayısilə də insani gözəlliyi ciddi şəkildə azalar. Baxışlarının donuqlaşması, gözlərinin kiçilməsi, saçlarının seyrəkləşməsi ya da cansız olması, üz əzələləri gərildiyi üçün ifadəsinin gərgin, daxili sıxıntılı olması bu dəyişmələrdən yalnız bir neçəsidir. Belə ki, şən, rahat, hüzurlu olan insanların gərgin, stressli, ağlamağa meylli insanlara görə daha uzun yaşadıqları, daha sağlam olduqları da bir çox elmi araşdırma ilə təsdiqlənmiş bir həqiqətdir.

Bundan başqa, bədənlərindəki bu dəyişikliklər qarşısında dünyanın keçici bir yer olduğunu, nə qədər aciz olduqlarını düşünmək əvəzinə və Allaha təslim olub iman etmək yerinə, yaşadıqları bu kabusu daha da şiddətləndirərlər. Yaşlanmanın, xəstələnmənin də özlərinə xeyirli olan tərəfini görə bilmədikləri üçün bu vəziyyət əhvallarını pozan, həmişə unutmadıqları narahatlığa çevrilər. Məhz, bu sonsuz dövr nəticəsində bədənlərinin də qaldıra bilməyəcəyi bir yükün altına girərlər. Belə ki, həkimlər bir çox xəstəliyin səbəbini kədər, sıxıntı, stress olaraq açıqlayarkən, tək qurtuluş yolu olaraq da yüksək əhval-ruhiyyəni və sevinci təklif edərlər.

Stress və depressiyaya bağlı olaraq yuxu və nizamsız qidalanma, təzyiq xəstəliyi, mədə, böyrək, ürək kimi daxili orqanlarda ortaya çıxan müxtəlif xəstəliklər, astma kimi tənəffüs sistemi xəstəlikləri, allergiya, ekzema, sədəf kimi dəri xəstəlikləri, miqren, xərçəng və daha bir çox problemin psixoloji qaynaqlı olduğu təsbit edilmişdir. Bədənin stress qarşısında reaksiyasının nəticəsi olaraq biokimyəvi reaksiyalar başlayar, enerji

sərfiyatı maksimum səviyyəyə çatar. Bu stress halının davamlılığında isə bədən funksiyalarını dəyişərək qeyri-stabil vəziyyətə düşər.

Stressin səbəb olduğu ağrılardan isə mütəxəssislər belə bəhs edirlər:

Stress və stressin doğurduğu gərginlik və ağrı arasında əhəmiyyətli bir əlaqə vardır. Stressin səbəb olduğu gərginlik damarların daralmasına, başın müəyyən bölgələrinə gedən qan axınının pozulmasına və o bölgəyə gedən qanın xeyli azalmasına gətirib çıxarır. Digər tərəfdən bir toxumanın qansız qalması birbaşa ağrıya səbəb olur. Çünki bir tərəfdən gərgin toxumanın daha çox oksigenə ehtiyac duyması, digər tərəfdən toxumada yaranan qan azlığı xüsusi ağrı reseptorlarını stimullaşdırır. Bu vaxt adrenalin və noradrenalin kimi stress əsnasında sinir sisteminə təsir edən maddələr də ifraz olunur. Bunlar da birbaşa və ya bilavasitə olaraq əzələlərin gərginliyini artırır və sürətləndirir. Beləcə ağrı gərginliyə, gərginlik narahatlığa və narahatlıq da ağrının şiddətlənməsinə gətirib çıxarır.12

İman etməyən insanlarda depressiya, stress nəticəsində yaddaşın zəifləməsi, diqqət dağınıqlığı, məntiqsizliklər, idarə olunmaz rəftarlar görünərkən, möminlər ağıl və ruhən son dərəcə sağlam və stabil olarlar. Çünki əsl hüzur, daimi sevinc ancaq Allaha təslim olmaqla, təvəkkül etməklə mümkün olar. Möminlər də Allaha və Allahın yaratdığı taleyə təslimiyyət və təvəkkül içində yaşadıqlarından sevincləri də, hüzurları da daimi olar. Allahdan bir nemət olaraq bu cür zərərlərdən qorunmuş olarlar.

Romantizmin insanlara gətirdiyi böyük bir bəla olan kədər duyğusu, ancaq imanın gətirdiyi təvəkkül və sevinclə ortadan qalxar. Allah cənnətə gedən möminlərin bu şəkildə həmd etdiklərini bildirir:

> *Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir.*
>
> **(Fatır surəsi, 34)**

Dünyanın ən gözəl tərəfi Allahı sevməkdir

Adnan Oktar: Dünya həyatının qayğıları içərisində yenə də bir çox insan üçün dünya çox maraqlı olur. Sanki dünyadan çox qeyri-adi bir şey qazanacaqlarmış kimi. Dünyada bir şey yox. Dünyanın ən gözəl tərəfi Allahı sevməkdir, Allah eşqidir, dərin sevgi ilə Allaha bağlanmaqdır. Allahın hökmlərini, Quranın hökmlərini çox sevməkdir. Allahın hökmlərini yerinə yetirmək çox zövqlüdür. Dindən güzəştə getməmək çox zövqlüdür. Qurandan əsla güzəştə getməmək çox zövqlü bir hadisədir. Qurana möhkəm sarılmaq çox zövqlüdür. Ayrı bir dərinliyi vardır, ayrı bir xüsusi zövqü vardır, müsəlmanların bildiyi xüsusi bir zövqdür. Allahı eşqlə, dərin sevgi ilə sevmək zatən böyük bir nemətdir və o zaman insanları da dərin sevgi ilə, Allah rizası üçün sevərik. Allahın təcəllisi olaraq sevərik.

Adnan Oktar: O zaman, bu bizdə dərin və şiddətli təsir meydana gətirər. Yoxsa insanda bir şey yoxdur. Yəni zülal, sümük, bağırsaq, qaraciyər, dalaqdan meydana gəlmiş bir ət yığınıdır, bir şey yoxdur insanda. Allahın təcəllisi olduğu üçün bu qədər şiddətli sevirik. Bu dərin sevginin səbəbi Allahın təcəllisi olmasıdır. Allah çünki bizə insan şəklində təcəlli edir beynimizdə, bu şəkildə görürük. Biz Allahı sevdiyimiz üçün, insanı sevirik. Əks təqdirdə insan bizim üçün heç bir şey ifadə etməz, dünya da heç bir şey ifadə etməzdi. Dənizlər bizi qorxudardı, dağlar qorxudardı hətta insan da qorxudardı. İnsanı gördüyündə qaçacaq yer axtarardı. Yəni heç bir şey ifadə etməyəcəkdi. Allahı sevdiyimiz üçün, içimizdəki bu eşq və dərin sevgi duyğusu şiddətli olaraq ruhumuzda var. Çünki Allah sonsuz dərəcədə gözəldir və bizə də sonsuz eşq ruhu vermişdir. O ruh hərəkətə

keçdikdə, əgər mömindirsə cənnəti eşqlə sevir. Cənnətin ağaclarını eşqlə sevir, Cənnətin bitkilərini, insanlarını, oradakı vildanları, huriləri hamısını eşqlə sevir, Allah eşqi ilə sevir. Buna görə çox böyük zövq alır. Yoxsa bir dinsizi aparsan, cənnətə qoysan sıxılar adam stressə girər. Cənnət köşkləri onun üçün heç bir şey ifadə etməz. Cənnətdəki insanlardan da narahat olar. Ancaq imanla bu zövqlü olur. (Aksu TV, 28 yanvar 2010)

# Nəticə: Romantizm xəstəliyindən xilas olmaq

Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. (Zumər surəsi, 61)

Dindən uzaq əxlaq və həyat sürən insanlarda ən köklü şəxsiyyət pozuntularından biri olan romantiklik, əslində zənn edildiyi kimi insanın doğuşdan sahib olduğu, ya da tərk edə bilməyəcəyi bir xarakter xüsusiyyəti deyil.

Bu ruh halı insanın şüurlu, ya da şüursuz təlqinlə əldə etdiyi bir istiqamətdir. Bu səbəbdən duyğulara qapılmanın (ağlamağın, kədərlənmənin, hirslənmənin) iradələrindən kənar olduğunu və buna müqavimət göstərə bilmədiklərini iddia edənlər də səmimi olaraq düşündüklərində bunun doğru olmadığını görəcəklər. Məsələn, ağlayan, kədərli bir insana böyük məbləğdə pul təklif edilsə, ya da başqa mənfəət təqdim edilsə birdən-birə sevinəcək, istədiyi anda bu ruh halından asanlıqla çıxa biləcək. O zaman xüsusi olaraq düşdüyü bu romantik hal həm ətrafına qarşı vicdansız hərəkət, həm də Allahın Quranda xəbər verdiyi kimi öz-özünə zülm etməsidir:

Həqiqətən, Allah insanlara əsla zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər. (Yunus surəsi, 44)

Ancaq romantik insanlar bu həqiqəti qavraya bilməzlər. Onlar həmişə hüznlü və ümidsiz ruh halı içindədirlər. Hansı şərtlər altında olursa-olsun, kədərlənəcək, sıxıntı duyacaq bir mövzu taparlar. Əslində bu insanlar özləri özlərinə zülm edirlər. Bu barədə bir ayədə belə deyilir:

İnsanlara mərhəmət göstərdikdə ona sevinərlər. Öz əlləri ilə etdikləri günahlara görə onlara bir bəla üz verdikdə isə dərhal ümidlərini üzərlər. (Rum surəsi, 36)

Bu insanların romantik ruh halından çıxa bilməsi, bu xəstəlikdən xilas ola bilməsi üçün şeytanın vədlərinə, yalanlarına qarşı ayıq, ağlının və vicdanının da tam açıq olmalıdır. Bu isə ancaq insanın imanı ölçüsündə mümkün olar.

Həqiqi müsəlman özünə romantizmin acizliyini yaraşdırmaz: Ağıllı olar, problemləri həll edər, ətrafındakılara nümunə olar. Müsəlman gözəl əxlaqı yaşamasından, gözəl söz söyləməsinə görə də təbii olaraq şən olar. Çünki doğru rəftarın müjdəsi, işığı, nuru ən çətin mühitdə belə insana nəşə və sevinc verəcək: Dünyada hüzurlu, şanlı, şərəfli gözəl bir həyata, axirətdə isə sonsuz nəşə və sevincə vəsilə olacaq. Bu səbəbdən hər an Allahın bəyənəcəyi niyyət və hal içində olan möminlər üçün kədər və ya sıxıntı mövzusu olacaq, onları pessimizmə sürüyəcək heç bir şey olmaz. Bir ayədə Allah belə bildirir:

Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər. (Zumər surəsi, 61)

Möminlərdəki sevinc, xoşbəxtlik, hüzur və güvən, onlar üçün cənnət mühitinin dünya şərtlərindəki bir əksidir. Dünyada başlayan bu sevincləri axirətdə Allahdan ümid etdikləri cənnəti qazanmış olmanın dəqiqləşməsi ilə birlikdə daimi olar. İnananların axirətdəki sevincli vəziyyətləri bir ayədə belə bildirilmişdir:




Romantikliyin gətirib çıxardığı ruhi problemlər, fiziki narahatlıqlara səbəb olmaqda, bu da müxtəlif xəstəliklərlə özünü göstərməkdədir.

Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər. (İnsan surəsi, 11)

Bir başqa ayədə isə Allah axirət günü möminlərlə inkarçılar arasındakı fərqi belə bildirir:

O gün (neçə-neçə) üzlər parlayacaq, güləcək və fərəhlənəcəkdir. O gün (neçə-neçə) üzlərə toz-torpaq hopacaq, onları zülmət bürüyəcəkdir. Məhz onlardır kafirlər, günahkarlar! (Əbəsə surəsi, 38-42)

İnkarçılar da axirətdə dünyada şeytana uyaraq yaşadıqları cəhənnəm həyatının əslini (qat-qat şiddətlisini və sonsuza qədər sürəcək olanı) yaşayarlar. Eynilə möminlərin sevinc və xoşbəxtliklərinin cənnətdə sonsuz və müddətsiz davam edəcəyi kimi:

*(Qiyamət) gəldiyi gün Allahın izni olmadan heç kəs danışa bilməz. Onlardan kimi bədbəxt, kimi də xoşbəxt olacaq. Bədbəxtlərə gəlincə, onlar Od içərisində qalacaqlar. Onlar orada fəryad qoparacaq və zarıyacaqlar. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Həqiqətən, Rəbbin istədiyini edəndir. Xoşbəxtlərə gəldikdə isə, onlar Cənnətdə olacaqlar. Rəbbinin dilədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. (Bu,) tükənməz bir sovqatdır.*

**(Hud surəsi, 105-108)**

# Ədəbiyyat

1. Michael Howard, The Occult Conspiracy: The Secret History of Mystics, Templars, Masons and Occult Societies, 1-ci nəşr., London: Rider, 1989, səh. 106

2. Gerhard Rempel, "Reform, Liberation And Romanticism In Prussia", http://mars.wnec.edu/~grempel/courses/germany/lectures/07reform.html

3. Michael Baigent, Richard Leigh, Henry Lincoln. The Messianic Legacy. London: Corgi Books, 1991. səh. 199

4. Anthony Smith, İnsan, Yapısı ve Yaşamı, Remzi nəşriyyatı, İstanbul, 1979, s səh. 33

5. James Joll, Europe Since 1870: An International History, Penguin Books, Middlesex, 1990, səh. 164

6. James Joll, Europe Since 1870: An International History, Penguin Books, Middlesex, 1990, səh. 164

7. Janet Biehl and Peter Staudenmaier, "'Ecology' and the Modernization of Fascism in the German Ultra-right", Ecofascism: Lessons from the German Experience, AK Press San Francisco, CA, 1995

8. Daniel Gasman, The Scientific Origins of National Socialism: Social Darwinism in Ernst Haeckel and the German Monist League (New York: American Elsevier; London: Macdonald & Co., 1971), səh. 23

9. Daniel Gasman, The Scientific Origins of National Socialism: Social Darwinism in Ernst Haeckel and the German Monist League (New York: American Elsevier; London: Macdonald & Co., 1971), səh. 22-23

10. Janet Biehl and Peter Staudenmaier, "'Ecology' and the Modernization of Fascism in the German Ultra-right", Ecofascism: Lessons from the German Experience, AK Press San Francisco, CA, 1995

11. Michael Baigent, Richard Leigh, Henry Lincoln, The Messianic Legacy, Corgi Books, London, 1991. səh. 194

12. Acar Baltaş, Zuhal Baltaş, Stres ve Başa Çıkma Yolları, Remzi nəşriyyatı, iyun 1997, səh. 162

> *Onlar dedilər: "Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!"*
>
> **(Bəqərə surəsi, 32)**

ƏLAVƏ BÖLMƏ

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.




Çarlz Darvin

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun

bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:



Aleksandr Oparinin həyatın mənşəyinə təkamülçü izah gətirmək üçün icra etdiyi səylər böyük bir uğursuzluqla nəticələndi. Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ təkamül nəzəriyyəsi üçün böyük bir dilemmadır.

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.




O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox

fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.

Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.

Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.



Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, dörd ayrı molekulun fərqli düzülməsindən yaranan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alar. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya ortaya çıxacağı hesablanmışdır. Əlbəttə bu cür fövqəladə bir məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız edir.

Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.



Təbii seleksiyaya görə, güclü olan və yaşadığı mühitə uyğunlaşa bilən canlılar həyatda qalar, digərləri isə yox olarlar. Təkamülçülər isə təbii seleksiyanın canlıları təkamülləşdirdiyini, yeni növlər meydana gətirdiyini qarşıya qoyarlar. Halbuki təbii seleksiyanın belə bir nəticəsi yoxdur və bu iddianı təsdiqləyən tək bir sübut belə yoxdur.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of

Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə

edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.



Sekvoya yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.



Günəş balığı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 54-37 milyon il

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)



Tozağacı yarpağı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 50 milyon il

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” (Charles Darwin, The Origin of Species, səh. 172, 280)



Dəniz şabalıdı Dövr: Paleozoy erası, Daş kömür dövrü Yaş: 295 milyon il

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.



Dəniz ulduzu Dövr: Paleozoy erası, Ordovik dövrü Yaş: 490-443 milyon il

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)



Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin

fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.



Çayır ağcaqanadı Dövr: Kaynozoy erası, Eosen dövrü Yaş: 48-37 milyon il

İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:



Australopithecus

Homo habilis

Homo erectus

Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E.

Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, cild 258, səh. 389)



Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)



Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.




Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli

cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə

əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.



Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Yuxarıdakına bənzər bir qaba canlıların meydana gəlməsi üçün lazımlı olan bütün atomları, fermentləri, hormonları, zülalları, qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilirsə edilsin, nə qədər müddət gözlənilsin bu qabdan canlı tək bir varlıq belə çıxara bilməyəcəklər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə

zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də

televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.




Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə

otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt

musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?



Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində bir təsir meydana gətirərlər. Görürəm deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edirik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər girə bilməz. Görüntü mərkəzi deyilən yer qapqaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar,

mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

وَاِذْ اَخَذَ رَبُّكَ مِنْ بَنٖى اٰدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ
وَاَشْهَدَهُمْ عَلٰٓى اَنْفُسِهِمْ اَلَسْتُ بِرَبِّكُمْ قَالُوا بَلٰى
شَهِدْنَا اَنْ تَقُولُوا يَوْمَ الْقِيٰمَةِ اِنَّا كُنَّا عَنْ هٰذَا غَافِلٖينَ

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: “Gözümüz bağlanmış, biz sehrlənmişik”, - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

> *Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.*
>
> **(Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar".

(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> *...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

### KİTAB HAQQINDA

**İnsanları din əxlaqından uzaqlaşdıran, Rəbbimiz olan Allaha qulluq etməkdən saxlayan, onların başına saysız-hesabsız dərd və bəla gətirən hiyləgər təhlükə vardır: İnsanları ağıllarına görə deyil, hisslərinə, məsələn, qəzəblərinə, ehtiraslarına və ya zəifliklərinə görə yaşamağa yönəldən "romantizm"...**

Romantizm - həyatın bir-birindən çox fərqli sahələrində, çox fərqli formalarda qarşımıza çıxa bilər. Bir faşistin hirslə sıxılmış yumruğu və ya bir kommunistin söylədiyi inqilab marşı romantizmin gətirib çıxardığı "siyasi" təhlükələrin simvollarıdır. Sevdiyi gənc oğlanı və ya gənc qızı "həyatının məqsədi"nə çevirən, onunla birlikdə olmaq adı ilə hər cür ağılsızlığı edən, hətta intihara qədər gedən romantik insanlar da, şeytanın bu hiyləgər silahının hədəfi olmuşlar. Romantizm təhlükəsinin ən əhəmiyyətli tərəfi isə insanların böyük bir hissəsinin bunu bir təhlükə olaraq görməməsidir.

Romantizmin tamamilə din əxlaqına qarşı və zidd bir ruh halı olduğunu çox az insan dərk edər. Hətta insanların çoxu bu yanlış ruh halını bir təhlükə və səhv olaraq deyil, təqdir edilməsi və yaşanması lazım olan üstünlük olaraq görür. Buna görə, bu kitabda insanların din əxlaqını qavramasının və yaşamasının önündəki ən böyük maneələrdən biri olan romantizm təhlükəsi təsvir edilir, bundan çəkinmənin yolları izah edilir.


#### MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.